Xalqın qəzeti!

# Xalq qəzeti

№ 110 (30226) 26 may 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


**Günün sözü**

**Prezident İlham Əliyev:**

Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıması barədə Ermənistan rəhbərliyinin bu yaxınlardakı bəyanatlarından, eləcə də Azərbaycan Respublikasının sahəsini konkret rəqəmlərlə göstərməklə Azərbaycanın ərazi bütövlüyünün tanınmasından sonra sülh sazişinin digər maddələrinin razılaşdırılması məsələsi daha asan olacaq.

# Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya işgüzar səfəri

## Moskvanın Vnukovo-2 beynəlxalq hava limanında qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə mayın 25-də Moskvaya işgüzar səfərə gəlib.**

Moskvanın Vnukovo-2 beynəlxalq hava limanında dövlətimizin başçısını Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin və digər rəsmi şəxslər qarşıladılar.

*AZƏRTAC*

## Prezident İlham Əliyev Moskvada Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclasında iştirak edib



**Mayın 25-də Moskvada Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclası keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə qonaq qismində iştirak edib.

Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclasını Rusiya Prezidenti Vladimir Putin açdı.

Azərbaycan Prezidentinin Ali Avrasiya İqtisadi Şurasının iclasında qonaq qismində iştirak etdiyini vurğulayan Rusiya Prezidenti dedi:

– Mənim üçün qeyd etmək xoşdur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyev bugünkü iclasda ilk dəfədir qonaq qismində iştirak edir. Mən onu və Azərbaycan nümayəndə heyətini salamlamaq istərdim.

Sonra Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclasında iştirak edən üzv dövlətlərin başçıları çıxış etdilər.

Təşkilatda müşahidəçi ölkə olan Özbəkistanın Prezidenti Şavkat Mirziyoyev iclasda videobağlantı vasitəsilə çıxış etdi, daha sonra Kuba Prezidenti Migel Diaz-Kanelin iclas iştirakçılarına videomüraciəti nümayiş olundu.

Rusiya Prezidenti **Vladimir Putin** dedi: Mən məmnuniyyətlə sözü qonaqlarımıza verirəm. Bir daha təkrar etdiyim kimi, sözü belə tədbirlərdə ilk dəfə iştirak edən Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevə verirəm. İlham Heydər oğlu, söz Sizə verilir, buyurun.

Dövlətimizin başçısı iclasda çıxış etdi.

*(ardı 2-ci səhifədə)*

## Moskva, öz “göz yaşlarına” inan!



Səhifə ➩ 5

# Paşinyansayağı həyasızlıq – Qərb Rusiya vasitəçiliyinə qarşı

Səhifə ➩ 5

## Kövrək ümidlərin gerçəkləşmə anı



Səhifə ➩ 6

## Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tarixi ədalətin hökmü idi

Səhifə ➩ 8



## İqtisadiyyatın rəqəmsallaşması inkişafı stimullaşdırır



Səhifə ➩ 7

## Türkiyədə seçkilər: 28 maya 2 gün qalır




Səhifə ➩ 9

## Borc limiti ilə bağlı razılaşma olmasa...



Səhifə ➩ 9

## Bərpaolunan enerji üzrə beynəlxalq əməkdaşlıq genişlənir



Səhifə ➩ 7

## Geriyə baxıb, irəlini görən ədib – İlyas Əfəndiyev



Səhifə ➩ 10

## Azərbaycan şairi Qazaxıstan mükafatı aldı



Səhifə ➩ 11

# Prezident İlham Əliyev Moskvada Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclasında iştirak edib




## Prezident İlham Əliyevin çıxışı

– Hörmətli Vladimir Vladimiroviç.

Hörmətli dövlət başçıları, hörmətli iclas iştirakçıları.

İlk növbədə, Avrasiya İqtisadi Birliyinin üzv dövlətlərinin sammitinin işində qonaq qismində iştirak etməyə dəvətinə görə Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinə təşəkkürümü bildirmək istəyirəm.

Ermənistan istisna olmaqla, Azərbaycanın Avrasiya İqtisadi Birliyinin üzvləri ilə əməkdaşlığı 30 il ərzində uğurla inkişaf edir. Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı şəkildə tanınması əsasında ciddi imkanlar var. Bu gün Rusiya tərəfinin təşəbbüsü ilə Rusiya, Azərbaycan və Ermənistan rəhbərlərinin üçtərəfli görüşü olacaq.

Həmkarlarıma məlumat vermək istəyirəm ki, ötən il Azərbaycanın Avrasiya İqtisadi Birliyi ilə əmtəə dövriyyəsi 31 faiz artıb və 4,7 milyard dollar təşkil edib. Bu ilin yanvar–aprel aylarında qarşılıqlı ticarətin həcmi daha 38 faiz artıb. Ötən il Avrasiya İqtisadi Birliyinə üzv ölkələrin Azərbaycanın xarici ticarət dövriyyəsində payı 9 faizə yaxın olub. Biz əmtəə dövriyyəsinin gələcək artımında böyük potensialın olduğunu görürük. Azərbaycan Şərq–Qərb və Şimal–Cənub nəqliyyat yollarının coğrafi kəsişməsində yerləşir. Ölkəmizin nəqliyyat-logistika infrastrukturu bütün istiqamətlərdə daşımaları həyata keçirməyə imkan verir. Azərbaycan Xəzərdə 50 gəmidən ibarət ən böyük ticarət donanmasına malikdir. On beş milyon ton yükün daşınmasına hesablanmış Ələt Dəniz Limanı yaxın vaxtlarda modernləşdiriləcək və yükaşırmaların həcmi 25 milyon tona çatacaq. Son zamanlar Azərbaycan ərazisindən yükdaşımaların artmasını nəzərə alsaq, bu, xüsusilə vacibdir. Bakıda artıq bir neçə ildir bütün növ gəmilər hazırlaya bilən müasir gəmiqayırma tərsanəsi fəaliyyət göstərir. Bildirməyə şadam ki, Azərbaycanın gəmiqayırma imkanları bu gün, həmçinin bizim Xəzərdəki qonşularımıza da təqdim olunub. Bakı gəmiqayırma zavodunda bizim Xəzər üzrə qonşularımızın sifarişlərinin qəbul edilməsi üzrə danışıqlar və fəal iş aparılır.

Bakı–Tbilisi–Qars dəmir yolu Avropaya, həmçinin Türkiyənin Aralıq dənizi limanlarına çıxışı təmin edir. Azərbaycan "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin fəal iştirakçısıdır. Biz, həmçinin ölkənin əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, həm də beynəlxalq dəmir yolu marşrutlarının bir hissəsi olacaq Zəngəzur dəhlizinin yaradılması təşəbbüsünü irəli sürmüşük. Azərbaycanda 8 beynəlxalq aeroport fəaliyyət göstərir. Onlardan ikisi işğaldan azad olunmuş torpaqlarda – Füzuli və Zəngilanda son iki ildə tikilib. Doqquzuncu beynəlxalq aeroport azad olunmuş Laçında tikilir və 2025-ci ildə istismara veriləcək. Ölkəmiz illik 500 min ton yük dövriyyəsi ilə regionda ən iri hava yük donanmasına malikdir. Azərbaycan iqtisadiyyatı müstəqilliyin demək olar ki, bütün dövrü ərzində dayanıqlılıq və artım nümayiş etdirir.

Biz tam iqtisadi müstəqilliyə nail olmuşuq. Bu da bizim uğurla həyata keçirdiyimiz müstəqil xarici siyasət kursunu aparmaq imkanının mühüm amilidir. Təxminən dörd ildir Azərbaycan 120 dövləti birləşdirən Qoşulmama Hərəkatına uğurla sədrlik edir. Qoşulmama Hərəkatı Birləşmiş Millətlər Təşkilatından sonra sayca ikinci beynəlxalq təsisatdır. Azərbaycan iqtisadiyyatı özü-özünü təmin edir və kənardan dəstəyə ehtiyacı yoxdur. Son 20 il ərzində ölkəmizin ümumi daxili məhsulu (ÜDM) 3 dəfədən çox artıb. Yoxsulluğun səviyyəsi təxminən 50 faizdən 5 faizə enib. Xarici borc ÜDM-in demək olar ki, 9 faizindən aşağı səviyyəsindədir və ildən-ilə azalır. Azərbaycanın valyuta ehtiyatları xarici borcu 10 dəfə üstələyir. Hazırda qarşımızda duran başlıca məsələlərdən biri ixracın şaxələndirilməsidir. İqtisadiyyatın şaxələndirilməsinə gəlincə, bu məsələ uğurla həll olunur. Azərbaycan iqtisadiyyatının böyük hissəsi artıq qeyri-xammal sektorunda formalaşır. İxracata gəlincə, qeyri-xammal sektorunun ixracını artırmaqdan ötrü biz hələ fəal işləməliyik.

Baxmayaraq ki, işsizliyin səviyyəsi cəmi 5 faiz təşkil edir, demoqrafik artım, – son 30 il ərzində Azərbaycan əhalisinin sayı 7 milyondan 10 milyona qalxıb, – yeni iş yerlərinin yaradılması üzrə fəal səylər tələb edir. Biz, əlbəttə, Avrasiya İqtisadi Birliyinə üzv ölkələrlə fəal qarşılıqlı əlaqələri həm ikitərəfli formatda, – biz bunu uğurla edirik, – həm də çoxtərəfli formatda möhkəmləndirmək fikrindəyik.

Artıq qeyd olunduğu kimi, mən Avrasiya İqtisadi Birliyinin sammitində ilk dəfədir iştirak edirəm. Halbuki, biz Avrasiya İqtisadi Birliyinə üzv dövlətlərin başçıları ilə həm Müstəqil Dövlətlər Birliyinin sammitləri çərçivəsində, həm də ikitərəfli formatda müntəzəm görüşürük. Buna görə də, baxmayaraq mən ilk dəfədir qonaq qismində iştirak edirəm, lakin yəqin ki, burada qonaq deyiləm. Bu gün bizim ünsiyyət qurmaq imkanımız oldu, ünsiyyətimiz davam edəcək. Vladimir Vladimiroviç, sonda bir daha Sizə dəvət üçün, eləcə də bütün həmkarlarıma bu dəvəti dəstəklədiklərinə görə təşəkkür etmək istərdim. Sağ olun.

**Prezident Vladimir Putin:** Çox sağ olun. Həqiqətən, Azərbaycanın ikitərəfli formatda təşkilata üzv ölkələrimizlə iqtisadi münasibətləri müntəzəm artır və bizim hamımız üçün – həm Azərbaycan üçün, həm də təşkilatın hər bir iştirakçı ölkəsi üçün əhəmiyyət kəsb edir.

***

Sonra Tacikistan Prezidenti Emoməli Rəhmon iclasda videobağlantı vasitəsilə çıxış etdi.

**Prezident Vladimir Putin:** Artıq dediyim kimi, həm Azərbaycan, həm də Tacikistanla münasibətlərimiz ikitərəfli planda fəal şəkildə inkişaf edir. Ona görə də belə çoxtərəfli formatda müzakirələrə qoşulmaq şübhəsiz ki, yalnız faydalı ola bilər. Son nəticədə Tacikistan və Azərbaycan bizim təşkilatın işində necə fəal iştirakları ilə bağlı qərarlar qəbul edəcəklər. Bu, tam şəkildə Özbəkistana da aiddir. Bizim ümumi işimizdə və bugünkü tədbirimizdə iştiraklarına görə həmkarlarıma təşəkkürümü bildirirəm.

Sözü Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədri...

**Baş nazir Nikol Paşinyan:** Üzr istəyirəm, Vladimir Vladimiroviç, olar? Mənim kiçik replikam var.

**Prezident Vladimir Putin:** Bəli, buyurun, xahiş edirəm.

**Baş nazir Nikol Paşinyan:** Azərbaycan Prezidenti çıxışında son illər Ermənistana qarşı ərazi iddialarının irəli sürülməsinə əsas verən ifadədən istifadə etdi. Demək istəyirəm ki, bu, 2020-ci il 9 noyabr tarixli üçtərəfli Bəyanatın 9-cu bəndinin yerinə yetirilməsi çərçivəsində istifadə olunur. Vurğulamaq istərdim ki, bu Bəyanatda təkcə bir dəhliz haqqında deyilir və bu, Laçın dəhlizidir. O, Rusiya sülhməramlılarının nəzarəti altında olmalı idi, lakin təəssüf ki, Azərbaycan tərəfindən qanunsuz olaraq bloklanıb. Digər tərəfdən, Ermənistan Respublikasının regionda bütün nəqliyyat və iqtisadi kommunikasiyaların və Ermənistan Respublikasının ərazisindən keçən kommunikasiyaların blokadadan çıxarılmasına hazır olduğunu vurğulamaq istəyirəm. Biz bunu erməni yolayrıcı adlandırırıq. Biz regional kommunikasiyaların onların keçdiyi ölkələrin suverenliyi və yurisdiksiyası çərçivəsində açılmasına hazırıq. Mən 2020-ci il 9 noyabr tarixli üçtərəfli Bəyanatın 9-cu bəndində və 2021-ci il 11 yanvar tarixli üçtərəfli Bəyanatda nəzərdə tutulan nəqliyyat, iqtisadi kommunikasiyaları nəzərdə tuturam. Sağ olun.

**Prezident Vladimir Putin**: Çox sağ olun. Lakin eşitdiyim kimi, Prezident Əliyev çıxışında məhz hələ 1991-ci ildə təsdiq olunmuş sazişlərlə uyğun şəkildə müvafiq sərhədlərin tanınması ilə bağlı şəraitin yaradılmasından danışdı. Bu şərtlər belə bir qənaət hasil etməyə əsas verir ki, Azərbaycanla Ermənistan arasında müvafiq, o cümlədən, nəqliyyat kommunikasiyaları üzrə razılaşmalara nail oluna bilər.

Mənim üçün qeyd etmək çox xoşdur ki, Ermənistanın baş naziri ölkəsinin də bu cür düşündüyünü dedi. O hesab edir ki, bu, mümkündür və müsbət düşünür. Lakin mənə elə gəlir ki, bu gün biz üçtərəfli görüşdə bütün bunları müzakirə edə bilərik. Ümidvaram, tamamilə aydındır ki, həm Azərbaycanın, həm Ermənistanın, eləcə də bütün regionun iqtisadi inkişafına dair məsələlərlə bağlı razılıq əldə edə biləcəyik. Mənə elə gəlir ki, bizim bunu üçtərəfli formatda detallı şəkildə müzakirə etməyə vaxtımız olacaq.

**Prezident İlham Əliyev**: Mən, əlbəttə, diskussiya açmaq istəmirəm. Lakin Ermənistana qarşı ərazi iddialarımızın olması barədə ittihamlar səsləndiyinə görə demək istəyirəm ki, bizim belə iddialarımız yoxdur. Mənim sözlərimdə ərazi iddialarının olmasını görmək üçün xüsusi canfəşanlıq etmək və ya güclü fantaziyaya malik olmaq lazımdır. Mənim istifadə etdiyim "dəhliz" sözünə gəldikdə, o zaman mən bu kəlməni dəqiq olaraq "Şimal–Cənub" dəhlizinə münasibətdə də işlətmişəm, bu söz elə həmin dəqiqliklə "Şərq–Qərb" dəhlizinə münasibətdə də istifadə olunur. "Dəhliz" sözü heç də kiminsə ərazisinə göz dikmək demək deyil. Bu, beynəlxalq termindir və düşünürəm, beynəlxalq terminologiya ilə tanış olan insanlar yəqin ki, ona bu gün Ermənistanın baş naziri kimi məna verməzdilər. Vladimir Vladimiroviçin dediyi kimi və Ermənistanın rəsmən Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdığını nəzərə alsaq, hesab edirəm ki, sülh sazişinə nail olmaq üçün imkanlar var. Sağ olun.

**Baş nazir Nikol Paşinyan:** Vladimir Vladimiroviç, üzr istəyirəm. Demək istəyirəm ki, 2020-ci il 9 noyabr tarixli üçtərəfli Bəyanatın mətni ilə tanış olan hər kəs bilir ki, bu bəyanatda "dəhliz" sözü yalnız bir halda işlənilib. Bu kontekstdə həmin söz xüsusi məna daşıyır. Bu da, təkrar edirəm, üçtərəfli Bəyanata uyğun olaraq Rusiya Federasiyasının nəzarəti altında olmalı olan və Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi haqqındadır. Lakin, təəssüf ki, Azərbaycan Rusiya sülhməramlılarının nəzarətində olan bu dəhlizi qanunsuz şəkildə bloklayıb. Digər tərəfdən, təsdiq etmək istəyirəm ki, Ermənistan və Azərbaycan bir-birinin ərazi bütövlüyünü qarşılıqlı surətdə tanımaqla bağlı razılaşıblar. Demək olar ki, biz bu əsasda münasibətlərimizin nizama salınması istiqamətində kifayət qədər yaxşı irəliləyirik.

Bu kontekstdə çox mühüm məsələni qeyd etmək istəyirəm. Ümidvaram ki, "Dağlıq Qarabağ" sakinlərinin hüquqları və təhlükəsizliyi məsələsinin beynəlxalq mexanizmlər çərçivəsində həlli üçün tezliklə Bakı və "Stepanakert" arasında normal, konstruktiv dialoq başlayacaq. Sağ olun.

**Prezident Vladimir Putin**: Çox sağ olun.

**Prezident İlham Əliyev:** Vladimir Vladimiroviç, bağışlayın, Ermənistanın baş nazirinin sözlərində yenə ittiham səsləndi. Əgər Siz diqqət etdinizsə, nə çıxış zamanı, nə də replika zamanı mənim sözlərimdə heç bir ittiham yox idi. Amma mən bunu, sadəcə, cavabsız qoya bilmərəm. Başa düşürəm, biz diskussiyanı bir az başqa istiqamətə aparırıq, hərçənd düşünürəm ki, bu, bir çoxları üçün maraqlıdır. İcazənizlə cavab verim və deyim ki, Azərbaycan heç bir dəhlizi bloklamayıb. Laçın–Xankəndi yoluna gəldikdə, o açıqdır. Sizin tanıdığınız Ermənistan və Azərbaycan sərhədində bütün beynəlxalq normalara uyğun olaraq nəzarət-buraxılış məntəqəsi qoyulub. Bu nəzarət-buraxılış məntəqəsi Rusiya sülhməramlı kontingentinin postundan 20 metr aralıda yerləşir. Bu gün həmin nəzarət-buraxılış məntəqəsindən erməni milliyyətindən olan Azərbaycan vətəndaşları və Xankəndi şəhərindən təcili yardım maşınları keçir. Hər hansı qərəzsiz insan, təbii ki, bunu görməlidir. Zənnimcə, kürsüdən əsası olmayan ittihamlar üçün istifadə etmək lazım deyil. Dediyim Zəngəzur dəhlizinə gəlincə, əgər mənim çıxışıma diqqətlə qulaq asılsa, orada deyilir ki, "Azərbaycan Zəngəzur dəhlizinin yaradılması təşəbbüsünü irəli sürüb". Hər hansı təşəbbüslə çıxış etmək bizim hüququmuzdur. Bizim doğru, legitim, ağlabatan hesab etdiklərimiz, yeri gəlmişkən, o cümlədən, Rusiya Federasiyası, Ermənistan və Azərbaycan arasında münasibətlərin nizamlanması prosesinə cəlb olunmuş digərləri tərəfindən də dəstəklənir.

**Baş nazir Nikol Paşinyan:** Çox maraqlıdır, sağ olun. Vladimir Vladimiroviç, üzr istəyirəm, mənə çox maraqlıdır bilim ki, Sizin dediyiniz həmin layihəni Rusiya dəstəkləyirmi. Düzünü desəm, mən bu barədə ilk dəfədir eşidirəm. Bilirəm ki, Rusiya bizim regionda bütün nəqliyyat və iqtisadi kommunikasiyaların açılmasını dəstəkləyir. Sizin dediyiniz Laçın yoluna gəlincə, bizim üçtərəfli Bəyanatımıza əsasən, Laçın yolu mövcud deyil, Laçın dəhlizi mövcuddur, bizim üçümüzün imzaladığımız üçtərəfli Bəyanata əsasən, Rusiya sülhməramlı qüvvələrinin nəzarəti altında olmalıdır. Yaxud, başqa heç kim həmin dəhlizdə heç bir nəzarət həyata keçirə bilməz. Orada baş verənlər – üçtərəfli Bəyanatın birbaşa pozulmasıdır. Siz dediniz ki, dəhliz açıqdır. Biz bunu görmürük. Biz belə hesab etmirik, buna görə də vacib hesab edirik ki, həm Laçın dəhlizinə, həm də Dağlıq Qarabağa beynəlxalq missiya göndərilsin və bu missiya Dağlıq Qarabağda humanitar vəziyyəti dəyərləndirsin. Deməliyəm ki, orada təəssüflər olsun, dekabr ayından bəri humanitar böhran yaşayırıq. Çünki Laçın dəhlizinin bağlanması səbəbindən ərzaq və zəruri məhsulların tədarükü üçün maneələr yaradılır. Bu, olduqca ciddi vəziyyətdir, Azərbaycan tərəfindən qaz, elektrik kəsilib. Mən Dağlıq Qarabağa gedən qaz və elektriki nəzərdə tuturam. Vladimir Vladimiroviç, Siz bu barədə çox yaxşı bilirsiniz, çünki biz bu barədə dəfələrlə danışmışıq. Mən üzr istəyirəm, lakin belə çıxır ki, ...

**Prezident Vladimir Putin**: Mən sizin siqnalları gördüm və buna reaksiya verim. Həmkarlar öz mövqelərini söylədilər, qısaca, dürüst ifadə etdilər, bu, onlar üçün vacibdir. Bax, bunu demək istəyirəm. Bu hissənin sonunda mənə elə gəlir ki, biz sizinlə üçümüz hər halda yaxşı bilirik, terminologiya başqa sözlə hüquqi texnikadır, dəhliz, digərləri, digərləri – bu, vacibdir və burada müəyyən ziddiyyət var. Lakin daha vacib olanı indi Sizin – həm Azərbaycan Prezidentinin, həm Ermənistan baş nazirinin dediyi kimi prinsipial məsələ ərazi bütövlüyü məsələsidir. Bu razılaşma prinsipial xarakterlidir. Bu, digər, hər halda ikinci dərəcəli məsələlər üzrə razılığa gəlmək üçün həqiqətən bazadır. Halbuki onlar da mühüm əhəmiyyətə malikdir. Lakin bizim indi imkanımız olacaq ki, razılaşdığımız kimi üçtərəfli formatda bütün bunlar barədə sakit və işgüzar şəraitdə danışaq. Mən ümidvaram ki, təkcə Ermənistan və Azərbaycan arasında deyil, həm də bütövlükdə regionda vəziyyəti belə konstruktiv yola çıxaracaq hansısa razılaşmaya nail olacağıq. Sizi inandırmaq istərdim ki, buraya toplaşanların hamısı bunda maraqlıdır. Tam hamısı. Bax, Aleksandr Qriqoryeviç bu gün bu barədə qapalı formatda kifayət qədər inandırıcı danışdı.

Çünki hər halda, burada nə deyəsən, burada Sovet İttifaqının keçmiş respublikalarıdır. Biz vahid xalqlar ailəsində yaşamışıq və əfsuslar olsun ki, burada bizim xeyli ziddiyyətlərimiz var, silahlı münaqişələrə gedib çıxır. Rusiyada da məlum istiqamətdə eynisi baş verir. Buna görə də bütün bunlar olduqca həssasdır, bütün bunlar insan faciələri ilə bağlıdır. Biz hamımız maraqlıyıq ki, bütün bu problemlər həll olunsun. Bu vəziyyətə gəlincə, bir daha təkrar edirəm, bizim üçtərəfli formatda danışmaq fürsətimiz olacaq. Buna görə də Ermənistanın baş nazirinə və Azərbaycan Prezidentinə gəldiklərinə görə minnətdaram. Ermənistanın baş nazirinə minnətdaram ki, o, bu səfərə mane olmayıb. Biz hamımız buraya toplaşmışıq ki, bu həssas mövzular barədə danışaq.

***

Sonra Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədri Mixail Myasnikoviç çıxış etdi.

Üzv dövlətlərin başçıları iclasın yekun sənədlərini imzaladılar.

Rusiya Prezidenti Vladimir Putin iclasın işinə yekun vurdu.

***AZƏRTAC***

## Moskvada dövlət və hökumət başçılarının şərəfinə işçi səhər yeməyi verilib

### Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib

Mayın 25-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin adından Ali Avrasiya İqtisadi Şurasının üzv, müşahidəçi və dəvət olunmuş ölkələrin dövlət və hökumət başçılarının şərəfinə işçi səhər yeməyi verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

***AZƏRTAC***

# Moskvada Prezident İlham Əliyevin Prezident Vladimir Putinlə görüşü olub

**Mayın 25-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü olub.**



Görüşdə çıxış edən Rusiya Prezidenti **Vladimir Putin** dedi:

– Hörmətli İlham Heydər oğlu. Hörmətli həmkarlar.

İlk növbədə, Sizi bir daha salamlamaq və Azərbaycan Prezidentinə Avrasiya İqtisadi Birliyi çərçivəsində bizim bugünkü görüşümüzə qoşulması qərarını qəbul etdiyi üçün təşəkkür etmək istəyirəm. Artıq deyildiyi kimi, formal olaraq qonaq qismində, lakin həqiqətən, İlham Heydər oğlu haqlıdır, bu, çox şərti addır, çünki Azərbaycan ilə Avrasiya İqtisadi Birliyinin iştirakçısı olan bütün ölkələr arasında münasibətlərin səviyyəsi və xarakteri ciddi, dərin məna daşıyır. İqtisadi-ticari əlaqələr ardıcıl şəkildə inkişaf edir və bütün xalqlarımız arasında münasibətlərin möhkəmlənməsi istiqamətində irəliləyir. Mən çox istərdim ki, gələcəkdə də belə davam etsin, çünki regional əməkdaşlıq potensialı çox yüksəkdir.

İkitərəfli əsasda götürüldükdə, ümumilikdə Rusiya–Azərbaycan münasibətləri yüksək səviyyədədir, həmçinin ardıcıl olaraq, bərabərhüquqlu prinsiplərlə, bir-birinin maraqlarını nəzərə almaqla və 2022-ci ilin fevralında imzalanmış Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannaməyə uyğun şəkildə inkişaf edir. Biz hamımız buna çox şadıq.

Bu il Heydər Əlirza oğlu Əliyevin 100 illiyi bayram edilir. Siz həm Sovet İttifaqının, həm də müstəqil Azərbaycanın bu siyasi xadiminə bizim münasibətimizi bilirsiniz. Bu görkəmli siyasi xadim ölkələrimizin tarixində birləşdirici simadır. O da yaxşı məlumdur ki, biz Rusiyada bu yubileyi layiqincə qeyd etdik. Dövlət Dumasında və Federasiya Şurasında sərgilər keçirildi, televiziyada sənədli filmlərin nümayişi oldu. Rusiya Federasiyasının regionlarında da çoxlu tədbirlər oldu. Bu tədbirlər təkcə paytaxtda keçirilmədi, həmçinin Heydər Əliyevin daim xatırlandığı Kazanda, Həştərxanda, Dağıstanda, BAM-da, o cümlədən, Moskva–Tında qatarının təntənəli yola salınması və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi BAM-ın tikintisinə kuratorluq edən Heydər Əliyevin adının verildiyi Anqoya stansiyasında da tədbirlər oldu.

Bunlar mənim əvvəldə söyləmək istədiklərimdir və mətbuat çıxandan sonra biz başqa məsələlər barədə də danışarıq. Buyurun.

***

Azərbaycan Prezidenti **İlham Əliyev** dedi:

– Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç. İlk növbədə, Avrasiya İqtisadi Birliyinin sammitinə dəvətə görə bir daha təşəkkürümü bildirirəm.

Bu gün qeyd olunduğu kimi, mən bu təşkilatın sammitində ilk dəfədir iştirak edirəm. Baxmayaraq ki, biz artıq həmkarlarla fikir mübadiləsi aparmışıq, həm Müstəqil Dövlətlər Birliyinin, həm də digər beynəlxalq təşkilatların platformalarında və əlbəttə, ikitərəfli formatda müntəzəm işləyirik.

Heydər Əliyevin xatirəsinə göstərilən yüksək hörmətə görə təşəkkür etmək istərdim. Biz bunu yüksək dəyərləndiririk, Azərbaycanda bütün bunları çox yaxşı bilirlər. Sizin qeyd etdiyiniz kimi, yubiley tədbirləri həm Moskvada, həm dövlət hakimiyyət təsisatlarında, həm də regionlarda keçirilib.

*(ardı 3-cü səhifədə)*

# Moskvada Azərbaycan, Rusiya və Ermənistan liderlərinin üçtərəfli Zirvə görüşü



**Mayın 25-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə üçtərəfli Zirvə görüşü olub.**

Zirvə görüşündə çıxış edən Rusiya Prezidenti **Vladimir Putin** dedi:

– Hörmətli İlham Heydər oğlu. Hörmətli Nikol Vovayeviç.

Hörmətli həmkarlar, dostlar.

Biz növbəti görüşümüzün keçirilməsinə dair təklifə operativ reaksiya verdiyiniz üçün minnətdarıq və ümid edirəm ki, bu, bizim artıq çoxdan danışdığımız bəzi məsələlərin praktik həllində yaxşı müqəddimə olacaq.

Məhz bizim formatda bir çox məsələlərə dair uğur əldə etmək mümkün olub. 2020-ci ilin payızında təkcə hərbi əməliyyatlar dayanmayıb, sonra iqtisadi və nəqliyyat kommunikasiyalarının blokadasının aradan qaldırılması, sərhədlərin delimitasiyası üzrə işlərə başlanılıb.

Bu vaxt ərzində bir çox hadisələr baş verib, mən onların hər biri üzərində dayanmayacağam, detallara varmayacağam. Zənnimcə, hələ də ümumilikdə kifayət qədər çətinliklərin və problemlərin olmasına baxmayaraq, hər halda vəziyyət nizamlanma istiqamətində inkişaf edir. Bu istiqamətlərdən biri nəqliyyat kommunikasiyaları ilə bağlı aparılan işdir. Bax, indi biz üzbəüz üçlükdə kifayət qədər ətraflı şəkildə bu barədə danışdıq və hələ də tənzimlənməmiş məsələlər qalır. Lakin zənnimcə, biz bu barədə həm Azərbaycan tərəfdən, həm də Ermənistan tərəfdən olan həmkarlarla danışdıq. Bu məsələlər sırf texniki xarakter daşıyır.

Biz bu mövzunu ətraflı müzakirə etdik. Məsələ terminologiyadadır. Əlbəttə, bu terminlərin arxasında reallıqların və hadisələrin dəqiq qavranılması dayanır. Onlar müvafiq sənədlərin imzalanmasından sonra gəlir. Lakin fikrimcə, bizim hər üçümüzün nöqteyi-nəzərindən, – mən özümü, Ermənistanın baş nazirini və Azərbaycanın Prezidentini nəzərdə tuturam, – bunlar aradan qaldırılması mümkün olan maneələrdir. Əslində, bunlar sırf texniki məsələlərdir. Ona görə də biz qərara aldıq ki, yaxın vaxtlarda, bir həftədən sonra, – indi həmkarlarımdan bu tarixi razılaşdırmağı xahiş edirəm, – Rusiya, Azərbaycan və Ermənistan Baş nazirlərinin müavinləri görüşəcəklər. Onlar belə demək mümkünsə, hələ tənzimlənməmiş məsələləri həll edəcəklər. Mənə elə gəlir ki, bu, yaxşı razılaşmadır və indiyədək həll olunmamış məsələlərin çözülməsinə ümid yaradır.

Vaxta gəldikdə, biz bir həftədən sonra görüş barədə razılığa gəldik. Bu gün cümə axşamıdır. Ermənistan, yaxud Azərbaycan nümayəndə heyətlərinin hər hansı təklifi varmı? Çünki həmkarlar bu barədə öz aralarında razılaşmalıdırlar. Bir həftədən sonra normaldır?

**Baş nazir Nikol Paşinyan:** Bəli.

**Prezident Vladimir Putin:** İlham Heydər oğlu?

**Prezident İlham Əliyev:** Bəli.

**Prezident Vladimir Putin:** Mətbuat nümayəndələri çox sağ olsunlar. Biz bir az qapalı rejimdə işləyəcəyik.

***AZƏRTAC***

# Moskvada Prezident İlham Əliyevin Prezident Vladimir Putinlə görüşü olub

**(əvvəli 2-ci səhifədə)**

Onu deməliyəm ki, Heydər Əliyev və Siz, Vladimir Vladimiroviç, Rusiya ilə Azərbaycan arasında münasibətlərin hazırkı səviyyəsinin əsasını qoymusunuz. Məhz Sizin 2001-ci ildə Azərbaycana səfərinizdən sonra münasibətlər keyfiyyətcə yeni səviyyəyə yüksəldi və biz bu gün artıq bu münasibətləri müttəfiqlik qismində təkcə de-fakto deyil, həm də de-yure səciyyələndiririk. Siz qeyd etdiyiniz kimi, ötən ilin əvvəlində biz Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə imzaladıq və icra edirik. Bu, bizim münasibətlərimizin ruhunu və xarakterini, ölkələrimizin daha sıx qarşılıqlı əlaqələrə səylərini əks etdirən mühüm siyasi sənəddir.

Əlbəttə, biz bu gün regional məsələlərdən də danışacağıq. Fürsətdən istifadə edərək, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması işində səylərinə görə Rusiya tərəfinə minnətdarlığımızı bildirmək istərdim. Biz bu səyləri çox yüksək dəyərləndiririk.

Bu gün keçiriləcək üçtərəfli görüşdə Sizin iştirakınız da Azərbaycan və Ermənistanın nəhayət sülh razılaşmasına gəlməsinə Rusiya tərəfinin necə böyük əhəmiyyət verdiyini göstərir. Fikrimcə, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıması barədə Ermənistan rəhbərliyinin bu yaxınlardakı bəyanatlarından, eləcə də Azərbaycan Respublikasının sahəsini konkret rəqəmlərlə göstərməklə Azərbaycanın ərazi bütövlüyünün tanınmasından sonra sülh sazişinin digər maddələrinin razılaşdırılması məsələsi daha asan olacaq. Çünki bu, başlıca amil idi ki, biz razılığa gələ bilmirdik.

Vladimir Vladimiroviç, bir daha ümid edirəm ki, bu gün biz üçtərəfli formatda da iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində daha bir addım atacağıq.

İkitərəfli gündəliyə gəlincə, o, kifayət qədər genişdir. Onu ətraflı nəzərdən keçirəcəyik. Dəvətə görə bir daha sağ olun.

***AZƏRTAC***

# Səfər başa çatdı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri mayın 25-də başa çatıb.**

***AZƏRTAC***

# Nazirlər Kabinetində müşavirə



**Mayın 25-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə "Qəzalı və yolverilməz vəziyyətə düşmüş çoxmənzilli yaşayış binalarının 2023–2028-ci illərdə yenilənməsinə və əsaslı təmirinə dair" Dövlət Proqramı layihəsinin müzakirəsinə həsr olunmuş müşavirə keçirilib. Müşavirədə aidiyyəti qurumların rəhbərləri iştirakı ediblər.**

Müşavirə zamanı Proqram layihəsi ətraflı müzakirə edilib, təkliflər nəzərə alınmaqla yekun variantın təqdim edilməsinə dair tapşırıqlar verilib.

# Milli Məclisin Sədri Serbiya Prezidenti ilə görüşüb



**Milli Məclisin Sədri Sahibə Qafarova Serbiya Respublikasına rəsmi səfəri çərçivəsində mayın 25-də bu ölkənin Prezidenti Aleksandar Vuçiç ilə görüşüb.**

Azərbaycan parlament nümayəndə heyətini səmimiyyətlə salamlayan Aleksandar Vuçiç, dost və strateji tərəfdaş olan ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olmasından məmnunluğunu bildirib.

A.Vuçiç ölkəmizdə baş verən prosesləri çox yaxından izlədiyini vurğulayıb, Azərbaycanın Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qazandığı nailiyyətləri yüksək qiymətləndirib. Serbiya Prezidenti Azərbaycan Prezidenti İlham Əliyevlə görüşlərini məmnunluqla xatırladaraq, bu görüşlər zamanı əldə olunmuş razılaşmaların və imzalanmış sənədlərin ölkələrimiz arasında əlaqələrin daha da dərinləşməsinə mühüm töhfələr verdiyini diqqətə çatdırıb.

Milli Məclisin Sədri Sahibə Qafarova göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Serbiya Prezidentinə çatdırıb.

Bu səfərin Azərbaycan Milli Məclisinin Sədri səviyyəsində Serbiyaya ilk rəsmi səfər olduğunu deyən Sahibə Qafarova, inamını ifadə edib ki, bu səfər ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə və genişlənməsinə töhfə verəcək.

Serbiya Prezidenti Aleksandar Vuçiç, Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirərək, onun da salamlarını Azərbaycanın dövlət başçısına çatdırmağı xahiş edib.

Sahibə Qafarova Serbiya Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Milli Assambleyasının sədri Vladimir Oriçlə görüşüb. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonra Azərbaycan və Serbiya parlamentləri arasında anlaşma memorandumu imzalanıb. İki ölkənin parlament rəhbərləri bu memorandumun münasibətlərin daha da genişlənməsinə xidmət edəcəyinə inamlarını ifadə ediblər.

***

Milli Məclisin Sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti Serbiya Respublikasına səfəri çərçivəsində Belqraddakı Taşmaydan parkında ümummilli lider Heydər Əliyevin və görkəmli serb yazıçısı Milorad Paviçin abidələrini ziyarət edib. S.Qafarova abidələrin önünə əklil qoyub.

***Ə.BƏDƏLOV, "Xalq qəzeti"***

# Ali Avrasiya İqtisadi Şurasında Azərbaycan iqtisadiyyatının inkişaf göstəricilərindən ətraflı bəhs edilib



**Prezident İlham Əliyev mayın 25-də Moskvada qonaq qismində iştirak etdiyi Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclasındakı çıxışında bir sıra məsələlərlə yanaşı, son 20 il ərzində Azərbaycanın ümumi daxili məhsulunun 3 dəfədən çox artdığını, respublikada yoxsulluq səviyyəsinin 50 faizdən 5 faizə endiyini diqqətə çatdırdı. Dövlətimizin başçısı, həmçinin xarici dövlət borcunun ümumi daxili məhsulun 9 faizdən az hissəsini təşkil etdiyini və bu göstəricinin ildən-ilə azaldığını bildirib. Ölkə rəhbəri bütün bunlarla bərabər, Azərbaycanın valyuta ehtiyatlarının xarici dövlət borcunu 10 dəfə üstələdiyini də qeyd edib.**

Azərbaycan Prezidenti nitqində başqa bir mühüm məqama da toxunub. Dövlətimizin başçısı bu gün qarşıda duran əsas məsələlərdən birinin ixracın şaxələndirilməsi olduğunu xatırladaraq respublikamızın Avrasiya İqtisadi Birliyinə üzv ölkələrlə ticarət dövriyyəsinin ötən il 31 faiz artdığını və 4,7 milyard dollar təşkil etdiyini, cari ilin yanvar-aprel aylarında həmin göstəricinin əlavə 38 faiz yüksəldiyini söyləyib. Prezident İlham Əliyev ötən il Avrasiya İqtisadi Birliyinə üzv olan ölkələrin Azərbaycanın xarici ticarət dövriyyəsindəki payının 9 faizə yaxın olduğunu da bildirib. "Biz ticarət dövriyyəsinin gələcək inkişafı üçün böyük potensial görürük", –ölkə rəhbəri vurğulayıb.

Dövlət başçımızın nitqində digər müsbət göstəricilər də diqqətə çatdırılıb:

–Azərbaycanda işsizlik səviyyəsinin cəmi 5 faiz olmasına baxmayaraq, ölkə əhalisinin sayı 30 il ərzində 7 milyondan 10 milyona çatıb;

– respublikada ümumi daxili məhsulun nominal həcmi son 20 il ərzində 22 dəfə artaraq 133,8 milyard manata çatıb;

–ölkədə işsizliyin səviyyəsi cəmi 5 faiz təşkil edir.

Azərbaycan lideri çıxışında respublikamızın nəqliyyat infrastrukturunun da sürətlə inkişaf etdiyini vurğulayaraq hazırda 8 beynəlxalq aeroportun fəaliyyət göstərdiyini, onlardan ikisinin işğaldan azad olunmuş torpaqlarda – Füzuli və Zəngilanda son iki ildə tikildiyini, doqquzuncu təyyarə limanının isə faşizmin tapdağından xilas olunan Laçında salındığını və 2025-ci ildə istismara veriləcəyini bildirib. Daha sonra "Ölkəmiz illik 500 min ton yük dövriyyəsi ilə regionda ən iri hava yük donanmasına malikdir", – deyə Azərbaycan Prezidenti vurğulayıb.

Dövlətimizin başçısı Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclasında Azərbaycanın Şimal–Cənub Nəqliyyat Dəhlizi layihəsinin fəal iştirakçısı olduğunu, Bakı–Tbilisi–Qars dəmir yolunun Avropaya, eyni zamanda, Türkiyənin Aralıq dənizi limanlarına çıxışı təmin etdiyini də diqqətə çatdırıb: "Biz, həmçinin ölkənin əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirərək, həm də beynəlxalq dəmir yolu marşrutlarının bir hissəsi olacaq Zəngəzur dəhlizinin yaradılması təşəbbüsünü irəli sürmüşük".

Ali Avrasiya İqtisadi Şurasının iclasında Azərbaycanın gəmiqayırma imkanlarının geniş olması, belə bir potensialdan Xəzər bölgəsi ölkələrinin geniş yararlandığı qeyd edilib. Bu fikrin təsdiqi kimi, Bakı gəmiqayırma zavodunda Azərbaycanın Xəzərətrafı dövlətlərinin sifarişlərinin qəbul edilməsi üzrə danışıqlar aparıldığı da bildirilib. Eyni zamanda, 5 milyon ton yükün daşınmasına hesablanan Ələt Dəniz Limanının yaxın vaxtlarda modernləşdiriləcək yükaşırmaların həcminin 25 milyon tona çatdırılacağının nəzərdə tutulduğu vurğulanıb.

Yeri gəlmişkən, iclasda qeyd edildiyi kimi, son zamanlar Azərbaycan ərazisindən yükdaşımaların artması nəzərə alınaraq, artıq bir neçə ildir ki, Bakıda bütün növ gəmilər hazırlaya bilən müasir gəmiqayırma tərsanəsinin fəaliyyət göstərdiyi diqqətə çatdırılıb.

Nəhayət, dövlətimizin başçısı tərəfindən iclasda Azərbaycanın Şərq–Qərb və Şimal–Cənub nəqliyyat yollarının kəsişdiyi coğrafi məkanda yerləşdiyi ifadə edilib.

Bu məqamda onu da xatırladaq ki, Prezident İlham Əliyev iclasda qeyd edib ki, Azərbaycan Zəngəzur dəhlizinin yaradılması təşəbbüsü ilə çıxış edib: "Zəngəzur dəhlizi təkcə Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirməyəcək, həm də beynəlxalq dəmir yolu marşrutlarının bir hissəsinə çevriləcək".

Bütün yuxarıda sadalananlara əsaslanıb deyə bilərik ki, respublikamız regional iqtisadiyyatın lokomotivinə çevrilib, Avropanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından biri kimi özünü təqdim edib, beynəlxalq Şərq–Qərb, Şimal–Cənub nəqliyyat qovşağı kimi məsuliyyətli vəzifəni layiqincə yerinə yetirib. Bütün bunların sayəsində təbii olaraq ölkəmizin regional və dünya iqtisadiyyatında rolu və əhəmiyyəti xeyli yüksəlib. Ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial siyasət nəticəsində insanların həyat şəraitinin yüksəldilməsi, rifahının yaxşılaşdırılması sahəsində möhtəşəm nailiyyətlər əldə edilib.

***V.BİNYATOĞLU, "Xalq qəzeti"***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Cənab Prezident!**

Ölkənizin milli bayramı – Müstəqillik Gününün qeyd olunması mənə Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi, rifah və əmin-amanlıq arzularımı çatdırmaq imkanı verir.

Dövlətlərimiz arasındakı sıx və möhkəm münasibətlər strateji maraqlara söykənir. Bu baxımdan ölkəniz Cənubi Qafqaz regionunda Rumıniya üçün etibarlı tərəfdaşdır. Bu yaxınlarda Bakıya səfərim dövlətlərimiz arasında əməkdaşlığın möhkəmləndirilməsi üçün konkret addımlarla bağlı razılığa gəlmək baxımından çox gözəl fürsət oldu. Səmimi qarşılanmaya və Zati-alinizlə ətraflı müzakirələrə görə Sizə bir daha minnətdarlığımı bildirirəm.

Əminəm ki, biz həm strateji tərəfdaşlıq çərçivəsində mövcud imkanlardan yararlanmaqla, həm də enerji və nəqliyyat kimi sahələrdə regional layihələri inkişaf etdirməklə inkişaf üçün mövcud potensialı istiqamətləndirə və gücləndirə biləcəyik.

Eyni zamanda, Rumıniya Azərbaycan ilə Avropa İttifaqı arasında dialoqun davamlı inkişafına dəstəyini davam etdirəcəkdir.

Cənab Prezident, xahiş edirəm, Sizə olan ən dərin ehtiramımı qəbul edəsiniz.

**Klaus Verner İOHANNİS,**
**Rumıniyanın Prezidenti**

***

**Möhtərəm cənab Prezident!**

Azərbaycanın Müstəqillik Günü münasibətilə Serbiya xalqı adından və şəxsən öz adımdan Sizi səmimi-qəlbdən təbrik edir, ölkənizə tərəqqi, xalqınıza yüksək rifah diləyirəm.

Ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümünü qeyd etdiyimiz ötən il əməkdaşlığın əldə olunmuş səviyyəsi ilə fəxr edirəm. Sizin 2022-ci il noyabrın 23-də Serbiyaya səfəriniz və Serbiya Respublikası ilə Azərbaycan Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının yaradılması haqqında Memorandumu imzalamağımız xoş xatirələrlə yaddaşımda qalıb. Həmin il dekabrın

20-21-də Bakıya səfərim və qarşılıqlı əhəmiyyət kəsb edən bütün sahələrdə əməkdaşlığın təkmilləşdirilməsi ilə bağlı aparılan uğurlu müzakirələr Serbiya–Azərbaycan münasibətlərinin davamlı inkişafının sübutudur.

Əminəm ki, strateji səviyyədə olan siyasi dialoqu, həmçinin çoxtərəfli, xüsusilə də iqtisadi sahədə əməkdaşlığımızı birgə səylərimizlə inkişaf etdirməkdə davam edəcəyik. Bunu çoxsaylı iqtisadi layihələr, Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın bu yaxınlarda Belqradda keçirilmiş 7-ci iclası da bir daha sübut etdi.

Cari il Sizin Serbiyaya gözlənilən səfəriniz və bu səfər çərçivəsində Serbiya və Azərbaycan arasında qarşılıqlı maraq doğuran bütün sahələrdə əməkdaşlığın gələcək inkişafına əlavə imkanlar yaradacaq Strateji Tərəfdaşlıq Şurasının ilk iclasının keçirilməsinin planlaşdırılması məni çox sevindirir.

Hörmətli cənab Prezident, fürsətdən istifadə edərək, Sizi və ölkənizin bütün vətəndaşlarını Azərbaycanın ümummilli lideri Heydər Əliyevin bu il qeyd etdiyiniz 100 illik yubileyi münasibətilə təbrik edirəm. Biz Heydər Əliyevi siyasi müdrikliyi və strateji yanaşması ilə müasir müstəqil və uğurlu Azərbaycanın əsasını qoyan görkəmli və uzaqgörən dövlət xadimi kimi xatırlayırıq. 2022-ci ilin dekabrında yenidən ziyarət etdiyim möhtəşəm Heydər Əliyev Mərkəzi məni çox təsirləndirdi. İcazə verin, bir daha xatırladım ki, Heydər Əliyevin abidəsi Belqradın ən gözəl parklarından biri olan Taşmaydan parkında da ucaldılıb.

Fürsətdən istifadə edərək, Serbiyanın suverenliyinə və ərazi bütövlüyünə ölkənizin verdiyi prinsipial dəstəyə və bu yaxınlarda Kosovonun Avropa Şurasına qəbulu üçün prosedurların başlanılması haqqında qərarın əleyhinə verdiyiniz səslə beynəlxalq hüquqa bir daha göstərmiş olduğunuz bağlılığınıza görə dərin təşəkkürümü bildirmək istərdim. Serbiya bunu qarşılıqlı anlaşmaya və hörmətə əsaslanan səmimi, daimi dostluğun təcəssümü kimi dəyərləndirdiyi üçün bu addımı heç vaxt unutmayacaq. Əmin olun ki, Serbiya Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü dəstəkləməkdə davam edəcək.

Möhtərəm cənab Prezident, Sizə bir daha dərin ehtiramımı ifadə edirəm.

**Hörmətlə,**

**Aleksandar VUÇİÇ,**
**Serbiya Respublikasının Prezidenti**

***

**Hörmətli İlham Heydər oğlu!**

Milli bayram – Müstəqillik Günü münasibətilə Sizi və bütün azərbaycanlıları Belarus xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Siz bu bayramı dahi və müdrik siyasətçi, müasir Azərbaycanın banisi və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinin geniş qeyd edildiyi bir vaxtda qarşılayırsınız.

Ölkənizin dinamik inkişaf edən iqtisadiyyatı, regionda açar rolu, beynəlxalq aləmdə artan nüfuzu Sizin atanızın əsasını qoyduğu və tərəfinizdən uğurla davam etdirilən, güclü, suveren dövlətin qurulmasına yönəlmiş yaradıcı kursun düzgünlüyünün danılmaz sübutudur.

Qəti əminəm ki, Minsk və Bakının qarşılıqlı maraqlara və ənənəvi etibarlı dostluq münasibətlərinə əsaslanan strateji tərəfdaşlığı bundan sonra da möhkəmlənərək yeni forma və istiqamətlər üzrə zənginləşəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə və ailənizə səmimi-qəlbdən möhkəm cansağlığı, firavanlıq, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

**Hörmətlə,**

**Aleksandr LUKAŞENKO,**
**Belarus Respublikasının Prezidenti**

***

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün azərbaycanlıları səmimi-qəlbdən təbrik edirəm.

Sizin müdrik rəhbərliyiniz sayəsində son illər Azərbaycan sosial-iqtisadi islahatlarda, eləcə də beynəlxalq aləmdə əhəmiyyətli uğurlar əldə edib.

Məmnunluqla qeyd edirəm ki, dostluğun və mədəni-dil oxşarlığının dərin tarixi kökləri Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında dövlətlərarası münasibətlərin indiki xarakterini qabaqcadan müəyyənləşdirib.

Ölkələrimiz arasında diplomatik münasibətlərin otuzillik tarixi strateji tərəfdaşlıq əlaqələrinin qurulması ilə əlamətdardır. Bu münasibətlər bizim birgə səylərimiz sayəsində xalqlarımızın rifahı naminə daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, firavanlıq, ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

**Hörmətlə,**

**Sadır JAPAROV,**
**Qırğız Respublikasının Prezidenti**

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına səmimi salamlarımı və təbriklərimi çatdırıram.

Fürsətdən istifadə edərək, Azərbaycan ilə Gürcüstan arasında tərəfdaşlığın möhkəmlənməsinə şəxsi dəstəyinizə və töhfənizə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Bu il xüsusi əhəmiyyət kəsb edir, çünki Azərbaycan xalqı ölkənin tərəqqisi və inkişafında mühüm xidmətləri olan uzaqgörən lider Heydər Əliyevin 100 illiyini qeyd edir.

Əziz dost, əməkdaşlığımızın dövlətlərimiz, xalqlarımız üçün daha böyük uğurlar gətirəcəyini səbirsizliklə gözləyirik.

Sizə sülh, tərəqqi və uğurlarla zəngin gələcək arzulayıram. Qoy Azərbaycan bundan sonra da çiçəklənsin və inkişaf etsin!

**Hörmətlə,**

**İrakli QARİBAŞVİLİ,**
**Gürcüstanın Baş naziri**

***

**Hörmətli cənab Prezident!**

Milli bayramınız - Müstəqillik Günü münasibətilə Fələstin Dövləti və xalqı adından, şəxsən öz adımdan Sizə, Sizin şəxsinizdə hökumətinizə və qardaş Azərbaycan xalqına ən səmimi təbriklərimi və arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Allahdan Sizə möhkəm cansağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər diləyir, ölkənizə və xalqınıza daha böyük tərəqqi və firavanlıq, ölkələrimiz arasında fəxr etdiyimiz əlaqələrin daha da inkişafını arzulayıram.

Xahiş edirəm, ən xoş arzularımı qəbul edin.

**Hörmətlə,**

**Mahmud ABBAS,**
**Fələstin Dövlətinin Prezidenti,**
**Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri**

***

**Zati-aliləri!**

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə Filippin xalqı və hökuməti adından Sizə ən səmimi təbriklərimi çatdırıram.

Son üç onillikdə Filippin ilə Azərbaycan arasında səmimi münasibətlər mövcuddur. İnanıram ki, dövlətlərimiz dostluq əlaqələrini gələcək illərdə də davam etdirəcək.

Filippin iqlim dəyişikliyi, enerji təhlükəsizliyi və pandemiyadan sonrakı bərpa kimi ümumi narahatlıq doğuran qlobal çağırışların həllində Azərbaycanla işləməyə hazırdır.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

**Ferdinand Romualdez MARKOS,**
**Filippin Respublikasının Prezidenti**

***

**Zati-aliləri!**

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Tailand Krallığının hökuməti və xalqı adından Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Otuz ildən çoxdur ki, Tailand və Azərbaycan arasında dostluq münasibətləri mövcuddur. Əminəm ki, əlaqələrimiz ölkələrimizin və xalqlarımızın rifahı naminə qarşılıqlı maraq doğuran bütün sahələrdə bundan sonra da möhkəmlənəcəkdir.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**General Prayut ÇAN-O-ÇA,**
**Tailand Krallığının Baş naziri**

***

**Çox hörmətli cənab Prezident!**

Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun rəhbərliyi və çoxmillətli kollektivi Sizi Azərbaycanın milli bayramı – Müstəqillik Günü münasibətilə təbrik edir.

Cənab Prezident, fürsətdən istifadə edərək, Azərbaycanın elmi mərkəzləri və universitetlərinin bizim beynəlxalq hökumətlərarası təşkilatımızla əməkdaşlığına verdiyiniz dəstəyə görə Azərbaycan hökumətinə və şəxsən Sizə təşəkkür etmək istərdim.

Bizim müasir tərəfdaşlığımız İnstitutun yaradılması üçün əsas olan qarşılıqlı beynəlxalq elmi-texniki fəaliyyətin möhkəm təməllərinə söykənir və hər il daha böyük əhəmiyyət kəsb edir. Bu, özünü İnstitutun tədqiqat və təhsil proqramlarının həyata keçirilməsində əyani şəkildə göstərir.

Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun mehriban ailəsinin bir hissəsi olaraq, biz yeni elmi istiqamətlərin açılması və bütün bəşəriyyət naminə texnoloji inkişaf üçün müxtəlif ölkələrin alimlərini bir araya gətiririk.

Azərbaycanın fundamental və tətbiqi tədqiqatlar sahəsində beynəlxalq əməkdaşlığın dəstəklənməsinə və inkişafına verdiyi töhfəni yüksək qiymətləndiririk. Ümidvaram ki, bizim birgə səylərimiz gələcəkdə də qarşılıqlı faydalı elmi tərəfdaşlığa töhfə verəcək.

Çox hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı və yeni-yeni uğurlar, Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və tərəqqi arzu edirəm.

**Dərin hörmətlə,**

**Qriqori TRUBNİKOV,**
**Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun direktoru,**
**Rusiya Elmlər Akademiyasının akademiki**

***

**Möhtərəm cənab Prezident!**

28 May – Müstəqillik Günü münasibətilə Sizi Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu adından, eləcə də öz adımdan səmimi-qəlbdən təbrik edirəm. Ötən illər ərzində Azərbaycan dövlətçiliyi şərəfli yol qət edərək beynəlxalq aləmdə öz sözünü deyən güclü dövlətə çevrilmişdir. Sizin uğurlu daxili və xarici siyasətiniz sayəsində dövlətçilik ənənələri möhkəmlənmiş, iqtisadiyyat inkişaf etmiş, mədəniyyət zənginləşmişdir. Müstəqil Azərbaycan Respublikası bu gün hər bir Azərbaycan vətəndaşı üçün əsl qürur mənbəyidir.

2023-cü il Azərbaycan üçün ən əlamətdar illərdən biridir. Bu il Azərbaycanın və Türk dünyasının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, bütün varlığı ilə Vətəninə, xalqına bağlı olan dünya miqyaslı siyasi xadim, ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi qeyd edilir. Heydər Əliyevin Azərbaycana qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı və dirçəliş erası başladı.

Həmçinin Azərbaycanın incisi Şuşa şəhəri 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan olunmuşdur. Sizin yenilməz iradəniz, siyasi cəsarətiniz, hərbi səriştəniz sayəsində qəhrəman Azərbaycan Ordusu otuzillik işğala son qoyaraq, bu şanlı və tarixi Zəfər günlərini Azərbaycan və bütün türk xalqlarına yaşatdı.

Zati-alinizin təşəbbüsü ilə yaradılan Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu il ərzində Azərbaycanda və ölkə hüdudlarından kənarda ulu öndərin anadan olmasının 100-cü ildönümünə və Qarabağın tacı Şuşaya həsr edilmiş müxtəlif layihələr gerçəkləşdirir.

Bu xüsusda Fond tərəfindən Azərbaycanın mədəniyyətinin təbliği, tarixi həqiqətlərinin çatdırılmasına, qarşılıqlı mədəni dialoqa töhfə vermək məqsədilə Türk dünyası ölkələrində müxtəlif tədbirlərimiz həyata keçirilib və bu istiqamətdə səylərimizi davam etdiririk.

Bu əlamətdar gün münasibətilə Sizi bir daha təbrik edir, Zati-alinizə möhkəm cansağlığı, Azərbaycanın inkişafı naminə ali dövləti fəaliyyətinizdə davamlı uğurlar, Azərbaycan xalqına sülh və firavanlıq arzulayıram.

**Dərin hörmətlə,**

**Günay ƏFƏNDİYEVA,**
**Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti**

# İordaniyanın Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseynə

**Əlahəzrət,**

İordaniya Haşimilər Krallığının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İordaniya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 22 may 2023-cü il**

## E.H.Axundovanın 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Elmira Hüseyn qızı Axundova 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 25 may 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında

### *2023-cü ilin iyun ayında vətəndaşların qəbulu*

## C Ə D V Ə L İ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Baş nazirin birinci müavini** Eyyubov Yaqub Abdulla oğlu | 1 |
| **Baş nazirin müavini** Əhmədov Əli Cavad oğlu | 2 |
| **Baş nazirin müavini** Mustafayev Şahin Abdulla oğlu | 5 |
| **Aparatın rəhbəri** Məmmədov Rüfət Tofiq oğlu | 6 |
| **İqtisadiyyat şöbəsinin müdiri** Əmiraslanov Azər Kamal oğlu | 7 |
| **Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri** Rüstəmli Ruslan Rüstəm oğlu | 8 |
| **Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri** Paşayev Zakir İlqar oğlu | 9 |
| **Hüquq və qanunvericilik** şöbəs**inin müdiri** Qasımlı Xalid Akif oğlu | 21 |
| **Sosial məsələlər şöbəsinin müdiri** Rəhimov Niyazi Süleyman oğlu | 13,30 |
| **Humanitar məsələlər şöbəsinin müdiri vəzifəsini icra edən** Həbibbəyli Ərəstü İsa oğlu | 14 |
| **Sənaye və energetika** şöbəs**inin müdiri** Hacızadə Elşən Mahmud oğlu | 16 |
| **Aqrar və ekologiya şöbəsinin müdiri** Qasımov Lətif Cəfər oğlu | 19 |
| **Regionların inkişafı şöbəsinin müdiri** Məcidov İlkin Sabir oğlu | 20 |
| **Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri** Mustafayev Feyruz Rəvayət oğlu | 12,27 |
| **Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri** Pənahov Musa Sədi oğlu | 22 |
| **Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri** Məmmədov Anar Rəhim oğlu | 23 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**

**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68**

**Qəbula 1 gün qalmış elektron qeydiyyat dayandırılır.**

**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**

**Qəbul saat 14:00-dan başlayır.**

**Qəbulla bağlı əlaqə nömrələri: (012)492-19-23, (012)492-88-96.**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 163** **Bakı şəhəri, 24 may 2023-cü il**

***“Arxiv fondu sənədlərinin daimi dövlət mühafizəsinə təhvil verilməsi qaydası”nın təsdiq edilməsi haqqında***

“Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 574-VIQD nömrəli Qanununun tətbiqi və “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 18 avqust tarixli 1812 nömrəli Fərmanının 2.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Arxiv fondu sənədlərinin daimi dövlət mühafizəsinə təhvil verilməsi qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

# Moskva, öz “göz yaşlarına” inan!

## Yaxud Rusiyanın Azərbaycan–Ermənistan normallaşmasındakı vasitəçilik missiyasına sözardı

**Ermənistan sülhə gəlmək istəmir. Yəni, sülhün Rusiya formatı ilə razılaşmır. Hər halda, bunu ölkənin baş naziri Nikol Paşinyanın Ali Avrasiya İqtisadi Şurasının dünən Moskvada keçirilmiş geniş tərkibdəki iclasında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyevin fikrinə verdiyi reaksiyadan görmək mümkündür. Nikolun söylədikləri Azərbaycan, Rusiya və Ermənistan liderlərinin çoxdan gözlənilən 25 may görüşünə bəri başdan kölgə saldı. Təfərrüatlara nəzər salmazdan əvvəl prezidentlərin – İlham Əliyevin və Vladimir Putinin Paşinyanın replikasına mimikalarla göstərdikləri münasibət üzərində dayanaq. Yumşaq ifadə etsək, təxminən, bu nəticəyə gəlmək mümkündür: sən, axı nədən danışırsan?!**



**Rusiya Prezidenti Vladimir Putin Azərbaycanın dövlət başçısı İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında özünün vasitəçiliyi ilə keçirilmiş görüşdən əvvəl Avrasiya İqtisadi İttifaqının geniştərkibli iclasında çıxışı zamanı təşkilata üzv dövlətlərdə ümumdaxili məhsul artımının tempinə toxunaraq, Ermənistanı fərqləndirdi. Putin fikrini “bizə Ermənistanla ayaqlaşmaq çətin olacaq” şəklində ifadə etdi. Hesab edirik ki, bu deyim yalnız ÜDM baxımından səslənməmişdi. Çünki Aİİ-yə üzv başqa dövlətlər yox, məhz Rusiya son illər Ermənistanla ayaqlaşmağa çalışmaqdadır. Əlbəttə, söhbət siyasi anlamdakı ayaqlaşmadan gedir.**

Əslində, 44 günlük müharibədən sonra Moskvanın Azərbaycanla Ermənistan arasındakı münasibətlərin tənzimlənməsi, o cümlədən, Qarabağ müstəvisində tutduğu mövqedə bizim üçün arzuolunmaz sayılan bir sıra məqamlar da məhz vurğuladığımız tendensiyanın nəticəsi kimi meydana çıxmaqdadır. Kreml, hər vəchlə İrəvanı razı salmaq və onu öz orbitinə qaytarmağa çalışıb. Hər halda dünənki görüş öncəsi bu kimi məqamlar əbəs yerə xatırlanmırdı.

Məsələn, xatırlanırdı ki, Moskva ötən ilin avqustunda Qarabağın statusu məsələsini gündəmə gətirib ermənilərə xoş olmaq istəmişdi. Düzdü, Ermənistan buna köklənib şirniklənməmiş, daha çox Qərbdən mədət ummağa çalışmışdı. Ola bilər, Rusiyanın səmimiliyinə inanmamışdı. Hadisələrin sonrakı axarı da göstərdi ki, inanmamaqda haqlı idi. Çünki elə həmin 2022-ci ilin oktyabrın 31-də keçirilmiş Soçi sammiti zamanı Qarabağa status məsələsi gündəlikdən uzaq düş(ürül)müşdü. Bu da ola bilər ki, Kreml İrəvanın razı olmadığı məsələni gündəmə gətirməkdən uzaq durmağa və Bakı ilə münasibətləri gərginləşdirməməyə üstünlük vermişdi.

Rusiya–Ermənistan münasibətləri baxımından gərginliyin digər aspekti də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı müstəvisində meydana çıxmışdı ki, Ermənistanın baş naziri Nikol Paşinyan bir neçə gün öncəki mətbuat konfransında dilə gətirdiyi fikirlərlə həmin gərginliyin hələ də aktual əhəmiyyət daşıdığını təsdiqlədi. Erməni baş nazir əvvəllər olduğu kimi, yenə KTMT-nin ölkəsi üçün səmərəsizliyi məntiqini qabartdı. Üstəlik, onun açıqlamasına qarşı tərəfdən kifayət qədər sərt mövqe ortaya qoyuldu. Nəzərə alaq ki, sözügedən mövqe İrəvanın KTMT-siz mövcudluğunu şübhə altına almaq qədər hədələyici motivlərə köklənmişdi.

Bütün bunları düşünsək, əlbəttə, Rusiyanın Ermənistanla ayaqlaşmasının çətinliyi göz önündədir. Həm də ona görə ki, baş nazir N.Paşinyanın administrasiyası daha çox, belə demək mümkünsə, ipə-sapa yatmamaq baxımından ixtisaslaşıb. Bu məqamda qeyd edək ki, Azərbaycanın mövqeyi hər zaman stabil olub. Ölkəmiz öz prinsipilərinə sadiqdir və 44 günlük müharibədən sonrakı zaman kəsiyində çalışır ki, haqqı çatana sahiblənsin. Yəni, loru dildə desək, Bakı Moskvanın böyüklüyünü nəzərə alıb qəbul etsə də, özünün ərazi bütövlüyü və bölgə ilə bağlı digər vacib məsələlərdəki kursuna sadiqdir. Ölkəmiz mövcud kurs naminə hansı qüvvə lazımdırsa, onu qarşısına almaq potensialına malikdir.

Azərbaycanın prinsipiallığı Rusiyanın siyasi dairələrini nə qədər gərgin duruma salsa da, onlar dövlətimizin oyun qaydalarını pozmadığının fərqindədirlər. Ancaq həmin dairələr Ermənistanın qaydalara demarş xətti götürdüyünü görürlər. Bu mənada anidən meydana çıxmış dünənki Moskva danışıqlarını doğuran səbəb də əslində, böyük ölçüdə, İrəvanın anti-Rusiya müstəvisində tutduğu yoldur.

Ermənistan heç bir halda Rusiyanın orbitinə qayıtmaq istəmir, nicatını Qərbdə axtarır. Qərb isə özünün iqtisadi maraqları baxımından Azərbaycanın mövqeyi ilə hesablaşmaq məcburiyyətindədir. Nəticədə Bakının İrəvana təzyiq yolu anlayışla qəbul edilir. Mövcud durumda ikincini xilas etmək və növbəti fiaskodan qorumaq zərurəti meydana çıxır ki, əslində Azərbaycanla Ermənistan arasındakı mayın əvvəlindən intensiv səciyyə daşımağa başlamış Qərb nizamlamasının məqsədi də elə budur. Təbii ki, Qərbin Cənubi Qafqaz müstəvisindəki əlahiddə maraqları da var və bu maraqlarda Rusiyanı bölgədən sıxışdırıb çıxarmaq məntiqi əsasdır.

Bəli, dünənki Moskva danışıqları ayrı-ayrı detallarını diqqətə çatdırdığımız vəziyyət fonunda baş verdi. Daha konkret desək, Rusiya Qərbin nizamlama xəttinə qarşı öz alternativini ortaya qoymağa girişdi. Özü də tez-tələsik. Mayın əvvəlində baş tutmuş “Vaşinqton prosesi” (Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ABŞ-da 1–4 may danışıqları–red.) çərçivəsindəki danışıqların “Brüssel formatı” (Azərbaycan və Ermənistan lidelərinin Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə mayın 14-də keçirilmiş görüşü–red.) zamanı konkret nəticələrinin görünməyə başladığı bir məqamda.

Bir halda ki, Ermənistan Azərbaycanın 86,6 min kvadratkilometrlik ərazidəki suveren hüquqlarını tanıyır, deməli, böyük ölçüdə Rusiyanın tutacaq yeri olan Qarabağ münaqişəsi tarixdir. O ki qaldı, Qarabağ erməniləri ilə bağlı meydana çıxan və daha çox Ermənistan hakimiyyətinin daxili ictimai rəyə erməni təəssübkeşliyi kimi göstərdiyi məsələlərə, Moskvada yaxşı anlayırlar ki, bunlar təfərrüatdır. Yəni, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirən, bunu dönə-dönə təkrarlayan Paşinyan administrasiyasının Qarabağ müstəvisində prinsipial tutacaq yeri artıq yoxdur. Bu yoxdursa, regionda Rusiyanın hərbi varlıq kimi gördüyü sülhməramlılar faktoru avtomatik ikinci plana keçir.

Deməli, V.Putinin görüş təşəbbüsünü aktuallaşdıran növbəti və əsas məqam həm də budur. Və deməli, Rusiya çalışmalıdır ki, Cənubi Qafqaz platformasına yönələn nizamlamada aktiv olsun. Nəzərə alsaq ki, Qərb, Azərbaycanın diktəsi ilə, nizamlama baxımından, necə deyərlər, bıçağı sümüyə dirəndirməkdədir, Moskva danışıqların ona əks qütb tərəfindən irəliyə daşınmış məntiqini daha da inkişaf etdirməlidir. Həm də ona görə inkişaf etdirməlidir ki, Qərb mövcud istiqamətdə konkret ardıcıllıq irəli sürür. Söhbət Azərbaycan və Ermənistan lidelərinin yaxın gələcəkdə Avropa ölkələrində yenidən üz-üzə gəlmələrindən gedir – iyunda Kişinyovda, payızda Qranadada iki Cənubi Qafqaz liderinin görüşü planlaşdırılıb. Özü də görüşlərdən birində Fransa və Almaniyanın liderlərinin də iştirak etmələri də gündəlikdədir.

Bəli, Rusiya elə alternativ irəli sürməlidir ki, sözügedən təmaslarda əldə edilməsi ehtimal olunan razılaşmaları kölgədə qoysun və barışdırıcı mövqe qazanaraq, bölgəyə həm mənəvi bağlılığını isbatlasın, həm də sülhpərvər imic ortaya qoysun. Axı xüsusilə ikinci məsələ bərbad durumdadır. Dünya Ukrayna müharibəsi səbəbindən, Moskvaya hiddət və nifrət bəsləyir. Cənubi Qafqaz regionuna görə növbəti mənfi obraz ona, heç lazım deyil.

Ancaq sən saydığını say, gör, fələk nə sayır. Yəni, bütün bu dediklərimiz aysberqin görünən tərəfləridir. Çünki bir çox hallarda normal məntiq Rusiyanın siyasətini anlamaqda çətinlik çəkir. Bu mənada “Kommersant”ın Moskva nəşrinin Azərbaycan, Rusiya və Ermənistan liderlərinin dünənki üçtərəfli görüşünün yekunlarına nəzərən ən azı iki sənədin imzalanacağına dair məlumatı reallığı və danışıqların may ayından başlayaraq aktivləşən fazasını vurğulasa da, tərəddüd doğururdu. Digər tərəfdən, nəşr bildirirdi ki, sənədlərdən birincisini baş nazirin müavinləri hazırlayıb və o, nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması haqqındadır. İkinci sənəd isə liderlərin növbəti birgə bəyanatıdır. Yeri gəlmişkən, nəşr üçtərəfli bəyanatların sayına diqqət yetirir. Rusiyanın məntiqi ilə sənədlərin sayının çoxluğu, yəni beşincisinin imzalanması, ölkənin gördüyü işin səmərəliliyidirsə, bizim üçün mənasızlığın təzahürü.

Çünki prinsip etibarilə, Ermənistanı danışıqlar masasında oturdan əvvəlki dörd bəyanat yox, Azərbaycanın qətiyyətli addımlarıdır. Paritet olsun deyə bir daha bildirək ki, Qərb nizamlama xəttini axtivləşdirən də ölkəmizin prinsipial mövqeyidir. Elə buna görə “Kommersant” öz yanaşmasında vurğunu liderlərin imzalayacağı ikinci sənədin əsas məğzinə yönəldir. Söhbət Ermənistan və Azərbaycan tərəfindən bir-birinin ərazi bütövlüyünün qarşılıqlı tanınmasından gedir.

Deməli, Rusiya hər vəchlə çalışır ki, Qərb platformasında şifahi şəkildə dilə gətirilmiş fikirlər sənəd üzərinə köçürülsün, imzalarla təsdiqlənsin. Belə getsə, Moskva Qərbə inad olaraq öz adını Azərbaycanla Ermənistan arasındakı yekun sülh müqaviləsinə də daxil etməyə çalışa bilər. Əlbəttə, bu çalışma daxil etmək yox, dürtməyə oxşayacaqdır. Hər halda Cənubi Qafqaz siyasi cəbhəsində varlıq macərasını hər vəchlə göstərməkdə olan Kremldən bunu da gözləmək mümkündür.

***Ə.CAHANGİROĞLU, “Xalq qəzeti”***

# Paşinyansayağı həyasızlıq – Qərb Rusiya vasitəçiliyinə qarşı

## Nikolun təxribatı nəyə hesablanmışdı?

Bəli, ilk baxışdan, Nikolun dövlətimizin başçısının söylədiklərinə, guya, cavab verirmiş kimi, dillənməsindəki məntiqi anlamaq mümkünsüzdür. Sanki bir neçə gün öncə İrəvanda keçirdiyi mətbuat konfransında Qarabağın Azərbaycana məxsusluğunu bildirən o, deyildi. Belə nəticəyə gəlmək mümkündür ki, Paşinyan Azərbaycan–Ermənistan nizamlanmasının, belə demək mümkünsə, Qərb sektorunda dayananda bir cür olur, Rusiyaya gələndə başqa cür. Bu qeyri-ciddilik son dərəcə təhlükəli tendensiyadır.

Beləliklə, Ermənistanın baş naziri bildirir ki, Azərbaycan Laçın dəhlizində qeyri-qanuni sərhəd nəzarət-buraxılış məntəqəsi qurub. Dövlətimizin başçısı ona ölkəmizin ərazi bütövlüyünü tanıdığını xatırladanda isə sözünə düzəliş edərək bildirir ki, Laçın dəhlizində sərhəd məntəqəsinin qurulması üçtərəfli Bəyanata ziddir.

Bəli, Paşinyan vəziyyəti gərginləşdirən ritorikaya üstünlük verir. Halbuki buna ehtiyac yox idi. Çünki cənab İlham Əliyev çıxışında ölkəmizin şimaldan cənuba və şərqdən qərbə uzanan nəqliyyat qovşaqlarının mərkəzində yerləşdiyini bildirmiş, mövcud xüsusda Zəngəzur dəhlizinin əhəmiyyətini vurğulamışdı. Paşinyan isə özünün axmaq məntiqi ilə “Zəngəzur dəhlizi” ifadəsinn Azərbaycanın Ermənistana qarşı ərazi iddiası kimi anladı. Əslində, bu anlamaq yox, anlamaq istəmək mənasındadır, daha doğrusu isə bəhanədir.

Sadə məntiq var: Ermənistanın baş nazirinin istinad etdiyi 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yoldan söhbət açılır. Bu yola dövlətimizin başçısı “Zəngəzur dəhlizi” deyir və onun deyimi artıq beynəlxalq terminə çevrilib. Yəni, İrəvanın məsələni necə qəbul edib-etməməsindən asılı olmyaraq, reallıq budur.

Bir daha deyək ki, Paşinyan administrasiyası sözügedən yolun açılması ilə bağlı üzərinə öhdəlik götürmüş tərəfdir. O zaman Paşinyan nəyə qarşı çıxır? Axı prinsipcə, Azərbaycanın ərazi bütövlüyünü tanıyan dövlət bu sayaq qəbuledilməz ritorikaya baş vurmamalıdır. O zaman düşünək görək, Paşinyanın “sancısı” nəyə görədir.

***

Burada vacib məqam var. Nikol Rusiyaya, sadəcə, getmək xatirinə gedib. Nəzərə alsaq ki, Paşinyanın may ayının ikinci ongünlüyündən başlayaraq, həm İrəvandakı mətbuat konfransında, həm də İslandiyanın paytaxtı Reykyavikdə Avropa Şurasının sammitində səsləndirdiyi fikirlər Azərbaycanın ərazi bütövlüyünün tanınmasına hesablanmışdı, üstəlik, Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə keçirilmiş görüşdən sonra da eyni məsələ gündəmə gəlmişdi və ən əsası Nikol sözügedən çıxışlarında üçtərəfli Bəyanata köklənməmişdi, onun Moskvada həmin bəyanatı yada salması Rusiyaya münasibətdə aşkar təxribatdır.

Diqqət yetirək, Azərbaycan və Ermənistan liderlərinin dünənki Moskva görüşü, müəyyən mənada, Cənubi Qafqaz nizamlamasındakı Qərb xəttinin davamı təsiri bağışlayırdı. Əslində, siyasi ekspertlər bu nəticəyə çox böyük təəccüblə gəlmişdilər. Lakin onlar belə qənaətdə idilər ki, Rusiya Qərb platformasındakı uğurları görür və mövcud nizamlama prosesində özü üçün tutacaq yer axtarır. Bunun vacibliyi ölkənin Cənubi Qafqazda nüfuzunu qorumaq istəyi kontekstində qiymətləndirilirdi. Paşinyan isə təxribatçı çıxışı ilə Moskvanı, belə demək mümkünsə, məhvərinə qaytardı. Məhvər isə Kremlin yerli-yersiz üzərində dayanmağı xoşladığı üçtərəfli Bəyanatdır.

Bəli, Nikolun Laçın yolunda Azərbaycanın qurduğu sərhəd buraxılış məntəqəsinə münasibətdə qanunsuzluq məntiqini irəli sürməsi, Rusiyanın istinad etdiyi və əsas saydığı üçtərəfli Bəyanatın İrəvan üçün əhəmiyyətsizliyinin vurğulanmasıdır. Yəni, Moskvanın sülhyaratma missiyası heçə sayılır. Deməli, Qərbin irəlilətdiyi prosesdən Kremlin hansısa şəkildə dividend əldə etməsinə razılıq yoxdur. Paşinyanın çıxışı məhz həmin narazılığın ifadəsi idi. Daha konkret deyək, Qərb öz işinə Kremli şərik qoşmaq istəmir və Nikol da onun direktivlərini destruktiv mövqeyi ilə açıqlayır. Yəni, Azərbaycan Prezidenti Zəngəzur dəhlizi ilə bağlı məsələdən söz açmasaydı da, Paşinyan nə isə tapıb deyəcəkdi ki, durum gərginləşsin.

***

Digər tərəfdən, Nikol Ermənistanın xəstə ictimai rəyi qarşısında da dividend qazanmağa çalışır. Həm öz tərəfdarlarına göstərir ki, Rusiyanın paytaxtında sərt danışmaq iqtidarındadır, həm də müxalif kəsimin etirazlarını səngidir və bir növ, həmin kəsimin anti-Azərbaycan dili ilə danışır. Bu, bir tərəfdən ona hakimiyyətdə qalmaq zəmini formalaşdırır, digər tərəfdən isə perspektivdə gözlənilən Qərb tənzimləməsi xəttinə əsasən edəcəyi güzəştlər üçün meydan yaradır. Nəzərə alaq ki, qarşıdakı müddətdə Nikolun iqtidarını sürdürməsi, təlatümsüz Ermənistan amili, aktivləşən Qərb formatının məntiqi yekuna çatması baxımından vacibdir.

Əgər məntiqi yekun olsa, yəni, sülh müqaviləsi imzalansa, İrəvan Moskvaya onun səmərəsiz fəaliyyət göstərdiyini söyləyə və daxili ictiami rəyi də mövcud xüsusda hazırlaya biləcəkdir. Müvafiq olaraq, Rusiyanın Cənubi Qafqazdan sıxışdırılıb çıxarılması xətti də davamını tapacaqdır.

Bütün bunları nəzərə alaraq, qətiyyətlə deyə bilərik ki, Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə dünən Moskvada keçirilmiş Azərbaycan və Ermənistan lidelərinin görüşü, bu təmasdan əvvəlcədən gözlənilən səmərəni vermədi. Əlbəttə, demək olmaz ki, görüşdən sülh müqaviləsinin imzalanacağına dair düşüncə qətiliyi var idi. Ancaq bu yolda ciddi irəliləyişin baş verəcəyi ehtimalı üzərində dayanılırdı. Paşinyan həmin ehtimalı Azərbaycan Prezidentinin qonaq qismində etdiyi çıxışa mənasız replikası ilə aradan qaldırdı və yekun nəticədə özünün Qərbə sadiqlik missiyasındakı növbəti elementi ortaya qoydu.

***Ə.RÜSTƏMOV, “Xalq qəzeti”***

# Kövrək ümidlərin gerçəkləşmə anı

## Moskvanın düzənlədiyi üçtərəfli danışıqlardan gözlənilən nəticə qismən əldə olundu



**Əsas müzakirə mövzusu Azərbaycan və Ermənistan arasında sülh prosesinin olduğu üçlüyün Moskva formatında görüşü Vaşinqtonda və Brüsseldə iki ölkənin XİN başçıları səviyyəsində dialoqun davamı kimi irəliyə doğru atılan addım sayıla bilər. Kreml platformasından iki gün əvvəl ATƏT Parlament Assambleyasının sədri xanım Marqareta Sederfelti qəbul edərkən Prezidenti İlham Əliyev deyib ki, Azərbaycanın təqdim etdiyi 5 prinsip, xüsusilə dövlətlərin ərazi bütövlüyünün və suverenliyinin qarşılıqlı şəkildə tanınması əsasında ölkəmiz sülh müqaviləsinin imzalanmasını dəstəkləyir. Bakının mövqeyi birmənalı və dəyişməzdir.**

### Görüş öncəsi ehtimallar və proqnozlar

Moskva görüşündən bir qədər əvvəl Rusiyanın “Kommersant” nəşri sülh danışıqlarının yekunu kimi azı iki sənədin imzalanacağı barədə məlumat paylaşıb. Nəşrin yazdığına görə, həmin sənədlərin razılaşdırılması ilə bağlı iş mayın 24-də gün ərzində davam etdirilib. “Nəqliyyat komunikasiyalarının bloksuzlaşdırılması barədə birinci sənəd Azərbaycan və Ermənistanın baş nazirlərinin müavinləri tərəfindən hazırlanıb. İkinci sənəd isə İlham Əliyev, Nikol Paşinyan və Vladimir Putinin sayca beşinci birgə bəyanatı olmalıdır. Bu sənəd üzərində isə üç ölkənin XİN-ləri işləyib”, – “Kommersant” belə yazıb.

Müstəqil ekspertlərin gəldiyi qənaətə görə, ikinci sənədin ən önəmli məqamı Ermənistan və Azərbaycanın qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünü tanımaları olmalıdır. N.Paşinyanın bununla bağlı Hayastanda etiraz dalğası yaratmış axırıncı bəyanatı əvvəlcədən cəmiyyəti “xoşagəlməz hadisəyə” hazırlamaq məqsədini daşıyırdı. Birinci sənəddə Ermənistanla Qarabağ arasında bir tərəfdən, eləcə də Naxçıvanla Azərbaycanın qərb rayonları arasında digər tərəfdən kommunikasiyaların bərabərhüquqlu statusu təsdiqlənməlidir.

Eyni proqnozu dolayısı ilə Rusiya Xarici işlər nazirinin müavini Mixail Qaluzin də təsdiqləyib. O, aparılan birgə işə Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci ilin noyabrında imzaladıqları üçtərəfli bəyanatın realizəsi kontekstində baxılmasının doğru olduğuna əminliyini bildirib. Bəyanatdakı şərtlərin Ermənistan–Azərbaycan normallaşma prosesinin zəminində durduğuna, Bakı və İrəvan arasında barışığın “yol xəritəsini” formalaşdırdığına diqqəti çəkən M.Qaluzin xəritənin özündə nəqliyyat və iqtisadi əlaqələrin bərpası, iki ölkə arasında sərhədin delimitasiyasını və vətəndaş cəmiyyəti xətti ilə təmasların inkişafı yönündə addımları ehtiva etdiyini söyləyib.

### Moskvanın güzəştə getmək məqamı yetişib

Bəli, 44 günlük Vətən müharibəsi başa çatandan sonra Ermənistanla münasibətlərin normallaşması və sülh müqaviləsinin imzalanması təşəbbüsü ilə ilk çıxış edən Azərbaycan olub. Dövlət başçısı bu xüsusda son dövrlərdə iki ölkənin xarici işlər nazirləri səviyyəsində sülh müqaviləsinin mətni üzrə Vaşinqtonda aparılmış müzakirələri, həmçinin Brüsseldə Aİ Şurasının Prezidenti Şarl Mişelin dəstəyi ilə özünün Ermənistanın baş naziri ilə keçirdiyi görüşlərini qeyd edib, qarşıdan gələn dövrlərdə də müxtəlif beynəlxalq tədbirlər çərçivəsində görüşlərin olacağını bildirib.

Aydındır ki, iki ölkə arasında sülhün əldə olunması prosesində Vaşinqton və Brüssellə müqayisədə Rusiya həlledici aktor və rəsmi vasitəçidir. Bunun bir çox geosiyasi, obyektiv və subyektiv səbəbləri var. Kreml rəsmilərinin sülh prosesinin məhz Rusiyanın iştirakı ilə və yalnız 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanat çərçivəsində baş tuta biləcəyini dəfələrlə bəyan etməsi təsadüfi deyil. İstər ABŞ-da, istərsə də Avropada sülhə nail olunması onların maraq və prinsiplərinə uyğun deyil. Əgər bütün hallarda “neytral zonalardakı” görüşlər irəliyə doğru addım kimi qiymətləndirilirsə, 2023-cü ildə sülhün baş tutmasının vacibliyi vurğulanırsa, deməli, Moskva mövqeyini yumşaltmaq, bir qədər geri çəkilmək barədə düşünməlidir. Çünki Rusiyanın Ukraynada davam etdirdiyi xüsusi hərbi əməliyyatların gedişində silahları ilə döyüşdüyü “şərti” düşmənlərlə Bakı–İrəvan sülh dialoquna öz töhfəsini verməyə çalışanlar eyni subyektlərdir.

Dünən Moskvada gerçəkləşən üçtərəfli görüşdə hansısa konkret nəticənin əldə olunacağına bəslənən kövrək ümidlər özünü qismən doğrultdu. Dialoqla bağlı açıqlanan məlumatlardan səslənən ehtimallar və proqnozlar da müəyyən dərəcədə reallaşdı. Ermənistan XİN-in başçısı Ararat Mirzoyanın 25 may Sammiti ərəfəsində verdiyi açıqlamasında Vaşinqton və Brüsseldəki sülh təmaslarından sonra Moskva görüşünün “kövrək nikbinlik üçün əsas” verəcəyini bildirməsi də İrəvanın əvvəlcədən yüzfaizlik müsbət sonluğa o qədər də əmin olmadığına işarə idi.

Üçtərəfli görüşdən əvvəl Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclasında çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirib ki, Ermənistan istisna olmaqla, şuraya üzv ölkələrlə Azərbaycanın əməkdaşlığı 30 il ərzində uğurla inkişaf edir. Dövlət başçısı, həmçinin deyib ki, Azərbaycan və Ermənistanın qarşılıqlı olaraq bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıması əsasında münasibətlərin normallaşdırılması üçün ciddi imkanlar mövcuddur.

“Ermənistan və Azərbaycan qarşılıqlı olaraq bir-birinin ərazi bütövlüyünü tanımaq barədə razılığa gəliblər”. Bu sözləri isə Ermənistanın baş naziri Nikol Paşinyan həmin platformada keçirilən iclasda deyib. O, eyni zamanda İrəvanın bölgədəki bütün nəqliyyat bloklarını açmağa hazır olduğunu da diqqətə çatdırıb.

### Çoxsaylı dialoqlarda 1 cavab axtarılır

Bu il tərəflər arasında daha 3 görüşün keçirilməsi gözlənilir. İyunun 1-də Moldovanın paytaxtı Kişinyov şəhərində Avropa Siyasi Birliyinin (ASB) II Zirvə toplantısında Fransa Prezidenti Emmanuel Makron və Almaniya Kansleri Olaf Şoltsun iştirakı ilə Azərbaycan və Ermənistan liderləri arasında növbəti danışıqların aparılması planlaşdırılır. İyul ayında isə Brüsseldə yenidən üçtərəfli görüşün keçirilməsi nəzərdə tutulur. Brüssel danışıqlarına Aİ Şurasının sədri Şarl Mişel moderatorluq edəcək. 2023-cü ilin oktyabrında isə Qranadada ASB-nin III Sammiti çərçivəsində daha bir görüş olacaq.

Başqa sözlə, sülhə nail olmaq üçün danışıqların bu ilin sonuna qədər davam edəcəyi ehtimalı böyükdür. Bəs dialoq raundlarının sonunda ədalətli sülh müqaviləsi ilə tamamlanacağının reallıq dərəcəsi nə qədərdir? Bu sualın cavabı hələlik açıq qalır. Cavabsız suallar isə Bakının seçim imkanı dairəsinin daralmasına səbəb ola bilər.

Yəni, Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarovun dediyi kimi, 2020-ci ilin 44 günlük Vətən müharibəsindən sonra sülh danışıqları üçün ən nüfuzlu meydan Azərbaycan Silahlı Qüvvələrinin mövqeyidir. Bəli, bu, çox güclü, səmərəli meydan və sülhəgətirmə vasitəsidir. Həm də, necə deyərlər, xoşluqla başa düşməyəni zorla haqqın ayağına gətirməyin yeganə yoludur.

*İmran BƏDİRXANLI,*
*“Xalq qəzeti”*

**Baş nazir Nikol Paşinyan növbəti dəfə hissə deyil, məntiqə əsaslanan açıqlama ilə çıxış edib. Mayın 24-də parlamentdə keçirilən “Hökumət saatı”nda müxalifətçi deputatlardan biri ona “Ermənistan niyə Azərbaycanın ərazi bütövlüyünü tanıyır?” sualını verib. N.Paşinyan cavabında deyib: “Biz Azərbaycanın 86,6 min kvadratkilometrlik ərazi bütövlüyünü tanıdığımızı bildirmişik. Azərbaycandan da bizim 29,8 min kvadratkilometrlik ərazi bütövlüyümüzü tanımasını istəmişik. Sonuncu Brüssel görüşündə bu məsələ fiksə olunub. Yəni, iki ölkə qarşılıqlı olaraq bir-birinin ərazi bütövlüyünü tanıyıb. Azərbaycan hər zaman belə bir tezis irəli sürürdü ki, biz onların ərazi bütövlüyünü tanımırıqsa, onlar da bizim ərazi bütövlüyümüzü tanımayacaqlar. Bu söhbət beynəlxalq ictimaiyyətin gözü qarşısında baş verdi”.**

# Paşinyan: Bizə “Yığışın və buradan gedin” deyə bilərlər



Onun sözlərinə görə, müharibədən sonrakı dövrdə iki ölkə arasında vaxtaşırı baş verən sərhəd toqquşmaları zamanı Bakı İrəvanın onun ərazi bütövlüyünü tanımadığını bəyan edir: “Bizdə bəziləri deyirlər ki, bəli, biz Azərbaycanın ərazi bütövlüyünü tanımırıq. Güman edirlər ki, Azərbaycan Ermənistana hücum etsə (?), məsələn, KTMT gəlib kömək edəcək. Hücum zamanı (?) KTMT bəyan edir ki, bəli, bizi dəstəkləyəcəklər və bura 30 güclü müşahidəçi göndərəcəklər. Və burada biz mütləq qərar verməliyik. Deyə bilərik ki, Azərbaycanın ərazi bütövlüyünü tanımırıq və fikrimizcə, bu ölkənin ərazisi 86,6 min kvadratkilometr deyil, 45,7 min kvadratkilometrdir. O zaman bəyan edəcəklər ki, onların fikrincə, Ermənistanın ərazisi 29,8 min kvadratkilometr deyil, cəmi 8700 kvadratkilometrdir”.

N.Paşinyan parlamentin tribunasından bir daha bəyan edib ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımaqla bağlı Brüsseldə əldə edilmiş razılaşmaları təsdiqləyir və Bakının da bunu təsdiqləyəcəyinə ümid edir.

Razılaşmanın üç mərhələsinin artıq baş verdiyini bildirən N.Paşinyan qeyd edib ki, birinci mərhələdə Alma-Ata Bəyannaməsi tanınıb, ikinci mərhələdə Praqa razılaşmaları təsdiqlənib, üçüncü mərhələdə isə Brüsseldə ərazilərin qarşılıqlı tanınması olub. Növbəti addım xəritələrin müəyyənləşdirilməsi olmalıdır.

Baş nazir müxalifətin Ermənistanın həm Qarabağ, həm də anklavlarla bağlı Azərbaycanın bütün tələblərini yerinə yetirdiyi və bunun müqabilində heç nə almadığına dair tənqidi fikirləri ilə də razılaşıb. N.Paşinyanın bundan sonrakı etirafı da diqqətçəkəndir: “Biz hamımız başa düşürükmü ki, 30 ildir sevimli vətənimizdə kadastr şəhadətnaməsi olmayan yerdə yaşayırıq və Ermənistanın dövlətçilik tarixində heç vaxt kadastr şəhadətnaməsi olmayıb. Etmək istədiyimiz iş baş tutsa, tarixdə ilk dəfə kadastr şəhadətnaməsi alacağıq. Yaşadığımız yerin təkcə faktiki deyil, həm də de-yure sahibi olmaq şansımız var. Biz elə bir bölgədə yaşayırıq ki, bir gün bizə “yığışın və buradan gedin” deyə bilərlər. Və bu halda biz kadastr şəhadətnaməsini göstərə bilməyəcəyik. Biz hamımız kirayənişin statusumuzu aşmaq, adı beynəlxalq səviyyədə tanınmış, delimitasiya və demarkasiya edilmiş sərhədlərə malik dövlət olaraq, kadastr şəhadətnaməsinə sahib olmaq istəyirik. Biz bu şəhadətnaməni alacağıq”.

***

Paşinyanın bundan öncəki mətbuat konfransında olduğu kimi, parlamentdəki çıxışı da ciddi rezonans doğurub və etirazlara səbəb olub. Parlamentdəki “Şərəfim var” fraksiyasının rəhbəri Ayk Mamicanyan jurnalistlərə bildirib ki, Paşinyanın açıqlamaları Azərbaycanı yeni “aqressiyaya” (?) sövq edə bilər: “Paşinyanın kadastrla bağlı cəfəngiyyatı düşmən əhval-ruhiyyəli qonşu dövlətlər tərəfindən istifadə oluna bilər. Düşmənlərimiz bizim oğlanlara atəş açmağa başlayanda, bu hərəkətlərə Paşinyanın dediyi cəfəngiyyatla haqq qazandırılacaq”.

Dünən parlamentdə çıxışı zamanı A.Mamicanyan fikirlərində bir qədər də irəli gedib. Qeyd edib ki, baş nazirin yalnız iki yolu qalıb: ya Ermənistan Respublikasına ölüm hökmünü imzalamaq, ya da istefa vermək. Onun sözlərinə görə, N.Paşinyan Qarabağla bağlı edəcəyini edib və deyəcəyini deyib: “İndi növbə bizdə – erməni xalqındadır”.

Erməni Milli Konqresi sədrinin müavini Levon Zurabyan isə baş nazirin bəyanatına cavab olaraq deyib ki, bu, mürəkkəb bir işlə məşğul olanda onu daha başa düşülən gündəlik terminlərə çevirməli olan ibtidai təfəkkürlü şəxsin izahıdır: “Onun primitivliyi və savadsızlığı Ermənistanı təhlükə altında qoyur. “Azadlıq” radiosunun erməni xidmətinin “Paşinyanın dediklərindən belə çıxmırmı ki, bizim dövlətçiliyimiz yoxdur və heç vaxt olmayıb” sualına sədr müavini belə cavab verib: “Mən Paşinyanın bəyanatlarının hansısa bir məna kəsb etdiyini düşünmürəm. Çünki o, özü nəyisə başa düşmür. Ermənistan dövlətinin mövcudluğu heç də Nikol Paşinyanın cahil fikirlərindən asılı deyil”.

Parlamentin sabiq deputatı, ictimai xadim Sofiya Ovsepyan isə sosial şəbəkə hesabında N.Paşinyanı “baş tülkü” adlandırıb: “Moskvaya getməzdən əvvəl o, parlamentə baş çəkdi və orada Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bir daha bəyan etdi. Sonra Tavuş, Vayotsdzor vilayətini, Qarabağı təslim edəcəyini (?) təsdiqlədi. Daha sonra bizdə müzakirə və qorxu yaratmaq üçün başqa bir mövzunu – Ermənistanın kadastr sənədi ilə bağlı məlumatı informasiya sahəsinə atdı və xəbərdarlıq etdi ki, əgər siz Qarabağın təslim olmasına (?) qarşısınızsa, onda mən də Ermənistanı təslim edəcəyəm. Bu, insanları qorxutmaq və onları evdə qalmağa, küçələrə çıxmamağa məcbur etmək üçün atılan addım idi. Biz bu gün kadastr sənədini müzakirə edərkən, baş tülkü tariximizin məhvi ilə bağlı sənədə imza atacaq...”

**Mövzu ilə bağlı fikirlərini “Xalq qəzeti” ilə bölüşən politoloq İlyas Hüseynov** bildirib ki, Paşinyanın açıqlamaları son vaxtlar Ermənistanda böyük narahatlıq yaradıb. Onun sözlərinə görə, reallıq bundan ibarətdir ki, Paşinyan əhalini qəflət yuxusundan oyadır: “Müəyyən formada özünüdərkin formalaşması, əhalinin reallıq hissinə qaytarılması istiqamətində mesajlar verir. Bu fikirlər nə qədər sülh istiqamətində çağırış olsa da, hələlik yetərsizdir. Erməni xalqı həmişə mifoloji çərçivədə olub. Uydurmalar, yalanlar və saxta formalaşmış stereotiplər onlarda üstünlük təşkil edir. Azərbaycanın hər bir uğuru, regional müstəvidə həyata keçirdiyi hər bir layihə əvvəlki hakimiyyətlər dövründə sadə ermənilərə başqa cür təqdim olunurdu. Bu gün reallıqlar üzə çıxır. Regionda güclü dayaqları olan dövlət, söz sahibi Azərbaycandır. Eyni zamanda, torpaqların sahibi də azərbaycanlılardır”.



İlyas Hüseynov bildirib ki, bu gün regionda sülhə ən çox ehtiyacı olan ölkənin Ermənistan olduğunu İrəvanda anlayırlar: “Ermənistanın siyasi rəhbərliyi bu reallıqla barışıb. Onlar həm də Azərbaycanın gücünü anlayıblar. Paşinyan bundan əvvəlki açıqlamalarının birində qeyd etmişdi ki, Azərbaycan enerji və nəqliyyat nöqteyi-nəzərindən Şərqlə Qərb arasına mühüm rola malikdir. Ermənistan da burada siyasi-iqtisadi dividendlər əldə edə bilər. Amma bunun üçün, ilk növbədə, sülhə ehtiyac var”.

Politoloq onu da bildirib ki, sülh prosesi sonsuz deyil: “Sülh danışıqlarının bir limiti var. Bunu Paşinyan da başa düşür və bu kontekstdə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirir. O, həmçinin başa düşür ki, uzun illər ərzində aparılan saxta təbliğat nəticəsində həmvətənlərinin beyinləri “yuyulub”. Bu gün Ermənistanda Paşinyana olan etirazlar bunun mənfi nəticəsidir. Paşinyan yığılıb qalmış köhnə stereotiplərin əvəzinə reallıqları söyləyəndə onu satqın və milli maraqları satan şəxs adlandırırlar. Ancaq onun əleyhinə olanların nəyəsə nail olacaqları gözlənilmir”.

*Səxavət HƏMİD,*
*“Xalq qəzeti”*

# İqtisadiyyatın rəqəmsallaşması inkişafı stimullaşdırır

**Ötən əsrin sonlarında Azərbaycan mürəkkəb tarixi dövr yaşasa da, sosial-iqtisadi və mədəni həyatında böyük təkamül yolunu inamla keçərək sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin edən ölkə kimi dünyada tanındı. Respublikamızın beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artdı, cəmiyyətdə dövlətçilik ənənələri gücləndi, müasir sosial-iqtisadi infrastruktur quruculuğu uğurla həyata keçirildi. İqtisadi inkişafdan qaynaqlanan yüksək maliyyə imkanları uzun illər makroiqtisadi sabitlik və artıma mühüm töhfə verdi, təhlükəsizliyin təmini üçün güclü potensial yaratdı.**

## Ekspert rəyi

***İsmət VAQİFZADƏ,***
***İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru olduğu Rəqəmsal Ticarət Qovşağının rəhbəri***



İqtisadiyyatın rəqəmsallaşması ölkənin investisiya cəlbediciliyinə mühüm təsir göstərən amillərdən biridir. İnvestorlar tərəfindən rəqəmsal infrastrukturun, eləcə də elektron ticarətin inkişaf etdiyi və bazarın daha da genişlənməsi üçün potensialın olduğu ölkələrdə imkanlar axtarılır. Belə ki, elektron ticarət sektorunun inkişafı paralel olaraq ölkədə sərhədlərarası elektron ticarət imkanlarının, təhlükəsiz rəqəmsal ödəniş həllərinin genişləndirilməsi, etibarlı logistik şəbəkələrin təkmilləşdirilməsi kimi güclü rəqəmsal infrastruktur zərurətini şərtləndirir. Həmçinin elektron ticarət sahibkarlığı və innovasiyaları təşviq edir və biznes anlayışları, qərarların qəbulu və təhlili üçün böyük həcmdə məlumat bazası yaradır. Bu amillər elektron ticarətin genişlənməsini yaxından izləyən investorlar üçün gəlir artımı və innovasiyalar sahəsində imkanlar təqdim edir.

Azərbaycanda həyata keçirilən əsaslı islahatlar rəqəmsal transformasiya və elektron ticarətdə artım tempinin dayanıqlılığına səbəb olur. Beynəlxalq reytinqlərdə respublikamızın mövqeyinə nəzər salsaq, BMT-nin "Ticarət prosedurlarının sadələşdirilməsi məsələləri üzrə qlobal tədqiqatı"nda 2019-cu illə müqayisədə 2021-ci ildə şəffaflıq indikatoru üzrə 6,67 faiz, sərhədlərarası kağızsız ticarət indikatoru üzrə isə 16,67 faiz artıma nail olunub. Ümumilikdə isə Azərbaycan Dünya Bankının hazırladığı "GovTech Yetkinliyi İndeksi"nin (GovTech Maturity İndex - GTMI) 2022-ci il üzrə hesabatında yüksək rəqəmsallaşma səviyyəsinə görə 35 faiz ölkələrin daxil ola bildiyi birinci qrupda yer alıb.

Bununla yanaşı, Azərbaycanda elektron ticarət sahəsində də tətbiq olunan vahid rəqəmsal platforma modeli investisiya mühitinin daha da yaxşılaşdırılmasında istifadə oluna bilər. Belə ki, ölkənin investisiya üçün cəlbedici mühit olaraq təqdim olunması və mövcud elektron xidmətlərə, o cümlədən elektron ticarət sahəsində təqdim olunan imkanlara çıxışın "bir pəncərə"dən mümkünlüyü investisiya sahəsində böyük imkanlar yaradacaq.



Qələbə nəticəsində işğaldan azad edilən ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq hazırda Azərbaycanın inkişafını sürətləndirib. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişafı Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyənləşdirilməsində rolunu daha da möhkəmləndirib.

Uğurlu sosial-iqtisadi və siyasi uğurlar, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir.

Ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi bundan sonra da möhkəmləndiriləcək. Dövlətin iqtisadiyyatda rolunun bazaryönlü islahatlar vasitəsilə səmərəli idarə olunması, özəl mülkiyyət institutlarının gücləndirilməsi, biznesə dost dövlət idarəetməsi və xarici bazarlara yerli məhsulların çıxışını artırmaq məqsədilə ticarət rejimlərinin daha da liberallaşdırılması iqtisadi yüksəlişin təməl amilləri olacaq.

Bu məqsədlərin reallaşdırılması dayanıqlı makroiqtisadi sabitliyə xidmət edən effektiv makroiqtisadi siyasət çərçivəsinin formalaşdırılmasını, iqtisadi inkişafın ortamüddətli və uzunmüddətli "hərəkətverici qüvvələri"nin möhkəmləndirilməsini – insan kapitalının müasirləşdirilməsini, rəqəmsal iqtisadiyyatın genişləndirilməsini və iqtisadi suverenliyin tam təmin olunmasını tələb edir.

Bütün bunlar Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiqlənən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də öz aydın ifadəsini tapıb. Prioritetlərdə dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyatın yaradılması, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin qurulması kimi məsələlər qarşıya mühüm vəzifələr kimi qoyulub.

Bu məqamda onu da xatırladaq ki, uzunmüddətli dövrdə iqtisadi artım sağlam və tarazlı olmalıdır. Belə iqtisadi artım ölkənin davamlı inkişafı üçün möhkəm zəminin yaradılmasını şərtləndirir.Ümumiyyətlə, iqtisadi artım vətəndaşların həyatına təsir göstərən başlıca amillərdən biridir. İqtisadiyyatı davamlı və yüksək templərlə artırmaqla ölkədə adambaşına düşən milli gəlirin yüksək səviyyəsinə nail olunmalıdır. İqtisadi artım yüksək gəlirli iş yerləri yaratmaqla həyat səviyyəsinin ilbəil yaxşılaşmasını təmin etməlidir.

Dövlət investisiyalarının və dövlət şirkətlərinin fəaliyyətinin iqtisadi səmərəsi yüksəldilməli, bu sahədə şəffaflıq səviyyəsi artırılmalıdır. Dövlət şirkətlərinin kommersiya prinsipləri əsasında fəaliyyət göstərmələri üçün zəmin yaradılmalı, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla korporativ idarəetmə standartları tətbiq edilməli və gəlirlilik səviyyələrinin artırılması təmin olunmalıdır.

"Kölgə iqtisadiyyatı" minimuma endirilməli, özəl və dövlət sektorunda şəffaflıq səviyyəsi ən yüksək standartlara çatdırılmalıdır. İqtisadi idarəetmədə müasir korporativ davranış mədəniyyətinin tətbiqi genişləndirilməli və təşviq olunmalı, korrupsiya ilə mübarizə gücləndirilməli, yeni çağırışlara cavab verən müasir dövlət qulluğu sistemi və etikası formalaşmalıdır.

Şübhəsiz ki, bütün bu məsələlərdə rəqəmsallaşma prinsipinin tətbiqi önəmli rol oynayır. Məsələn, vergi siyasətində belə bir yanaşmanın diqqət mərkəzində saxlanılması müsbət nəticələrlə müşahidə edilir. Belə ki, ölkəmizdə həyata keçirilən vergi siyasətinin əsas istiqamətlərindən biri olan vergi inzibatçılığında tətbiq edilən rəqəmsal yanaşma mövcud resurslardan maksimum səmərəli istifadəni şərtləndirir. Vergi siyasəti rəqəmsal iqtisadiyyatda baş verən dəyişikliklərin tempinə və inkişafda olan iqtisadi mühitə uyğunlaşdırılır.

Yeri gəlmişkən, vergi orqanları tərəfindən rəqəmsal metodlar sırasında xüsusi yer tutan yeni nəsil nəzarət-kassa aparatlarının tətbiqi ölkədə biznes mühitinin daha da sağlamlaşdırılması və sahibkarlıq fəaliyyətinin keyfiyyətcə yeni müstəviyə qədəm qoyması baxımından olduqca əlamətdar hadisədir. Bu yeniliyin gətirdiyi faydalardan ən başlıcası həm sahibkarların, həm də dövlətin marağında olan şəffaflıq amilinin artması ilə bağlıdır. Yeni kassa aparatlarından istifadə hesablaşmaların daha şəffaf aparılmasına, malların qanunsuz dövriyyəsinin qarşısının alınmasına, dövriyyəyə nəzarətin təmin edilməsinə imkan yaradır. Bu kassa aparatlarının tətbiq dairəsinin genişləndirilməsi, öz növbəsində, innovativ layihə olan "ƏDV geri al"a da müsbət təsir göstərir və bu istiqamətlə mühüm uğurların əldə edilməsini şərtləndirir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

**Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi (IRENA) Şurasının 25-ci iclası keçirilib. Toplantıda ölkəmiz Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin (AREA) direktor müavini Kamran Hüseynovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub.**

# Bərpaolunan enerji üzrə beynəlxalq əməkdaşlıq genişlənir



Geniş fikir mübadiləsi və diskussiya şəraitində keçən şura iclasında AREA-nın direktor müavini K. Hüseynov "COP28-ə gedən yol: Bərpaolunan enerji mənbələrinə əsaslanan enerji keçidi və kritik materiallar", "Geotermal enerji bazarı və texnologiyalarının qlobal vəziyyəti", "Bərpa olunan enerji layihələrinin maliyyələşdirilməsi" kimi mövzularda təşkil olunmuş yüksək səviyyəli panel müzakirələrində iştirak edib. O, çıxışında Azərbaycanın enerji keçidi və bərpaolunan enerji sahəsində həyata keçirilən layihələr, ölkəmizin geotermal enerji potensialı və perspektivləri, dünya miqyasında makroiqtisadi səviyyədə bərpaolunan enerji layihələrinin maliyyələşdirilməsi ilə bağlı çətinliklər və dəstəkləyici mexanizmlər barədə məlumat verib.

İclas çərçivəsində "Geotermal Alyansı" ilə bağlı əməkdaşlıq, yaşıl hidrogen sahəsində təcrübənin bölüşdürülməsi, Azərbaycanda həyata keçirilən "yaşıl enerji" layihələrində IRENA-nın mövcud platformalarının və dəstəkləyici mexanizmlərinin tətbiqi ilə bağlı ikitərəfli görüşlər keçirilib. Bununla yanaşı, AREA və IRENA arasında keçirilən digər görüşlərdə gələcək əməkdaşlığın genişləndirilməsi ilə bağlı bir sıra məsələlər müzakirə olunub. Daha sonra AREA-nın direktor müavini "Proqram və strateji", "İnzibati və maliyyə" komitələrinin görüşlərində iştirak edib.

Xatırladaq ki, IRENA Assambleyasının 13-cü sessiyasında qəbul edilmiş qərara əsasən, Azərbaycan 2023–2024-cü illər üzrə IRENA Şurasının üzvüdür. 113 ölkənin və Avropa İttifaqının nümayəndələrinin iştirak etdiyi budəfəki tədbirdə isə Azərbaycan növbəti iki il ərzində İRENA şurasının İnzibati və maliyyə komitəsinin üzvü seçilib.

Yeri gəlmişkən, bərpaolunan enerji mənbələri üzrə potensialı yüksək qiymətləndirilən Azərbaycan 2009-cu ildən Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi ilə fəal əməkdaşlıq edir. 2014-cü ildən isə təşkilatın tamhüquqlu üzvü seçilən Azərbaycan Respublikası ötən müddətdə bu sahədə tərəfdaşlıq münasibətlərini xeyli inkişaf etdirib. Elə "Azərbaycanda bərpaolunan enerjiyə hazırlığın qiymətləndirilməsi" layihəsi də bu əməkdaşlığın bariz nümunəsidir. Həmin layihədə ölkəmizdə bərpaolunan enerji mənbələrinin istifadəsinin dəstəklənməsi məqsədilə əlverişli investisiya mühitinin yaradılması məsələsi xüsusi yer tutur.

Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin əsas hədəflərindən biri də məhz Azərbaycanda bərpaolunan enerji mənbələrinin potensialından səmərəli istifadənin gücləndirilməsindən ibarətdir. Ölkəmizin alternativ və bərpaolunan enerji potensialı isə olduqca yüksəkdir. Belə ki, son tədqiqatlar Azərbaycanda 27,5 min meqavat həcmində bərpaolunan enerji potensialının mövcudluğunu təsdiqləyib. Bunun isə 3 min meqavatı külək enerjisinin, 23 min meqavatı günəş enerjisinin, 380 meqavatı bioenerjinin, 520 meqavatı isə dağ çaylarının payına düşür. Hazırda Azərbaycanın müxtəlif bölgələrində ümumi gücü 66 meqavat təşkil edən külək, 40 meqavat olan günəş, 38 meqavat bioenerji elektrik stansiyaları, həmçinin 32 meqavat gücündə kiçik su elektrik stansiyaları istismar olunur.

Məlum olduğu kimi, ölkəmizin ümumi enerji istehsalında bərpaolunan enerjinin payı 17,3 faiz təşkil edir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də ölkəmizdə "yaşıl enerji" istehsalının genişləndirilməsi məsələsinə də xüsusi yer ayrılıb. Belə ki, ümumi enerji istehsalında bərpaolunan enerjinin payının 2025-ci ildə 24 faiz, 2030-cu ildə isə 30 faizə çatdırılması nəzərdə tutulur.

Hazırda ölkəmizdə bərpaolunan enerji potensialının hərəkətə gətirilməsi istiqamətində konkret layihələr icra olunur. Bu baxımdan ölkə ərazisində həyata keçirilən pilot layihələri qeyd etmək olar. Belə ki, Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə "Qaradağ" Günəş Elektrik Stansiyası (GES) layihəsi üzrə işlər uğurla davam etdirilir. Ötən müddətdə layihədə nəzərdə tutulmuş yolların çəkilişi başa çatdırılıb, kilometrlərlə ərazi hasarlanıb, günəş panellərinin yerləşdirilməsi üçün ərazi hazır vəziyyətə gətirilib. Artıq 550 hektar ərazini əhatə edən stansiyada tikinti-quraşdırma işləri yekun mərhələsinə qədəm qoyub. Hazırda yarımstansiyanın tikintisi tam sürətlə gedir. Layihə çərçivəsində ərazidə 500 mindən çox panelin quraşdırılması nəzərdə tutulur. Bu yaxınlarda isə günəş panellərinin əraziyə gətirilməsinə başlanılıb. "Qaradağ" GES-in isə bu ilin sonuna qədər istismara verilməsi nəzərdə tutulur.

Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ilə reallaşdırılan "Xızı–Abşeron" Külək Elektrik Stansiyası layihəsi də tədricən real fəaliyyət sahəsinə çevrilməkdədir. Artıq burada mobilizasiya işlərinə start verilib. Yaxın vaxtlarda isə layihə tikinti mərhələsinə qədəm qoyacaq.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində də bərpaolunan enerji istehsalı üçün geniş imkanlar var. Mütəxəssislərin son hesablamalarına görə, sözügedən ərazidə 10 qiqavat həcmində günəş və külək enerjisi potensialı mövcuddur. Təsadüfi deyil ki, Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurun 10 min kvadratkilometrlik ərazisini "yaşıl enerji" zonası elan edib. Ötən müddətdə burada bir neçə su elektrik stansiyası inşa edilərək istismara verilib. Bununla yanaşı, hökumətin işğaldan azad olunmuş ərazilərdə günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı konkret planları var.Yeri gəlmişkən, Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev bildirib ki, bu konsepsiyaya əsasən həmin ərazilərdə istehlak olunan elektrik enerjisi yalnız bərpaolunan enerji mənbələrindən alınacaq.

Artıq bu istiqamətdə də konkret addımlar atılır. Məlum olduğu kimi, Böyük Britaniyanın BP şirkəti tərəfindən Cəbrayıl rayonunda 240 meqavat gücündə "Şəfəq" Günəş Elektrik Stansiyası tikiləcək. Ötən müddətdə Energetika Nazirliyi və BP şirkəti arasında layihənin texniki və kommersiya parametrləri, eləcə də maliyyə tərəfləri ilə bağlı razılığa gəlinib. Stansiyanın isə təqribən iki il ərzində tikilib istifadəyə verilməsi gözlənilir.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

# Avropa Azərbaycandan 595 milyon avroluq qaz idxal edib

**Avropa İttifaqının Statistika İdarəsinin (Eurostat) məlumatına görə, 2023-cü ilin mart ayında Azərbaycan Avropaya 611,8 milyon kubmetr təbii qaz nəql edib.**




Qeyd edək ki, 2023-cü ilin birinci rübündə Azərbaycanda qaz hasilatı 3 faiz artaraq 12,2 milyard kubmetrə çatıb. Ölkə təbii qazın yarıdan çoxunu, yaxud 6,5 milyard kubmetrini xarici bazarlara ixrac edib.

2023-cü ilin yanvar–mart ayları ərzində Azərbaycan Avropaya (2,9 milyard kubmetr), Türkiyəyə (2,7 milyard kubmetr) və Gürcüstana (0,9 milyard kubmetr) təbii qaz ixrac edib. Hesabat dövründə Trans–Anadolu boru kəməri ilə Türkiyəyə 1,4 milyon kubmetr qaz ixrac olunub.

Azərbaycan Cənub Qaz Dəhlizi ilə Avropaya qaz tədarükünü 31 dekabr 2020-ci ildə başladıb. Ölkə bu il Avropaya 12 milyard kubmetr qaz ixrac etməyi planlaşdırır.

***"Xalq qəzeti"***

**Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrasına dair illik hesabatda ötən il vergi orqanlarının xətti ilə dövlət büdcəsinə daxil olan vəsaitin 8 milyard 136,3 milyon manatı və ya 52,3 faizi qeyri-neft sektorunun, 7 milyard 406,6 milyon manatı və ya 47,7 faizi neft sektorunun payına düşüb.**

# Büdcə vəsaitinin 47,7 faizi neft sektorunun payına düşür

Neft sektoru üzrə vergi daxilolmalarının 27,2 faizi və ya 2 milyard 12,7 milyon manatı SOCAR-ın, 72,8 faizi və ya 5 milyard 393,9 milyon manatını isə neft-qaz sahəsində hasilatın pay bölgüsü sazişləri çərçivəsində fəaliyyət göstərən podratçı təşkilatların mənfəət vergisi təşkil edib.

***"Xalq qəzeti"***

# Aviadaşımalar 60 faiz artıb

**Bu ilin yanvar–aprel aylarında Azərbaycanda hava nəqliyyatı ilə 735,5 min ton yük daşınıb. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsindən məlumatına görə, bu, ötən ilin analoji dövrünün göstəricisindən 58,6 faiz çoxdur. Hesabat dövründə hava nəqliyyatı ilə sərnişin daşımaları 63,4 min nəfər təşkil edib ki, bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə 64,8 faiz azdır. Bu sahədə daşımaların 99,9 faizi dövlət, 0,1 faizi isə özəl müəssisələrin payına düşüb.**



Bütövlükdə isə, 2023-cü ilin yanvar-aprel aylarında Azərbaycanda bütün nəqliyyat növləri ilə 71,2 milyon ton yük daşınıb. Bu da əvvəlki ilin analoji dövrünün göstəricisindən 5,9 faiz çoxdur. Hesabat dövründə Azərbaycanda sərnişin daşımaları 578,6 milyon nəfəri ötüb. Bu isə 2022-ci ilin göstəricisindən 19,2 faiz çoxdur. Sərnişinlərin 87,1 faizi avtomobil nəqliyyatı, 12,4 faizi metropoliten, 0,5 faizi isə digər nəqliyyat növləri ilə daşınıb.

***"Xalq qəzeti"***

26 may 2023-cü il, cümə Xalq qəzeti

**Bu günlərdə müsəlman Şərqində ilk parlamentli respublika olmuş Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 105-ci ildönümü tamam olur. Tarixi Azərbaycan torpaqlarının Araz çayından şimaldakı hissəsində milli cümhuriyyət qurulması bu ərazidə 1 əsr əvvəl rus işğalı nəticəsində dövlətçiliyini itirmiş xalqımızın milli taleyində misilsiz hadisə olmuşdu. Bu mövzuda müsahibimiz görkəmli tarixçi alim, AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevdir.**



# Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tarixi ədalətin hökmü idi

***– 23 aylıq mövcudluqdan sonra – bolşevik Rusiyasının AXC-ni süquta uğratmasından sonrakı kommunist epoxasında bu şanlı tarix tamamilə unutdurulmuş, milli hökumətin mövcudluğuna şahidlik edən fakt və sənədlər gizlədilmiş və məhv edilmişdi. Sovet imperiyası çökdükdən, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra milli tarix elmimiz, ilk növbədə, Xalq Cümhuriyyəti ilə bağlı gerçəkləri ümumxalq yaddaşına qaytardı.***

– Tarixin pozulmaz qanunu var: zorla yaradılan və zülmə əsaslanan hər şey gec-tez çökür, yox olub gedir. Kommunistlər əsarət altına saldıqları insanları və xalqları 70 il öz hakimiyyətlərinin əbədi olmasına inadırmağa çalışmış, buna keçmişi, tarixi həqiqətləri unutdurmaq yolu ilə gerçəkləşdirmək istəmişdilər. 1920-ci ilin 28 aprelində bolşevik Rusiyası Azərbaycanı işğal etdikdən sonra AXC liderlərinə divan tutmuş, milli hökumətin tarixinin üstünə qara pərdə çəkmişdilər.

Çağdaş Azərbaycan tarixşünaslığı bu ədalətsizliyi mükün olduğu qədər aradan qaldırmış, AXC-nin şanlı, öyünclü tarixini xalqımıza qaytarmışdır. AMEA Naxçıvan bölməsində də xalqımızın dövlətçilik tarixi, istiqlal mübarizəsi və AXC-nin fəaliyyətinin müxtəlif istiqamətləri və mövzuları üzrə silsilə araşdırmalar arparılmış, dəyərli əsərlər yaradılmışdır. Məqsədimiz zədələnmiş, pozulmuz milli yaddaşı bərpa etməyə elmi yardımçı olmaqdır.

Tarixi həqiqət budur ki, 105 il əvvəl xalqımız Rusiya imperiyasının işğalından yaxa qurtararaq, nəhayət, öz müstəqil dövlətinə sahib olmuş, qədim dövlətçilik ənənələrini bərpa edərək, sivil dövlət təsisatlarının formalaşdırılmasına, hakimiyyətin hər üç qolunun–qanunverici, icraedici və məhkəmə hakimiyyətinin yaradılmasına nail olmuşdu. 1918-ci il mayın 28-də müsəlman Şərqində ilk dəfə olaraq dünyəvi, parlamentli müstəqil demokratik respublika yaranmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti türk və islam dünyasında dünyəvi təməl üzərində qurulan ilk türk dövləti idi. Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan ərazisində yaranması xalqımızın XIX əsrin sonu və XX əsrin əvvəllərində milli müstəqillik və azadlıq duyğularından qaynaqlanan milli oyanışı ilə bağlıdır.

**– Zülm və əsarət imperiyası olmuş çar Rusiyasının yıxılması tarixi ədalət sayılsa da, onun yerində zorakılıqla yaradılmış bir səltənət qurulsa da, tarix Azərbaycan xalqına qısa müddətdə nicat şansı da vermişdi.**

– Çar Rusiyasının yuıxılması imperiya xalqlarının arzu və mübarizəsinin nəticəsi olsa da, bolşeviklər çevriliş yolu ilə hakimiyyətə gəlib həmin ərazidə daha qəddar bir səltənət qurmuşdular. Onlar bu məqsədlərinə çatana qədər Qafqazda 3 cümhuriyyət meydana gəlmişdi. 1917-ci ilin ilin oktyabrında bolşevik-sovet hökuməti Müəssislər Məclisini qovduqdan sonra Cənubi Qafqazdan seçilən deputatlar Tiflisdə toplanaraq Zaqafqaziya Seymini, aprel ayında isə Zaqafqaziya Federativ Respublikasını yaratmışdılar. Lakin fraksiyalar arasında mübarizə Seymin dağılmasına və respublikanın süqutuna gətirib çıxardı. Respublikanın süqutu və seymdə təmsil olunan xalqların öz müstəqil dövlətlərini yaratması tarixi zərurətə çevrimişdi.

Seymin Azərbaycan nümayəndəliyi mayın 27-də fövqəladə iclas keçirərək Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürdü və özünü Müvəqqəti Milli Şura elan etdi. Məhəmməd Əmin Rəsulzadə Milli Şuranın sədri seçildi. Milli Şuranın 1918-ci il mayın 28-də keçirilən birinci iclasında Azərbaycanın müstəqil respublika elan edilməsi qərara alındı və 6 bənddən ibarət İstiqlaliyyət Bəyannaməsi qəbul edildi.

**– Çar Rusiyası dövründə Qafqazın mərkəzinə çevrilmiş Tiflisdə elan olunmuş müstəqil Azərbaycan dövlətinin ilk addımdan ölkəmizin baş mədəni mərkəzi sayılan Bakıda fəaliyyət göstərməsi ağrılı bir tarixçə olmuşdu.**

– O zaman Bakı erməni-daşnak və rus-bolşevik hərbi-siyasi qüvvələrinin nəzarəti altında idi. Buna görə də liderlərinin əksəriyyətinin bundan əvvəl Bakıda fəaliyyət göstərmiş olduğu milli hökumətin bu şəhərə köçürülməsi mümkün olmamışdı. Azərbaycan Milli Şurası və Milli hökuməti iyun ayının 16-da (1918) Tiflisdən Gəncəyə köçmüşdü və sentyabrın 15-dək burada fəaliyyət göstərmişdi.

İstiqlaliyyət Bəyannaməsinin verildiyi ilk gündə Milli Şuranın tapşırığı ilə Fətəli xan Xoyskinin başçılığı ilə 9 nəfərdən ibarət Cümhuriyyətin ilk hökumət kabineti təşkil edildi. Azərbaycan Milli hökumətinin ilk böyük uğuru 1918-ci il iyunun 4-də Osmanlı dövləti ilə Batum müqaviləsinin bağlanması oldu. Bu müqavilə əsasında Osmanlı imperatorluğu Azərbaycan Xalq Cümhuriyyətini tanıyan ilk dövlət oldu. Batum müqaviləsinin IV maddəsi yeni yaranmış dövlətimiz üçün həyati əhəmiyyətə malik idi.

İyun ayının 17-də Milli Şura səlahiyyətlərini yeni qurulan Müvəqqəti Hökumətə verdi. İkinci hökumət kabinetinin əsas vəzifəsi hakimiyyəti ölkənin bütün ərazisinə yaymaq və Bakı şəhərini düşmənlərdən azad etməkdən ibarət idi. Fətəli xan Xoyskinin başçılıq etdiyi Milli Hökumət bir sıra tədbirlər həyata keçirdi. İyunun 19-da Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi.

1918-ci il 24 iyun tarixli qərarla üzərində ağ aypara və səkkizguşəli ulduz təsvir edilmiş qırmızı bayraq, Cümhuriyyətin Dövlət Bayrağı təsdiq edildi. Noyabr ayının 9-da bayraq mavi, qırmızı və yaşıl zolaqlardan ibarət yeni Dövlət Bayrağı ilə əvəz olundu. İyunun 26-da milli ordu yaradılmağa başlandı. İyul ayının 15-də Fövqəladə Təhqiqat Komissiyası yaradıldı. Hökumətin 1918-ci il 11 avqust tarixi fərmanı ilə "Ümumi hərbi səfərbərlik" haqqında qanun qəbul edildi. 19 yaşından 24 yaşınadək müsəlman gənclər ordu sıralarına çağırıldı. Sentyabrın 1-də hərbi nazirlik yaradıldı. Baş nazir F.Xoyski eyni zamanda hərbi nazir oldu. General Səməd ağa Mehmandarov isə nazir müavini təyin edildi.

**– Bu arada AXC-yə düşmən kəsilmiş daşnakxislət bolşevik Şaumyanın rəhbərlik etdiyi oyuncaq Bakı Xalq Komissarları Soveti Gəncə üzərinə qoşun yeritdi.**

– Onlar dəstəyi Rusiya bolşeviklərindən almışdılar. Tapşırıq bu idi ki, AXC Bakıya buraxılmasın, beşiyindəcə məhv edilsin. İyunun 27-dən iyulun 1-dək Göyçay yaxınlığında baş vermiş döyüşdə Bakı XKS-nin qoşunları darmadağın edildi. Bu məğlubiyyət Bakı XKS-nin süqutunu sürətləndirdi.

1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusu və Azərbaycan könüllü hərbi dəstəsi Bakını düşməndən azad etdi. Sentyabrın 17-də Azərbaycan hökuməti tam heyətdə Bakıya köçdü. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti əsl paytaxtda qərarlaşdı. 1918-ci il noyabrın 16-da fəaliyyətini bərpa edən Milli Şura noyabrın 19-da Azərbaycan Parlamentinin yaradılması haqqında qanun qəbul etdi.

Azərbaycan Parlamentinin ilk iclası 1918-ci il dekabrın 7-də keçirildi. Hüquqşünas və tanınmış siyasi xadim, Rusiya türk-müsəlmanılarının lideri Əlimərdan bəy Topçubaşov Azərbaycan Parlamentinin sədri, Həsən bəy Ağayev isə onun müavini seçildi. İlk Azərbaycan Parlamenti öz dövrünün demokratik əsaslarda təşkil edilmiş ali qanunverici orqanı idi. Azərbaycan Parlamenti öz fəaliyyəti dövründə həyata keçirdiyi müstəqil dövlət quruculuğu təcrübəsi ilə, qəbul etdiyi yüksək səviyyəli qanunvericilik aktları və qərarlar ilə Azərbaycan dövlətçiliyi tarixində, xüsusən də parlament mədəniyyəti tarixində dərin və zəngin iz qoymuşdur.

İngilislər özlərinin nəzarəti altında olan sahələri milli hökumətin ixtiyarına verdi. 1919-cu ilin aprelində Bakıda ingilis general-qubernatorluğu ləğv edildi. Onlar avqustun axırlarınadək Azərbaycan ərazisini bütünlüklə tərk etdilər. Azərbaycan Xalq Cümhuriyyətinin IV və V hökumət kabinetinə (14 mart 1919–1 aprel 1920) "Müsavat partiyasının liderlərindən biri Nəsib bəy Yusifbəyli başçılıq etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti çox çətin və mürəkkəb bir şəraitdə fəaliyyət göstərmişdir Azərbaycanın ümumi ərazisi 113,9 min kv. km-ə çatırdı ki, burada 3,3 milyon nəfərə yaxın əhali yaşayırdı. Mübahisəsiz ərazisinin sahəsi 97,3 min kvadratkilometr, qonşu Gürcüstan və Ermənistanla mübahisəli sayılan ərazisi isə 16,6 min kvadratkilometr idi.

**– Qərbi Azərbaycanda elan edilmiş Ermənistan dövləti öz xalqının taleyinə sahib çıxmaq əvəzinə, qonşuluğa xəyanət edərək müstəqil Azərbaycanla düşmənçiliyə başladı. "Böyük Ermənistan" arzusu ilə yaşayan ermənilər Azərbaycanın qədim torpaqları olan Zəngəzur, Qarabağ və Naxçıvanı təcavüz hədəfinə çevirdi.**

– Cümhuriyyət hökuməti Qarabağı erməni təcavüzündən qorumaq və bu bölgədə qayda-qanun yaratmaq üçün 1919-cu il yanvarın 15-də Qarabağ general qubernatorluğunu yaratdı. Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzaları general qubernatorluğun tərkibinə daxil edildi. Xosrov bəy Sultanov general-qubernator təyin edildi. X. Sultanovun qətiyyətli tədbirləri nəticəsində Andronikin və digər daşnak qüvvələrinin Qarabağa quldur basqınlarına son qoyuldu və separatçı qüvvələr buradan çıxarıldı. Qarabağda və onun dağlıq hissəsində Azərbaycanın suveren hüquqları təmin olundu.

Ermənistan Respublikası yaranan kimi ermənilər onlara yaxınlıqda yerləşən Naxçıvan torpaqlarına təcavüzə başladılar. Milli vətənpərvər qüvvələr Naxçıvan bölgəsini erməni təcavüzündən qorumaq üçün 1918-ci ilin noyabrın 18-də Araz–Türk Respublikasını yaratdılar. Araz-Türk Respublikası Naxçıvanın daşnak hücumlarından qorunmasında mühüm rol oynadı və Azərbaycanla birləşmək üçün yollar axtarırdı. Azərbaycan Xalq Cümhuriyyəti Naxçıvanı qorumaq üçün imkanı daxilində köməklik edir, danışıqlar aparırdı. Beləliklə, erməni daşnaklarının Naxçıvan torpağını zorla Azərbaycandan ayırmaq cəhdləri boşa çıxır.

Azərbaycan Xalq Cümhuriyyəti son dərəcə mürəkkəb daxili və beynəlxalq şəraitlə üzləşsə də ölkənin sosial-iqtisadi həyatı, milli-mədəni quruculuq sahələri ilə bağlı çoxsaylı işlər həyata keçirmişdi. İlk tədbirlər sırasında gömrük xidməti yaradılmış, azad ticarətə şərait yaratmış, neft sənayesini dirçəltmək üçün əks-milləşdirmə tədbirlərinə əl atılmış, xarici şirkətlərlə sazişlər bağlanmış, maliyyə siyasəti həyata keçirilmişdi. AXC hökuməti "Bakı bonu" adlandırılan milli pul vahidini dövriyyəyə buraxmış, sosial siyasətlə bağlı proqram hazırlayıb tətbiq etmiş və digər zəruri tədbirləi gerçəkləşdirmişdi.

Eyni ilə bu dəyişikliklər mədəni-quruculuq sahəsində də uğurla yerinə yetirildi. Təhsil müəssisələri milliləşdirildi, Azərbaycan dili məktəblərdə məcburi fənn kimi tətbiq edildi, bir sıra yer adları dəyişdirildi, "Rusiya tarixi" əvəzinə "Türk xalqlarının tarixi" fənni tədris edilməyə başlandı, Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü. Bakı Dövlət Universiteti yaradıldı, ali təhsilli milli kadrların hazırlanmasına başlanıldı, 100 nəfər azərbaycanlı gənc xarici ölkələrdə təhsil almaq üçün göndərildi. Milli kitabxana açıldı, Azərbaycan Teleqraf Agentliyi, Azərbaycan radiosu, Azərbaycan Dövlət Türk Opera Dram Teatrı yaradıldı və s. AXC-nin tanıdılması üçün fəal siyasi-diplomatik iş aparıldı.

Bütün bunlara baxmayaraq., 23 aydan sonra erməni daşnaklarının vasitəçiliyi, Sovet Rusiyasının hərbi müdaxiləsi nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti işğal olundu.

Tarixi ədalət yenidən zorakılıqla pozuldu. Azərbaycan Parlamenti aprel ayının 27-də rus ordusunun təzyiqləri altında hakimiyyətin Azərbaycan müsəlman kommunistlərinə təhvil verilməsi haqqında qərar qəbul etməyə məcbur edildi. Azərbaycan Xalq Cümhuriyyəti uğursuz sonluğa baxmayaraq, xalqımızın tarixində mühüm rol oynadı. Cümhuriyyətin yaranması ilə Azərbaycan XIX əsrin əvvəllərində itirdiyi dövlətçiliyi yenidən bərpa etdi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranışı bütün Müsəlman Türk Dünyası üçün çox əlamətdar hadisə idi. Azərbaycan xalqının milli azadlıq hərəkatı nəticəsində yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyəti xalqımızın tarixində və taleyində dönüş məqamı idi. Cümhuriyyətin zorakı yolla süqutu isə xalqımızın zorla xoşbəxtliyə qovuşdurulması kimi qələmə verildi.

Nəhayət, 70 ildən sonra – 1991-ci il oktyabrın 18-də Azərbaycan yenidən öz dövlət müstəqilliyini bərpa etdi. Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu ümumxalq iradəsi ilə təsdiqləndi.

**– Maraqlı müsahibə üçün təşəkkür edirik.**

***Söhbəti hazırladı:***
***Tahir AYDINOĞLU, "Xalq qəzeti"***

# İsrail–Azərbaycan münasibətləri qarşılıqlı hörmət və etimad üzərində qurulub

**İsrail Dövləti ilə Azərbaycan Respublikası arasında münasibətlər qarşılıqlı hörmət və etimad üzərində qurulub.**




Bunu Azərbaycanın İsraildəki səfirliyi tərəfindən Müstəqillik Günü münasibətilə bu ölkədə təşkil olunan rəsmi tədbirdə İsrail Hökuməti adından çıxış edən kəşfiyyat naziri Gila Qamliel deyib.

O, yeni fəaliyyətə başlayan Azərbaycan səfirliyi tərəfindən təşkil edilmiş ilk Müstəqillik Günü tədbirində iştirakından şərəf duyduğunu ifadə edib.

İsrailli nazir cari ilin mart ayında Prezident İlham Əliyev ilə baş tutmuş görüşünü məmnunluqla xatırlayaraq hər iki ölkənin regionda və dünyada sülhün, stabilliyin təmini üçün birlikdə çalışdıqlarını ifadə edib. G.Qamliel iki ölkə arasındakı münasibətlərin inkişafında Azərbaycanda yaşayan yəhudi icmasının xüsusi rolu olduğunu vurğulayıb.

# Əbu-Dabidə Azərbaycanın Müstəqillik Günü



**Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) paytaxtı Əbu-Dabi şəhərindəki "Rixos Marine" otelində 28 May – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə tədbir keçirilib.**

Azərbaycanın BƏƏ-dəki səfirliyi və Dubaydakı baş konsulluğunun birgə təşkilatçılığı ilə keçirilən tədbirdə çıxış edən ölkəmizin Əbu-Dabidəki səfiri Elçin Bağırov BƏƏ-nin dövlət naziri Xəlifə Şahin Əl Mərarı, Bakıdan dəvət olunmuş qonaqları, müxtəlif ölkələrin diplomatik korpuslarının rəhbərlərini və nümayəndələrini, yerli ictimaiyyətin və Azərbaycan diasporunun təmsilçilərini salamlayıb.

Səfir çıxışında müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən bəhs edib. O vurğulayıb ki, SSRİ-nin süqutundan sonra yenidən dövlət müstəqilliyini əldə edən ölkəmiz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrik siyasəti sayəsində öz suverenliyini qoruyub saxlayıb, dünya birliyinin ən sürətlə inkişaf edən və beynəlxalq nüfuza malik olan üzvünə çevrilib.

Tədbirin sonunda azərbaycanlı incəsənət ustaları konsert proqramı ilə çıxış edib, qonaqlara milli mətbəximizin təamlarından ibarət süfrə açılıb.



# Azərbaycanın Müstəqillik Günü Argentinada qeyd edildi

**Argentinadakı səfirliyimiz tərəfindən Azərbaycanın Müstəqillik Gününün və iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü münasibətilə paytaxt Buenos-Ayres şəhərində rəsmi qəbul keçirilib.**

Tədbirdə səfir Rəmzi Teymurov Azərbaycan Xalq Cümhuriyyətinin keçdiyi müstəqillik yolundan danışıb, o dövrdə demokratik hüquq və azadlıqların bərqərar olunması, etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqların tanınması, bir çox Avropa ölkələrindən əvvəl qadınlara səsvermə hüququnun verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi barədə məlumat verib.

Argentina xarici işlər nazirinin xarici siyasət məsələləri üzrə alt katibi, səfir Klaudio Xavier Rozentsvaiq təmsil etdiyi hökumət adından ölkəmizin Müstəqillik Günü münasibətilə Azərbaycan Hökumətinə və xalqına təbriklərini çatdırıb.

**Avropa və Asiya qitələrinin qovuşduğu əlverişli coğrafi məkanda yerləşən Türkiyə dünyanın siyasi, iqtisadi və mədəni mərkəzlərindən biri sayılır. Son 20 ildə qardaş ölkə böyük inkişaf və tərəqqi yolu keçib. Rəsmi Ankaranın qlobal səviyyədə gücü və nüfuzu çox artıb. Bu gün Türkiyənin mövqeyi ilə dünyanın ən böyük gücləri belə hesablaşır.**




# Türkiyədə seçkilər: 28 maya 2 gün qalır

İyirmi-otuz il əvvəl isə belə deyildi. Hər halda Türkiyə siyasi və hərbi cəhətdən indiki qədər qüdrətli deyildi. Mayın 14-də bu ölkədə keçirilən ümumi seçkilər onun nüfuzunun daha da yüksəlməsinə səbəb oldu. Qərb, eləcə də bütün dünya gördü ki, Türkiyə yüksək seçki mədəniyyətinə malik olan sivil, demokratik bir dövlətdir.

14 may seçkilərində parlamentin yeni tərkibi seçilsə də, dövlətin ali postunun gələcək sahibinin adını müəyyən etmək mümkün olmayıb. Çünki prezidentliyə iddiaçı dörd namizəddən heç biri mövcud qanunvericilikdə nəzərdə tutulduğu kimi, "50 plyus bir səs" toplaya bilməyib.

Türkiyədə prezident seçkilərinin mayın 28-nə təyin olunmuş ikinci turunda hansı siyasi blokun liderinin qalib gəlməsindən çox şey asılıdır. Ona görə ki, bir-biri ilə kəskin rəqabət aparan "Cümhur İttifaqı" ilə "Millət İttifaqı"nın ölkənin gələcək inkişafı ilə bağlı proqramlarında ciddi fərqlər var. Belə ki, Rəcəb Tayyib Ərdoğanın lideri olduğu birinci blok Türkiyəni daha çox müstəqil siyasət həyata keçirən qüdrətli dövlət olaraq görmək istəyirsə, ana müxalifətin rəhbəri Kamal Kılıçdaroğlunun başçılıq etdiyi ikinci blok ölkənin gələcəyini daha çox Qərb institutları birgə sıx əməkdaşlıqda təsəvvür edir.

Seçkilərin nəticələri həm Türkiyənin özündə, həm də onun yaxın-uzaq çevrəsində ictimai-siyasi proseslərin istiqamətini dəyişə bilər. Türkiyənin taleyini düşünən, buna məsul olan insanlar bunun fərqindədir və onlar hadisələrin dövlətin milli maraqlarına uyğun inkişafını təmin etməyə çalışırlar.

Türkiyə dövlətinin başçısı R.T.Ərdoğan dünən Sivas şəhərinə gələrək buradakı Cümhuriyyət Meydanında yüz mindən çox tərəfdarı qarşısında çıxış edib. AKP lideri seçicilərə müraciət edərək deyib ki, o, bu vaxta qədər Sivasda belə coşqu dolu, möhtəşəm tədbirin şahidi olmayıb. Prezident həmçinin əmin olduğunu bildirib ki, sivaslılar bazar günü də "sandıq başına" keçərək eyni həvəs və şövqlə səs verəcəklər.

Qeyd edək ki, 14 may seçkilərində Sivasdan seçilən beş millət vəkilindən dördü məhz "Cümhur İttifaqı"nın namizədləridir. Sivaslılar prezidentliyə namizədlər arasında da R.T.Ərdoğana daha çox "oy" (səs-müəllif) veriblər. AKP lideri şəxsinə göstərilən bu diqqət və qayğıya görə Sivas sakinlərinə dərin təşəkkürünü bildirib, eyni zamanda qeyd edib ki, bazar günü seçkilərdə fəal iştirak etmək çox önəmlidir.

R.T.Ərdoğan Sivasdakı nitqində vurğulayıb ki, o, aprelin 26-da Ankara–Sivas yüksək sürətli dəmir yolu xəttinin açılış mərasimində şəxsən iştirak etməyi planlaşdırsa da, həmin ərəfədə sağlığı durumunda yaşanan problemlər səbəbindən tədbirə qatıla bilməyib. Dövlət başçısının təbriklərini sivaslılara həmin gün vitse-prezident Fuat Oktay çatdırıb.

Dövlət başçısı çıxışında əhaliyə xoş bir müjdə də verib. Belə ki, hökumətin qərarı ilə Ankara-Sivas yüksək sürət qatarı bir ay müddətində sərnişinlərə ödənişsiz xidmət göstərəcək. Yeri gəlmişkən, bundan sonra sivaslılar yüksək sürət qatarı ilə Ankaraya 2 saata, İstanbula isə 6 saata çata biləcəklər.

Qeyd edək ki, ümumi uzunluğu 405 kilometr olan Ankara–Sivas dəmir yolu Yerkoy stansiyasından Kayseriyə qədər uzadılacaq. Ayrıca bir xətt isə Ərzincana, Ərzuruma və Qarsa qədər inşa ediləcək. Sonda isə adıçəkilən dəmir yollu xətləri Bakı–Tbilisi dəmir yolu xəttinə birləşdiriləcək.

Bir sözlə, yaxın gələcəkdə Londondan çıxan sərnişin dəmir yolu ilə Türkiyə üzərindən Pekinə qədər gedə biləcək. R.T.Ərdoğan vurğulayıb ki, Dəmir İpək Yolu adlandırılan bu xətt bölgəyə rifah və sabitlik gətirəcək.

Dövlət başçısı CHP lideri Kamal Kılıçdaroğlunun Azərbaycanı bu marşrutdan kənarda qoymaq niyyətini kəskin tənqid edib. Bildirib ki, Qarabağı, Zəngəzur dəhlizini "unudan" müxalifətçi siyasətçidən fərqli olaraq, iqtidar Azərbaycanla bağlı öz qardaşlıq missiyasını bundan sonra uğurla davam etdirəcək.

Sivasdakı çıxışı zamanı R.T.Ərdoğan seçkilərin ilk turunda prezidentliyə namizəd olmuş Sinan Oğana 28 mayda AKP liderini dəstəkləməklə bağlı qərarına görə bir daha təşəkkür edib. Qeyd edib ki, sayın S.Oğan iqtidarın terrorizmlə mübarizə, türk dünyasının gücləndirmək istiqamətlərində, eləcə də əhalinin rifahının yüksəlməsi naminə gördüyü uğurlu işləri yaxşı bilir.

Qarşıdakı bazar günü keçiriləcək prezident seçkilərinin ölkənin tarixi inkişaf və tərəqqisində "yeni qapılar açacağı" bildirən R.T.Ərdoğan böyük əminliklə Türkiyənin bundan sonra da möhtəşəm zəfərlərə doğru uğurla yol gedəcəyini vurğulayıb.

Sonra isə "Türkiyə Əsri"nin həyata keçirilməsi naminə yorulmadan çalışacağını vəd edən dövlət başçısı "millətimiz bizə daha beş il də yönətimə icazə versə, çox işlər görəcəyik" deyib. Qarşıya qoyulan yüksək vəzifələr, seçki proqramı bəndbənd izah və şərh olunub. Beləliklə, Türkiyədə təhsildən sağlamlığa, nəqliyyatdan enerjiyə, sənayedən aqrar sektora, turizmdən idmana qədər hər sahədə önəmli addımlar atılacaq.

Bu arada sosial şəbəkələrdə İraqın şimalındakı Kəndil dağlarında gizlənən PKK quldur dəstələrinin başçısı CHP lideri Kamal Kılıçdaroğlunun namizədliyini dəstəkləmək üçün tərəfdarlarına göstəriş verdiyinə əks etdirən sensasiyalı video yayılıb. K.Kılıçdaroğlu, öz növbəsində, bunun həqiqətə uyğun olmadığı ilə bağlı bəyanatla çıxış edib.

Bu günlər ərzində CHP lideri də seçicilərlə vaxtaşırı görüşlər keçirir, onları mayın 28-də fəallıq nümayiş etdirməyə çağırır. Yeri gəlmişkən, "altılı masa"nın üzvləri birinci mərhələdə olduğu kimi, ikinci turda da K.Kılıçdaroğlunu dəslədiklərini bəyan ediblər.

ATA İttifaqının tərkibində olan Zəfər Partiyasının rəhbəri Ümid Özdağ seçkilərin ikinci turunda K.Kılıçdaroğlunu dəstəkləyəcəyini bildirib. Bir sözlə, bu gün Türkiyədə siyasi qüvvələr nisbəti, kimin kimin yanında olduğu artıq bəllidir. Lakin seçkilərdə son və həlledici sözü, əlbəttə, seçicilər deyəcəklər.

Bəli, Türkiyə tarixinin ən möhtəşəm və taleyüklü seçimlərindən bizi cəmi iki gün ayırır. Əminik ki, müdrik türk xalqı mayın 14-də olduğu kimi, iki gündən sonra, mayın 28-də də bir daha yüksək seçici fəallığı nümayiş etdirərək ölkəyə layiqli namizədə səs verəcək. Xeyirlisi olsun, əziz və doğma Türkiyəm!

**Məsaim ABDULLAYEV,**
**"Xalq qəzeti"**

# KTMT: Şoyqunun qeydi, İrəvanın "üzrxahlıq" jesti

**Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv ölkələrin müdafiə nazirlərinin Minsk toplantısında əsas mövzu koalisiya əməkdaşlığı məsələləri olub. Bu barədə məlumat verən KTMT-nin mətbuat katibi Vladimir Zaynetdinov onu da bildirib ki, toplantı iştirakçıları KTMT-yə üzv ölkələrin kollektiv təhlükəsizlik regionlarında hərbi təhlükəsizliyə çağırışları və təhdidləri, eləcə də böhrana cavab sisteminin daha da təkmilləşdirilməsi inkanları ilə bağlı məsələləri müzakirə ediblər.**



V.Zaynetdinovun sözlərinə görə, KTMT-nin Minsk toplantısında kollektiv təhlükəsizlik sisteminin silahlı qüvvələr və vasitələrinin komandanlıq-nəzarət orqanlarının, birləşmələrinin birgə hazırlığı, hərbi-texniki əməkdaşlıq, digər məsələlərlə bağlı sənədlər nəzərdən keçirilib.

Məlumatda o da qeyd olunur ki, Belarusun müdafiə naziri Viktor Xreninin sədrliyi ilə keçən iclasda KTMT-nin baş katibi İmanqali Tasmaqambetov və koalisiyanın Birləşmiş Qərargah rəisi Anatoli Sidorov iştirak ediblər. Koalisiyaya üzv ölkələrin müdafiə nazirləri Şurasının Minsk toplantısında Ermənistanı təşkilatın Birləşmiş Qərargahındakı nümayəndəsi Artak Tonoyan təmsil edib.

Minskdə KTMT-yə üzv ölkələrin müdafiə nazirləri Şurasının iclasında çıxış edən Rusiyanın müdafiə naziri Sergey Şoyqu Ermənistan tərəfinin KTMT çərçivəsində keçirilən operativ və hərbi hazırlıq üzrə tədbirlərdə iştirakının vacibliyini bildirib.

"Ermənistan təşkilatımızın üzvüdür, bizim müttəfiqimizdir. Biz öz tərəfimizdən Cənubi Qafqazda sülhün və sabitliyin bərqərar olmasında maraqlıyıq və bundan ötrü mümkün olan hər şeyi edirik. Bu zaman Ermənistanın KTMT çərçivəsində birgə operativ və hərbi hazırlıq üzrə tədbirlərində iştirakının vacibliyini xüsusi qeyd etmək istərdim", – deyə Şoyqu vurğulayıb. Çıxışında Cənubi Qafqazdakı mövcud vəziyyətə, Ermənistan–Azərbaycan münasibətlərinin nizamlanması prosesinə toxunan S.Şoyqu hazırda bölgədə təhlükəsizliyin Rusiya sülhməramlıları tərəfindən təmin edildiyini, həmçinin Qərbin durumа müdaxilə və regionda iştirakını artırmaq cəhdlərinə də toxunub: "Qərbin məqsədi bölgədə sülhə və uzunmüddətli sabitliyə nail olmaq deyil, Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxartmaqdır".

Yeri gəlmişkən, məlumata bir zəruri əlavəni etməyi lazım bilirik. Bir müddət bundan əvvəl rəsmi İrəvan KTMT-nin hərbi təlimlərində iştirakdan imtina edəcəyi, hətta bu qurumdan çıxacağı barədə açıqlama yaymışdı. Bununla bağlı Rusiya Dövlət Dumasının beynəlxalq məsələlər komitəsi sədrinin müavini Dmitri Novikov Ermənistan rəhbərliyinin diqqətinə "bəzi incə məqamları", konkret fakt və sübutları çatdırmışdı. O, hərbi koalisiyadan çıxmağın Ermənistanın maraqlarına heç də cavab verməyini bildirmiş, Paşinyan hökumətinə belə bir qərarı qəbul etməzdən öncə ölkəsinin mənafeyi barədə ciddi düşünməyi tövsiyə etmişdi.

Düzdür, açıqlamasında Moskvanın Ermənistana edə biləcəyi təzyiqləri barədə bir söz deməsə də, D.Novikovun yuxarıdakı sözlərini Kremlin Nikol Paşinyana ciddi ismarıc-xəbərdarlığı kimi dəyərləndirmək lazımdır. Aydın məsələdir ki, Dumanın komitə sədrinin müavini KTMT üzvlüyündən çıxmağın Ermənistan dövlətinin maraqlarına cavab vermədiyini söyləməklə, həm də bunun müqabilində Rusiyanın İrəvana qarşı atacağı adekvat addımlarını nəzərdə tuturdu. Yəqin KTMT-nın Minsk toplantısında iştirak etməklə Ermənitan iqtidarı buraxdığı yanlışlığın üstünü örtməyi düşünüb.

**İ.HƏSƏNQALA,**
**"Xalq qəzeti"**

## Florida qubernatoru prezidentliyə namizədliyini elan edib

**Florida ştatının qubernatoru Ron Desantis 2024-cü ilin noyabrında ABŞ-da keçiriləcək prezident seçkilərində namizədliyini irəli sürdüyünü elan edib.**



Siyasətçi bu barədə özünün tvitter hesabında yazıb. "Mən Amerikanın böyük qayıdışına başçılıq etmək üçün seçkilərdə iştirak edirəm", – deyə o, bildirib.

ABŞ federal seçki komissiyasının saytında yerləşdirilən məlumata görə, Ron Desantis mayın 24-də prezident seçkilərində iştirak etmək üçün sənədlərini verib.

Respublikaçılar partiyasını təmsil edən 44 yaşlı qubernator namizədlik uğrunda Birləşmiş Ştatların sabiq dövlət başçısı Donald Trampla mübarizə aparacaq. Ekspertlərin fikrincə, Ron Desantis respublikaçılar arasında sabiq prezidentin əsas rəqibidir.

NBC telekompaniyasının keçirdiyi sorğunun nəticələrinə görə, respublikaçı seçicilərin 31 faizi praymerizdə Ron Desantisi, 46 faizi isə Donald Trampı dəstəkləməyə hazırdır.

## Kabildən Urumçiyə müntəzəm aviareyslər bərpa edilib

**Əfqanıstanın milli aviadaşıyıcısı "Ariana Əfqan Hava Yolları" şirkəti mayın 24-dən etibarən paytaxt Kabil ilə Çinin Sincan Uyğur Muxtar Rayonunun paytaxtı Urumçi şəhəri arasında müntəzəm sərnişin təyyarəsi uçuşlarını bərpa edib.**



"Euronews" agentliyi xəbər verir ki, sözügedən istiqamətdə müntəzəm uçuşlar COVID-19 böhranı səbəbindən, təxminən, üç il idi dayanmışdı. Uçuşlar həftədə bir dəfə reallaşacaq. "Ariana Əfqan Hava Yolları" iki ölkə arasında birbaşa uçuşları yerinə yetirən yeganə şirkətdir.

Əfqanıstanın nəqliyyat və aviasiya nazirinin müavini Qulam Cilani Vəfa bildirib ki, iki ölkə arasında birbaşa uçuşların bərpası iqtisadi-ticari əlaqələrin inkişafına müsbət təsir göstərəcək.

**"Xalq qəzeti"**

# Borc limiti ilə bağlı razılaşma olmasa...

## Dərin iqtisadi tənəzzüldən xilas yolu varmı?

**Məşhur iqtisadçı Nuriel Roubini 2008-ci il maliyyə böhranını xatırladaraq, ABŞ-da borc limiti ilə bağlı danışıqlarda razılaşmanın əldə olunmayacağı təqdirdə dünya bazarlarında çökmə baş verəcəyini bildirib. Roubini bu vəziyyətin uzunmüddətli perspektivdə dollara olan inamı da zədələyəcəyini vurğulayıb.**



Dohada keçirilən Qətər İqtisadi Forumunda "Bloomberg"ə müsahibəsində Roubini bu məsələdə ümidini hələ də itirmədiyini, son anda razılaşmanın əldə ediləbiləcəyini deyib. O, əks təqdirdə dünya iqtisadiyyatında dərin tənəzzülün yaşanacağını söyləyib. Nuriel Roubini daha sonra ABŞ-da borc limiti ilə yanaşı, Ukraynadan İrana qədər geosiyasi gərginliyin və ABŞ ilə Çin arasında artan ziddiyyətin də qlobal iqtisadiyyat üçün böyük təhlükələrdən xəbər verdiyini, sonuncu adları çəkilən ölkələr arasında soyuq müharibənin daha da soyuyacağını vurğulayıb.

Məşhur iqtisadçı müsahibəsinin sonunda cari ilin mart ayında Birləşmiş Ştatlarda bir sıra bankların iflasından sonra bəzi regional maliyyə qurumlarının kredit böhranı yaşadığını, Avropa Mərkəzi Bankının faiz artırması prosesinin hələ bitmədiyini də xatırladıb.

Yeri gəlmişkən, ABŞ-ın borc tavanı ilə bağlı çıxılmaz vəziyyətin həllində irəliləyişin olmaması neft qiymətlərinə də öz təsirini göstərib. Belə ki, Səudiyyə Ərəbistanının energetika naziri şahzadə Əbdüləziz bin Salman, "OPEC+" alyansının ilin ikinci yarısı üçün hasilat siyasətini nəzərdən keçirəcəyi iclasından bir həftə əvvəl spekulyatorlara (möhtəkirlərə) "diqqətli olmaları" bildirib. Bu xəbərdarlıq isə düşən neft qiymətlərinin kompensasiya edilməsini şərtləndirib.

Sinqapurda yerləşən "Saxo Capital Markets" şirkətinin strateqi vəziyyəti şərh edərək bildirib ki, "OPEC"in qiymətləri dəstəkləmək üçün neft bazarına müdaxilə etməkdən başqa yolu qalmır.

Yeri gəlmişkən, Çinin ləng iqtisadi bərpası, FED-in faiz dərəcələrini artırması və borc tavanı ilə bağlı son razılaşmanın olmaması proqnozlara mənfi təsir göstərdiyi üçün neft hələ də bir ərzində aşağıdır. Sanksiyalara baxmayaraq, Rusiyanın neft ixracı da güclü olaraq qalır.

Onu da qeyd edək ki, Qətərin energetika məsələləri üzrə dövlət naziri Saad bin Şəridə əl-Kabi "Avropa daha pis neft və qaz təchizatı çatışmazlığı ilə üzləşə bilər",– deyərək Avropanın daha dərin enerji çatışmazlığı böhranı ilə üzləşə biləcəyi barədə xəbərdarlıq edib. Qətərli nazir daha sonra bəyan edib ki, bu il olduğu kimi, isti olmayan normal qış fərziyyəsi ilə qlobal iqtisadiyyatın bərpası və ənənəvi enerji mənbələrinə tələbatın artması "Avropanın tədarük çatışmazlığı böhranına daxil ola bilər".

Beləliklə, dünyanın aparıcı xam neft istehsalçıları tərəfindən Qərbin bərpaolunan enerjiyə keçidlə bağlı atdığı addımlarla yanaşı, ənənəvi enerji sənayesi, neft və qaza investisiyaların zəifləməsinin nəticələri barədə də narahatlıqlar söylənilir.

Bu arada Neft İxrac Edən Ölkələr Təşkilatının ("OPEC") baş katibi Heysem el-Gays iki mindən çox insanın iştirakı ilə Qətərin paytaxtı Dohada təşkil olunan "Qətər İqtisadi Forumu"nda neft-qaz sektoruna qlobal investisiya həcminin azalmasının tədarük çatışmazlığına səbəb olacağı ilə bağlı fikirlərini də bölüşüb.

Gays vurğulayıb ki, enerji keçidi tədricən olmalıdır. O, eyni zamanda, "OPEC"in hesablamalara görə, neft sənayesinin qarşıdakı illərdə tələbatının ödənilməsi üçün üçün 12,1 trilyon dollar investisiyaya ehtiyacı olduğunu diqqətə çatdırıb.

**V.BAYRAMOV,**
**"Xalq qəzeti"**

Təqvim yada salır

# Geriyə baxıb, irəlini görən ədib – İlyas Əfəndiyev

**XX əsr ədəbiyyatımızın ünlü klassiki, milli nəsrimizin, dramaturgiyamızın, səhnəmizin, ədəbi-bədii və ictimai fikrimizin inkişafında əvəzsiz xidmətləri olan İlyas Məhəmməd oğlu Əfəndiyev sənət kəhkəşanının sönməz ulduzlarından biridir. Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı, “Şöhrət” ordenli Xalq yazıçısı bir-birindən gözəl əsərləri ilə neçə-neçə oxucu nəslinin mənəvi dünyasını zənginləşdirmiş, milli teatr tariximizdə “İlyas Əfəndiyev mərhələsi” yaratmışdır. 60-cı illərdə səhnəyə gələn gənclərin püxtələşməsində onun zəngin dramaturgiyasının böyük rolu olmuşdur.**





...Vaxtilə ulu öndər Heydər Əliyev görkəmli nasir və dramaturq İlyas Əfəndiyevin yaradıcılığına yüksək qiymət verərək demişdir: “İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr veribdir, böyük xidmətlər göstəribdir, çox dəyərli əsərlər yaradıbdır. İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı, bir də ona görə əhəmiyyətlidir ki, o, öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünkü nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir. Beləliklə, xalqımızı həm tarixə hörmət bəsləməyə sövq etmişdir və bu barədə xidmətlər göstərmişdir, tarixi bilmək üçün xalqımıza yardım etmişdir, eyni zamanda, yaşadığımız zamanda mənəviyyat, əxlaq, insanlıq, Vətənə və millətə sədaqət ruhunu aşılamışdır”.

...1914-cü il mayın 26-da Füzuli şəhərində dünyaya göz açmış İlyas Əfəndiyevin ulu babalarının bir qolu tacir nəslinə mənsub, digər qolu isə ruhani təhsili almış savadlı axund və üləmalar, Qarabağda tanınan, kasıblara əl tutan, xeyirxah və alicənab insanlar olublar.

Yazıçının babası Bayram bəy dövlət idarələrində məmur işləmiş, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Şuşada qəza rəisi vəzifəsində çalışmışdır. Ötən əsrin 30-cu illərinin repressiya dalğası Əfəndiyevlər ailəsindən də yan keçməmiş, yazıçının atası Məhəmməd Əfəndiyevə “kulak” damğası vurulmuş, davamlı təqiblərə, təzyiqlərə tab gətirməyən bu nurani insan1934-cü ildə, 50 yaşında dünyasını dəyişmişdir.

İlyas Əfəndiyevin bir gənc kimi formalaşmasında, onda kitaba, ədəbiyyata maraq yaranmasında anası Bilqeyis xanımın əvəzsiz xidmətləri olub. O, ömürgün yoldaşının vəfatından sonra övladına müəllimlik, yoldaşlıq, həm də atalıq edib.

Gələcəyin məşhur yazıçısı hələ uşaq yaşlarından zəhmətə alışıb, mütaliəyə böyük maraq göstərib. 1921-ci ildə 1-ci sinfə gedən İlyas 1930-cu ildə pedaqoji təmayüllü iki dərəcəli orta məktəbi “əla” qiymətlərlə bitirib. O, 1934-cü ildə Azərbaycan Pedaqoji İnstitutunun ədəbiyyat fakültəsinin əyani şöbəsinə daxil olsa da, orada ali təhsil alması çox uzun sürmür, “kulak" balası olduğu üçün institutdan uzaqlaşdırılır. Amma sonra həmin ali təhsil ocağının coğrafiya fakültəsinin qiyabi şöbəsini bitirir. Bakıda “Yeni yol”, “Kommunist” və “Ədəbiyyat qəzeti” redaksiyalarında işləyir. İlk mətbu əsəri olan “Buruqlar arasında” oçerki 1938-ci ilin noyabrında,“Berlində bir gecə” adlı ilk hekayəsi isə 1939-cu ilin yanvarında “Ədəbiyyat qəzeti”nin dərc olunur.

İ.Əfəndiyevin 1939-cu ildə yazıçı Əbülhəsənin xeyirxahlığı ilə nəşr edilmiş “Kənddən məktublar” kitabı müəllifin böyük ədəbiyyata yolunda yaşıl işığa dönüb. İlk hekayələr kitabı onun orijinal fərdi ifadə tərzinin göstəricisi, daha sonra qələmə aldığı “Aydınlıq gecələr” isə ədəbi-estetik görüşlərinin əsası olub, – desək, yanılmarıq. Həmin dövrdə Yazıçılar İttifaqının sədri Rəsul Rzanın xeyir-duası ilə İttifaqa üzv qəbul olunub.

Sonralar çoxşaxəli yaradıcılıq yolu keçən yazıçı “Söyüdlü arx”, “Körpüsalanlar”, “Dağlar arxasında üç dost”, “Sarıköynəklə Valehin nağılı”, “Geriyə baxma, qoca”, “Üçatılan”, digər roman və povestləri ilə oxucuların sevgisini qazanmışdır. “İşıqlı yollar”, “Bahar suları”, “Atayevlər ailəsi”, “Sən həmişə mənimləsən”, “Mənim günahım”, “Unuda bilmirəm”, “Məhv olmuş gündəliklər”, “Qəribə oğlan”, “Mahnı dağlarda qaldı”, “Bağlardan gələn səs” pyesləri teatr repertuarlarının bəzəyi olmuşdur. Dramaturq “Xurşidbanu Natəvan”, “Şeyx Məhəmməd Xiyabani”, “Hökmdar və qızı” və digər tarixi dramları ilə xalqımızın müstəqilliyi uğrunda apardığı mübarizənin, istiqlal məfkurəsinin, azadlıq hərəkatının bədii tərənnümçüsünə çevrilmişdir.

Ədəbiyyatımızda lirik-psixoloji üslubun ustalarından olan, yeni obrazlar, xüsusilə də maraqlı qadın obrazlarının mahir yaradıcısı sayılan İlyas Əfəndiyevin bütün pyeslərinə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında səhnə həyatı verilib. Bu xüsusda qeyd edək ki, Azərbaycan ədəbiyyatında heç bir dramaturqun onun qədər teatrla uzunmüddətli fəal yaradıcılıq əlaqəsi olmayıb. 1990-cı ildə İstanbul və Ankara səhnələrində “Bizim qəribə taleyimiz” və “Sevgililərin cəhənnəmdə vüsalı” uğurla oynanılıb, bu əsərlər haqqında Türkiyə mətbuatı onlarla sanballı məqalələr verib.

... Altmış ildən çox yaradıcılıq yolu keçmiş görkəmli sənətkar ömrünün son illərində də məhsuldar bir yazıçı kimi yazıb-yaradıb, sovet rejimi, partiya qadağaları dövründə deyə və yaza bilmədiyi bir sıra mövzuları yeni zamanın kontekstində oxuculara təqdim edib. O, “Hacı Axundun cənnət bağı necə oldu” hekayəsini, “Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı” povestini dərc etdirib, “Tənha iydə ağacı”, “Dəlilər və ağıllılar” “Hökmdar və qızı” və digər pyeslərini tamaşaya qoydurub, bir sıra yeni kitablarını nəşr etdirib.

... İlyas Əfəndiyevin müraciət etdiyi ədəbi janrların hər birindən xalqın taleyüklü məsələlərinin, mühüm siyasi və mənəvi dəyərlərin böyük vətəndaşlıq yanğısı ilə bədii təhlili boy göstərir. Yaradıcılığı boyu hakim ideologiyanı tərənnüm etməyən ədib o dövrdə ədəbiyyatda yasaq olan Cənubi Azərbaycan və mühacirət mövzularında əsərlər yazıb.

Uşaqlıq və yeniyetməlik illərinin acılı-şirinli minbir xatirəsinə ünvan olmuş Qarabağ, o cümlədən Şuşa yazıçının gələcək əsərlərində sevimli mövzulardan olub. O, namərd qonşularımızın ötən əsrin 90-cı illərindən başlayan xəyanətkarlıqlarını, işğalçılıq hərəkətlərini dərin narahatlıq, vətəndaş yanğısı ilə izləyib, əsərlərində Qarabağın qədim tarixini əks etdirib.

... Böyük sənətkar İlyas Əfəndiyev 1996-cı il oktyabrın 3-də Bakı şəhərində dünyasını dəyişib və Fəxri xiyabanda dəfn olunub. İçərişəhərdəki küçələrdən birinə və “Elitar” Gimnaziyaya onun adı verilib. Ulu öndərin tapşırığı ilə ədibin “Seçilmiş əsərləri”nin yeddi, Prezident İlham Əliyevin sərəncamı ilə üçcildliyi nəşr edilib. Onun əsərləri son illər rus, türk və digər dillərdə dəfələrlə nəşr olunub, yaradıcılığı haqqında monoqrafiyalar, doktorluq, namizədlik dissertasiyaları yazılıb.

Ədəbiyyatşünas Yaşar Qarayev böyük nasir haqqında yazırdı: “Əsərlərindən biri ”Geriyə baxma, qoca” adlansa da, o, həmişə irəlini görmək üçün geriyə baxmağın tərəfdarı olub, gələcəklə keçmiş arasında bir körpünün üzərində dayanaraq həyata və insanlara buradan boylanıb-baxıb”.

Filologiya elmləri doktoru Vaqif Yusifli isə bir məqaləsində qeyd edib: “ İlyas Əfəndiyev haqqında düşünəndə bir də quruyub xəzəl olsa belə, öz ətrini, rayihəsini itirməyən, elə bil yenicə dərilən boy çiçəyini xatırlayırsan. İnsanlar arasında ən zərif, ən kövrək, ən bakirə hissləri də həmin boy çiçəyinin ətri ilə müqayisə eləmək olar. Bir də ona görə ki, İlyas Əfəndiyevin nəsri və dramaturgiyası bütünlükdə bu incə hissləri şairanə bir dillə tərənnüm edir”.

Unudulmaz yazıçı-dramaturqun sevimli müəllifləri kimlər idi? Bu barədə söz düşəndə Çexovun, Tolstoyun, Şekspirin... adlarını çəkib. Heminqueyi sevdiyini belə izah edib ki, onda heç bir hoqqabazlıq-zad yoxdu, hər şey təbiidi, hər şey həyatda olduğu kimidi. Sonra Flober gəlir, “Madam Bovari”. Bir də Stendal. Ən çox sevdiyi əsər “Robinzon Kruzo” idi...

Onun sənət yolunu oğlu Elçin Əfəndiyev layiqincə davam etdirir. Müsahibələrinin birində İlyas Əfəndiyev “Oğlunuz Elçinin ən çox hansı cəhətini bəyənirsiz, hansını bəyənmirsiz?” sualına səmimi cavab verərək deyib: “Sözün düzü, mən Elçini həm çox istedadlı, həm də intellektual adam hesab eləyirəm. Əsərlərimə onun sözü qədər heç kəsin fikrini qiymətləndirmirəm. Onun balaca bir qeydi olsa, mən o əsəri üzə çıxartmaram. Yazıçılığı da ki, məlumdu”.

Xalq yazıçısı Elçin isə atası haqqında böyük sevgi ilə danışıb: “Çox güclü yaddaşı vardı. Vəfat edəndə stolunun üstündə yarımçıq yazısı vardı. Əski əlifbada yazırdı. Yazıçılar İttifaqında usta bir makinaçı vardı, rəhmətlik Sona Sadıqova, üzünü kirillə köçürürdü, redaktəni isə atam özü kirillə edirdi. Uzun düzəliş olanda, ya da hansısa hissə əlavə etmək lazım gələndə yenə keçirdi əski əlifbaya. O mürəkkəbli qələmlə yazırdı, mən makinada. Bir dəfə makinanın səsinə işarə edib dedi ki, bu səslə necə yazırsan? Mən də dedim, bəs sən bu səs olmayanda necə yazırsan? (Gülür.) Məndən fərqli olaraq onun ən böyük kabineti evdəki iş otağı idi. Bilirsən ki, partiyanın üzvü deyildi. Axıracan da olmadı. Rəsmi iclasları, idarələri xoşlamazdı. Ən böyük ictimai işi Yazıçılar İttifaqında olub. Onda orda bir sədr vardı, bir də məsul katib. Mehdi Hüseyn sədr seçiləndə, o da, məsul katib seçilmişdu. 8 ay işlədi, sonra nə illah elədilər, işə çıxmadı. Dedi, mənlik deyil. Bundan sonra ümumiyyətlə işləmədi. Evdə oturub yazı-pozu ilə məşğul olurdu. Onun rəsmiyyətlə bağlı işlərini mən görürdüm. Arxiv-zad da saxlayan deyildi. Ağlım kəsməyə başlayandan nələrisə mən topladım və 7 cildliyini çap eləyəndə xeyli köməyimə çatdı”.

Elçin Əfəndiyev müsahibəsində bəhs etdiyi yarımçıq yazıya da aydınlıq gətirib: “Hə, rəhmətlik Qəndab Quliyeva haqqında idi. Görünür, hansı redaksiyadansa xahiş etmişdilər. Qəndabın ifasını çox bəyənirdi. Ümumiyyətlə, musiqini çox xoşlayırdı, xüsusən də bizim xalq mahnılarımızı. Həmin yarımçıq yazının səhəri günü rəhmətə getdi”...

Duyğu və düşüncələrimizin böyük tərcümanı olan İlyas Əfəndiyev 27 il əvvəl bizi cismən tərk etsə də, ruhən sağdır və müasirimiz olaraq qalır.

**Əli NƏCƏFXANLI,**
**“Xalq qəzeti”**

---

# Sertifikatlaşdırma imtahanları təhsildə stimullaşmaya xidmət edir

**Getdikcə inkişaf edən, qloballaşan dünyada yeni texnologiyaların bütün sahələrə tətbiq edildiyi bir zamanda, cəmiyyətimizdə böyük diqqət yetirilən təhsil sistemi də yeniləşmə tələb edir. Ölkəmizin ümumtəhsil məktəblərində çalışan müəllimlərin sertifikatlaşdırılması bu istiqamətdə görülən ən mühüm işlərdəndir və bu addım təhsilin keyfiyyətinə təsir etmək baxımından növbəti təkan olacaq.**

Artıq dünən Təhsil İnstitutu sertifikatlaşdırılma imtahanlarına hazırlaşan müəllimlərə dəstək məqsədilə sınaq imtahanları keçirib. Onlayn formada təşkil edilən imtahanlarda Azərbaycan dili və ədəbiyyatı, ibtidai sinif müəllimləri iştirak ediblər. İmtahan linkinin bütün gün açıq olmasına baxmayaraq, hər bir müəllimin yalnız bir dəfə 120 dəqiqə ərzində sınaq imtahanında iştirak etmək imkanı qazanıb.



Babacan ZƏKİYEV

**Qusar rayonu Sərvər Abdulkərimov adına Balaqusar kənd tam orta məktəbinin direktoru Babacan Zəkiyev** ölkəmizdə təhsil sistemində böyük islahatların aparıldığını bildirdi: “Məktəbimizin həm ibtidai sinif, həm də azərbaycan dili müəllimləri budəfəki imtahanda özlərini sınayıblar. Elm və Təhsil Nazirliyi tərəfindən müəllimlərin sertifikasiya imtahanlarına cəlb edilməsi, prosesin daha da inkişaf etdirilməsi istiqamətində davamlı təkmilləşdirmə tədbirlərinin həyata keçirilməsi bu sahənin inkişafı istiqamətində atılan müsbət addımlardır.

Sertifikasiyanın nəticələri 50-dən yuxarı bal toplayan müəllimlərin əməkhaqqına 30 faiz, digər müəllimlərin əməkhaqqına isə 10 faiz əlavələr tətbiq ediləcək. Bu da əməyin stimullaşdırılması baxımından çox önəmlidir. Sertifikatlaşdırma imtahanları hamı tərəfindən birmənalı qarşılanmasa da, ümumilikdə cəmiyyətdə müsbət qarşılanır. İnsanların öz üzərində çalışması baxımından bu addım çox önəmlidir. Düşünürəm ki, bu proses şagirdlərin nailiyyətlərinin artırılmasına da təsirini göstərəcək.



Arzu HƏBİBOVA

**Astara şəhəri C.Babayev adına 3 saylı tam orta məktəbin ibtidai sinif müəllimi Arzu Həbibova** cəmiyyətin tərəqqisinə təsir edən müəllimlik peşəsinin vacib və kifayət qədər ciddi peşə olduğunu bildirdi: “Məsuliyyəti başa düşüb, mütəmadi olaraq biliklərimizi artırmağa səy göstəririrk. Artıq 24 ildir ki, gənc nəslin təlim-tərbiyəsi ilə məşğul oluram. Sertifikasiyanın məqsədi ildən-ilə inkişaf edən təhsildə müəllimlərin biliklərini qiymətləndirməkdir. İndiyədək diaqnostik imtahanda iştirak etmişəm. 80 faiz nəticə göstərmişəm. Sertifikatlaşdırılma imtahanlarına hazırlaşan müəllimlərə dəstək məqsədilə keçirilən sınaq imtahanları biliklərimizi qiymətləndirmək baxımından bizim üçün önəmlidir”.

**Sınaq imtahanından sonra fikirlərini bölüşən gənc müəllimə Pərvanə Əlibəyli** qeyd etdi ki, sertifikasiyanın müəllimlər arasındakı rəqabəti gücləndirəcəyi şəksizdir: “Müəllimlərin biliyinin düzgün qiymətləndirilməsi onlar arasında rəqabətin artmasına səbəb olacaq. Düşünürəm ki, bu, həm də bizim üçün stimul olacaq. Kim yaxşı nəticə göstərəcəksə, onun biliyi də yüksək qiymətləndiriləcək. Biz gənc müəllimlər daim inkişafa can atırıq. Sertifikasiya kimin biliklərinin hansı səviyyədə olduğunu göstərəcək. Əminəm ki, bu addım təhsilimizin inkişafına mühüm töhfələr verəcək”.



Azərbaycan dili və ədəbiyyat müəllimi **Səfurə İmanova** isə dedi ki, fərlənmək üçün sınaq imtahanı əsl fürsətdir: “Gələcək perspektivlər məhz inkişafla bağlıdır. Ümid edirik ki, səylərimiz əbəs olmayacaq”.

**Kamran Əsədov, təhsil məsələləri üzrə ekspert:**

– İlk növbədə, qeyd edim ki, sertifikasiya olduqca lazımlı və yerində bir prosedurdur. Müəllimlərin sertifikasıyasının attestasiyadan fərqi ondan ibarətdir ki, attestasiya işçinin yalnız müvafiq intizam tələblərinə cavab verib-verməməsini müəyyən edirsə, sertifikasiya müəllimin öz ixtisasını hansı səviyyədə bilməsini müəyyənləşdirir. Diaqnostik qiymətləndirmədən fərqli olaraq, bu, ixtisasla praktiki fəaliyyətdə hansı nailiyyətlərin əldə edilməsini də müəyyən edə biləcək. Digər fərq isə ondadır ki, müəllim attestasiyanın nəticəsindən asılı olaraq ya işini saxlayır, ya da itirir. Sertifikasiya prosesində isə müəyyən imtahandan keçərək sertifikatını alır və fəaliyyət göstərir.

Azərbaycan müstəqilliyini əldə edəndən sonra keçid dövründə bəzi məlum çətinliklər səbəbindən əsl peşəkarlarla yanaşı, çoxsaylı təsadüfi insanlar da təhsilə üz tutdular. 2014 -2019-cu illərdə mərhələ-mərhələ bütün müəllimlər diaqnostik qiymətləndirmədən keçirildi. Diaqnostik qiymətləndirmə pedaqoji heyətin nəzəri, bəzi hallarda əzbərçi biliklərini müəyyən edə bilsə də, praktiki səriştəsini, müəllimin dünyagörüşü, etik davranış səviyyəsini, mənəvi dəyərlərə, azərbaycançılıq ideologiyasına sədaqətini yoxlaya bilmədi. Bu baxımdan, attestasiya nəzərdə tutulsa da, onun tətbiqi üçün olduqca mürəkkəb, uzun prosedurlar lazım olduğundan reallaşa bilmədi.

“Təhsil haqqında” Qanuna müvafiq dəyişikliklər və əlavələr təklif olundu.



Kamran ƏSƏDOV

Bunu Milli Məclis dəstəklədi və Prezident tərəfindən imzalanaraq qüvvəyə mindi.

Onu da qeyd edim ki, sertifikasiya və attestasiya diaqnostik qiymətləndirmə formatında deyil. Diaqnostik qiymətləndirmədə müəllimin ixtisas və metodiki bilikləri nəzərə alınsa da, onun peşəkarlığı ilə bağlı bütün cəhətlər diqqətdən kənarda qalır. Attestasiya zamanı ola bilər ki, müəllim test imtahanı ilə yanaşı, həm də müsahibə mərhələsindən keçsin. Yaxud müəyyən müəllimlərdən bilik və bacarıqlardan başqa qabiliyyət imtahanı verməsi də tələb olunsun.

Əmək Məcəlləsində göstərilmiş qaydada attestasiya sovet dövründə və 1995-ci illərdə Azərbaycanda həyata keçirilib. Sözün düzü, heç vaxt effektiv nəticə verməyib.

Digər bir məsələ Təhsil haqqında 2009-cu ildə qəbul olunmuş qanuna attestasiya, akkreditasiya, nostrifikasiya, lisenziya kimi anlayışlar daxil edildiyi halda, sertifikasiya nəzərdə tutulmamış, yalnız 2015-ci ildə bu məsələ yada düşərək qanuna müvafiq əlavə edilmişdir. Həmin qanuna əsasən attestasiya – hər bir təhsil pilləsində və səviyyəsində təhsilalanların təhsildə nailiyyətlərinin və təhsilverənlərin fəaliyyətinin qiymətləndirilməsi proseduru kimi dəyərləndirilmiş, təhsil sahəsində dövlət standartları fərdin, cəmiyyətin, dövlətin tələbatına uyğun olaraq, elmi-pedoqoji prinsiplər əsasında hazırlanan və müəyyən dövr (5 ildən az olmayaraq) üçün vahid dövlət tələblərini əks etdirən ümumi normalar məcmusundan ibarət olduğu qeyd edilmişdir.

**Leyla SABİRQIZI,**
**“Xalq qəzeti”**

# “Heydər Əliyev və musiqi mədəniyyəti”

**Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) “Heydər Əliyev ili” çərçivəsində tədbirlər silsiləsindən qurumun ərsəyə gətirdiyi “Heydər Əliyev və musiqi mədəniyyəti” kitabının təqdimat mərasimi keçirilib.**



Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızının tərtibçi-müəllifi olduğu kitabın məsləhətçi və rəyçisi ABİ sədri, Xalq artisti, AMEA-nın müxbir üzvü, professor Firəngiz Əlizadə Heydər Əliyevlə bağlı gənclik illərinin xatirələrini dilə gətirib. Kulturoloq, tarix elmləri doktoru, professor Fuad Məmmədov “Heydər Əliyev və Azərbaycan mədəniyyəti”, sənətşünaslıq üzrə elmlər doktoru, dosent Leyla Zöhrabova “Heydər Əliyev və musiqi mədəniyyəti” kitabı haqqında”, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Jalə Qulamova “Heydər Əliyev və Azərbaycan Bəstəkarlar İttifaqı”, L.və M.Rostropoviçlər ev-muzeyinin icraçı rəhbəri Günay Əliyeva “Siyasəti və mədəniyyəti birləşdirən iki dahi şəxsiyyət: Heydər Əliyev və Mstislav Rostropoviç” mövzularında məruzə ediblər. Görkəmli dövlət xadimi, müdrik siyasətçi Heydər Əliyevin universal insan, şəxsiyyət kimi elmə, mədəniyyətə, o cümlədən musiqiyə verdiyi dəyərdən, göstərdiyi diqqət və qayğıdan ətraflı danışıblar.

Mərasimdə maraqlı musiqi parçaları, video və foto slaydlar bir-birini əvəz edib. “Qafqaz media” ictimai birliyi Səadət Təhmirazqızını “Heydər zirvəsi – 100” diplomu və medalı ilə mükafatlandırıb. Sonda Firəngiz Əlizadənin öz sözlərinə bəstələdiyi, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və Azərbaycan Dövlət Xor Kapellasının ifa etdiyi “Zəfər marşı”nın lent yazısı səslənib.

**Əli NƏCƏFXANLI,**
**“Xalq qəzeti”**

# Azərbaycan şairi Qazaxıstan mükafatı aldı

**Həmyerlimiz – tanınmış şair-tərcüməçi Akif Əhmədgilə Qazaxıstan Yazıçılar Birliyinin “Alaş” beynəlxalq ədəbi mükafatı verilib.**

Qazax ədəbiyyatının yorulmaz təbliğatçısı olan Akif Əhmədgil Oljas Süleymenovun “Az i Ya”, “Kuman nəğməsi” (Elxan Zal Qaraxanlı ilə birlikdə), “Tanrının təbəssümü”, Uluğbəy Esdövlətin “Uluğbəy küçəsi” kitablarını, Marcan Cumabayevin şeirlərini dilimizə çevirib. O, hazırda O.Süleymenovun “Xəzər Albaniyası” adlı linqvistik novellalar toplusunu tərcümə edərək çapa hazırlayır.

Beynəlxalq mükafatı Akif Əhmədgilə QYB-yə uzun müddət rəhbərlik etmiş tanınmış şair Uluğbəy Esdövlət təqdim edib.

**Ə.ƏLİYEV, “Xalq qəzeti”**



## COVID-19 infeksiyasına 9 yoluxma faktı qeydə alınıb

**Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 9 yoluxma faktı qeydə alınıb, 11 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında operativ qərargahdan verilən məlumata görə, indiyədək ölkədə ümumilikdə 831 min 789 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 821 min 431 nəfər müalicə olunaraq sağalıb, 10 min 273 nəfər vəfat edib. Aktiv xəstə sayı 85 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 1148, bu günə qədər isə ümumilikdə 7 milyon 616 min 76 test icra olunub.

**“Xalq qəzeti”**

# Tələblərin qeydiyyatına artıq başlanıldı!

Məlumat üçün bildiririk ki, ləğv prosesində olan “Günay Bank” ASC-nin kreditorlarının tələblərinin qeydiyyatına artıq başlanıldı.

Bildiyiniz kimi, Əmanətlərin Sığortalanması Fondu ləğv prosesində olan “Günay Bank” ASC-nin ləğvedicisi olaraq ötən gün kütləvi informasiya vasitələrində kreditor tələblərinin qeydiyyata alınması ilə bağlı bildiriş yayımlamışdır. Sözügedən bildirişə əsasən, tələblərin qeydə alınması üçün kreditorlar öz tələblərinin hüquqi əsasını sübut edən sənədləri və aşağıdakı məlumatları 18 iyul 2023-cü il tarixədək Bankın Baş ofisinə müraciət edərək təqdim etməlidirlər:

- ✓ *kreditorun adı və ünvanı;*
- ✓ *tələbin əsas məbləğinə daxil edilən faizlərin və digər haqların məbləğləri;*
- ✓ *tələbin təminatı olan girov (ipoteka) və ya qarantiya barəsində məlumat.*

Ləğv prosesində olan “Günay Bank” ASC-nin Baş ofisi

**Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Aşıq Alı küçəsi 45

**Əlaqə:** (+994) 941

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti öz gəmiləri üçün dizel generatorlarının satın alınması məqsədilə

### AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il iyunun 6-sı saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1177.

Ünvan- AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

## “Bərdə Broyler” ASC-nin 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabat

manatla

| AKTİVLƏR | 31dekabr 2022 -ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| ***Uzunmüddətli aktivlər*** | | |
| Torpaq, tikili və avadanlıqlar | 713,056.54 | 742,767.23 |
| | **713,056.54** | **742,767.23** |
| ***Qısamüddətli aktivlər*** | | |
| Qısamüddətli debitor borcları | 36,878.96 | 27,708.96 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 9,766.62 | 11,072.01 |
| Dövlət büdcəsindən vergilər üzrə debitor borclar | 50.04 | 23,813.89 |
| | **46,695.62** | **62,594.86** |
| **CƏMİ AKTİVLƏR** | **759,752.16** | **805,362.09** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **KAPİTAL** | | |
| Ödənilmiş nizamnamə kapitalı | 247,456.00 | 247,456.00 |
| Bölüşdürülməmiş mənfəət / (ödənilməmiş zərər) | 79,848.91 | 43,661.57 |
| **CƏMİ KAPİTAL** | **327,304.91** | **291,117.57** |
| **ÖHDƏLİKLƏR** | | |
| ***Uzunmüddətli öhdəliklər*** | | |
| Uzunmüddətli borclar | 428,475.47 | 508,475.47 |
| | **428,475.47** | **508,475.47** |
| ***Qısamüddətli öhdəliklər*** | | |
| Qısamüddətli kreditor borcları | 427.73 | 427.73 |
| Vergilər və sair məcburi ödənişlər üzrə öhdəliklər | 3,544.05 | 4,514.31 |
| Digər öhdəliklər | - | 827.01 |
| | **3,971.78** | **5,769.05** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **432,447.25** | **514,244.52** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **759,752.16** | **805,362.09** |

### Mənfəət və ya zərər haqqında hesabat

| | | |
|---|---|---|
| **GƏLİRLƏR** | **102,508.56** | **102,508.56** |
| **XƏRCLƏR** | | |
| Əmək haqqı | 10,822.34 | 8,884.22 |
| DSMF | 2,147.63 | 1,837.40 |
| İcarə haqqı | 12,800.00 | 12,800.00 |
| Amortizasiya | 29,710.69 | 30,948.63 |
| Audit xərcləri | 1,000.00 | 800.00 |
| Bank xidmətləri üzrə xərclər | 312.54 | 277.99 |
| Torpaq vergisi | 6,200.00 | 6,200.00 |
| Sığorta xərcləri | 466.92 | 16.80 |
| Hüquq xidməti | - | 1,200.00 |
| Rabitə xərci | 20.00 | 43.00 |
| Poçt xidməti | 180.00 | - |
| Notarius xərci | 46.00 | - |
| Sair cərimə və rüsumlar | - | 0.67 |
| Sair xərclər | 699.72 | 3,949.22 |
| | **64,405.84** | **66,957.93** |
| **MƏNFƏƏT** | **38,102.72** | **35,550.63** |
| Gəlirdən çıxılmayan xərclər | 246.00 | 1,243.67 |
| **VERGİYƏ CƏLB OLUNAN MƏNFƏƏT** | **38,348.72** | **36,794.30** |
| Mənfəət vergisi | 1,917.44 | 1,839.71 |
| **XALİS MƏNFƏƏT / (ZƏRƏR)** | **36,431.29** | **34,954.59** |

### Kapitalda dəyişikliklər haqqında hesabat

| | Ödənilmiş nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət / (ödənilməmiş zərər) |
|---|---|---|
| **2022-ci il yanvarın 1-nə qalıq** | **247,456.00** | **43,661.57** |
| Xalis mənfəət / (zərər) | | 36,187.34 |
| **2022-ci il dekabrın 31-nə qalıq** | **247,456.00** | **79,848.91** |
| **2021-ci il yanvarın 1-nə qalıq** | **247,456.00** | **12,532.03** |
| Xalis mənfəət / (zərər) | | 31,129.54 |
| **2021-ci il dekabrın 31-nə qalıq** | **247,456.00** | **43,661.57** |

### Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| | | |
|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | |
| Digər gəlirlərdən daxilolmalar | 111,790.00 | 121,870.00 |
| Mallar və xidmətlərə görə xaricolmalar | (18,561.73) | (17,803.27) |
| İşçilərin mükafatlandırılması üzrə ödənişlər | (14,533.66) | (10,025.41) |
| Vergilərə və sair məcburi ödəmələrə görə xaricolmalar | | (0.67) |
| Digər ödənişlərə görə xaricolmalar | | |
| | **78,694.61** | **94,040.65** |
| ***İNVESTİSİYA FƏALİYYƏTİNDƏN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ*** | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | | |
| ***MALİYYƏ FƏALİYYƏTİNDƏN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ*** | | |
| Borc şəklində alınmış vəsaitlər | (80,000.00) | (89,000.00) |
| Borc şəklində alınmış vəsaitlərin geri ödənilməsi | **(80,000.00)** | **(89,000.00)** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | **(1,305.39)** | **5,040.65** |
| **Dövrün əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | **11,072.01** | **6,031.36** |
| **Dövrün sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **9,766.62** | **11,072.01** |

### MÜSTƏQİL AUDİTORUN RƏYİ

Biz, “BƏRDƏ BROYLER” ASC-nin 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizcə, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Kommersiya Təşkilatları Üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid etik normalarla Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının “Etika məcəlləsinin” (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və ya IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə hesabat dövrünün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına aid rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmış və biz bu məsələlər barədə ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik, maliyyə hesabatlarının Kommersiya Təşkilatları Üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun hazırlanmasına, düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu şəkildə, istifadəçilərin təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda əhəmiyyətli hesab olunur.

**“Audit Consulting 17” MMC-nin direktoru**
**Nazim Suxənvər oğlu Cəfərov.**

**Bakı, 12 may 2023-cü il.**

## “İşgüzar Kredit İttifaqı” MMC-nin 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabat

manatla

| AKTİVLƏR | 31 dekabr 2022-ci il | 31dekabr 2021-ci il |
|---|---|---|
| ***Uzunmüddətli aktivlər*** | | |
| Torpaq, tikili və avadanlıqlar | 208 | 277 |
| | **208** | **277** |
| ***Qısamüddətli aktivlər*** | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 244 | 463 |
| Sair qısamüddətli aktivlər | 49,406 | 58,609 |
| | **49,650** | **59,072** |
| **CƏMİ AKTİVLƏR** | **49,858** | **59,349** |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | | |
|---|---|---|
| **KAPİTAL** | | |
| Ödənilmiş nizamnamə kapitalı | 4000 | 4000 |
| Kapital ehtiyatları | 45,858 | 55,349 |
| **CƏMİ KAPİTAL** | **49,858** | **59,349** |
| **ÖHDƏLİKLƏR** | | |
| ***Uzunmüddətli öhdəliklər*** | | |
| ***Qısamüddətli öhdəliklər*** | | |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **49,858** | **59,349** |

### Mənfəət və ya zərər haqqında hesabat

| | | |
|---|---|---|
| **ƏMƏLİYYAT GƏLİRLƏRİ** | **10,443** | **14,967** |
| **Satışın maya dəyəri** | | |
| Ümumi mənfəət | **10,443** | **14,967** |
| İnzibati xərclər | (15,434) | (18,781) |
| Əməliyyat mənfəəti (zərəri) | (4,991) | (3,814) |
| Vergidən əvvəlki mənfəət (zərər) | (4,991) | (3,814) |
| Hesabat dövründə xalis mənfəət (zərər) | (4,991) | (3,814) |

### Kapitalda dəyişikliklər haqqında hesabat

| | Ödənilmiş nizamnamə kapitalı | Kapital ehtiyatları (nizamnamə üzrə ehtiyat) | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|---|
| Keçmiş hesabat dövrünün əvvəlinə olan qalıq 2021-ci il yanvarın 1-nə | **4,000** | **77,012** | **(17,849)** | **63,163** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | | (3,814) | **(3,814)** |
| **Keçmiş hesabat dövrünün sonunda qalıq 2021-ci il dekabrın 31-nə** | **4,000** | **77,012** | **(21,663)** | **59,349** |
| **Hesabat dövrünün əvvəlinə qalıq 2022-ci il yanvarın 1-nə** | **4,000** | **77,012** | **(21,663)** | **59,349** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | | (4,991) | **(4,991)** |
| Kapitalın maddələri arasında köçürmələr | | (4,500) | | (4,500) |
| **Hesabat dövrünün sonunda qalıq 2022-ci il dekabrın 31-nə** | **4,000** | **72,512** | **(26,654)** | **49,858** |
| **Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | **4,000** | **72,512** | **(26,654)** | **49,858** |

### Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| | | |
|---|---|---|
| Kassa | 80 | 100 |
| Bank hesablarında olan pul vəsaitləri | 164 | 363 |
| ƏDV depozit hesabında olan pul vəsaitləri | 244 | 463 |

**“İŞGÜZAR KREDİT İTTİFAQI” MMC-nin təsisçilərinə!**

Maliyyə hesabatlarının auditinə aid rəy

Biz, **“İŞGÜZAR KREDİT İTTİFAQI” MMC-nin** 2022-ci il dekabrın 31-nə tərtib edilən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun hazırlanmasının düzgünlüyünü yoxladıq.

Bizcə, **“İŞGÜZAR KREDİT İTTİFAQI” MMC** tərəfindən başa çatan 2022-ci il dekabrın 31-nə tərtib edilən hesabat Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun hazırlanmışdır.

**Rəy üçün əsaslar**

Biz, auditi Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid etik normalarla Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının “Etika məcəlləsinin” (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyilik və digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutları auditor rəyini əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdəndir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına aid rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmış və biz bu məsələlər barədə ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik, maliyyə hesabatlarının BMHS-ya (beynəlxalq maliyyə hesabatları standartları) uyğun hazırlanmasına, düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə məqsədli şəkildə və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz təqdim edilən maliyyə hesabatlarında bir tam kimi, məqsədli şəkildə və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik ,əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər, məqsədli şəkildə və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu şəkildə, istifadəçilərin təqdim etdikləri maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda əhəmiyyətli hesab olunur.

“Azel–Audit” MMC-nin direktoru və auditoru – Süleymanova Elzadə Süleyman qızı

**23 may 2023-cü il**

## “Sumqayıt Şirniyyat”ASC səhmdarlarının nəzərinə!

9 iyul 2023-cü il saat 12.00-da “Sumqayıt Şirniyyat”ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**İclasın gündəliyi:**

1. “Sumqayıt Şirniyyat” ASC-nin idarəetmə orqanının 2022-ci il üçün maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və təsdiqi.

**2. Digər məsələlər.**

Bütün səhmdarların iştirakı vacibdir.

Telefon-050-210-68-38.

Ünvan- Sumqayıt şəhəri, Lermontov küçəsi 13.

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 110 (30226) 26 may 2023-cü il, cümə
veb-sayt: www.xalqqazeti.az

*İdman xəbərləri*

## Qadın boksçumuz bürünc medalı təmin edib

**Azərbaycanın qadın boksçusu Şəhla Allahverdiyeva (66 kq) Polşanın Pultusk şəhərində keçirilən beynəlxalq turnirdə uğurla çıxış edərək dördddəbir finala çıxıb.**




Dəri əlcək ustası bu mərhələdə Asuteya Ausiuteyə (Litva) 4:1 hesabı ilə qalib gələrək yarımfinala yüksəlməklə, özü üçün ən azı bürünc medalı da təmin edib.

Şəhla Allahverdiyeva final uğrunda fransalı Fatia Benmessahellə mübarizə aparacaq. Yarışın qalibləri bu gün müəyyənləşəcək.

## Danışılmış oyunların cəzası

**Belə oyunlarda iştirak etmiş 6 futbolçu AFFA İntizam Komitəsi tərəfindən cəzalandırılıb.**



Bu barədə Peşəkar Futbol Liqasının rəsmi saytı məlumat yayıb.

Belə ki, I Divizionda MOİK-də çıxış edən Kamil Hüseynov, İlham Allahverdiyev, Rüstəm Rüstəmov, Elşən Veysov, ordu klubunun sabiq üzvü Qabil Sabirli, MOİK-in formasını geyinmiş, hazırda "Araz Naxçıvan"ın qapıçısı olan Fərman Bayramovun 2 il müddətinə (1 il 6 ay şərti olmaqla) futbolla əlaqədar hər hansı fəaliyyətlə məşğul olmaları qadağan edilib. Onlar yalnız 6 aydan sonra meydana qayıda bilərlər.

Daha bir nəfər – Samir Hüseynov adlı şəxs isə "danışıqlar"da təşkilatçılıq etdiyinə görə, futbolla bağlı hər hansı fəaliyyətdən ömürlük məhrum edilib.

## "Paris-2024"ün açılış mərasiminə bilet 2,7 min avro olacaq

**"Paris -2024" Olimpiya Oyunlarının açılış mərasimi üçün pullu yerlərin qiyməti açıqlanıb.**



Bu barədə Fransanın idman-Olimpiya və paralimpiya oyunları naziri Ameli Udea-Kastera məlumat verib. O qeyd edib ki, Sena çayı sahilində keçiriləcək açılış mərasimində çayın yuxarı səkisində təxminən 300-400 min pulsuz və aşağı səkisində isə 100 min pullu yer olacaq. Pullu yerlərə biletin qiyməti isə 2700 avro olacaq.

***Leyla QURBANOVA, "Xalq qəzeti"***

*Texnologiya yenilikləri*

## Qatlanan ekranlı smartfonlar



"Sony" şirkəti kiçik ekranlı qatlana bilən smartfon üzərində işə başlayıb.

Displeyin ölçüləri hələlik açıqlanmır. Cihaz Sony seriyasında ilk qatlana bilən smartfon olacaq. Bu barədə Çinin "ITHome" nəşri məlumat yayıb.

Məlumata görə, qurğu kiçik diaqonallı "Compact" displeyli smartfonlar çərçəsindədir. Bu seriyanın ən son qadceti "Xperia XZ2 Compact" idi. Həmin 5 düymlük ekranlı cihaz 2018-ci ildə buraxılıb.

## "Meta" şirkətinə rekord cərimə




**Avropa İttifaqı (Aİ) "Meta" şirkətinə 1,2 milyard avro cərimə kəsib. Buna səbəb "Facebook"un ana şirkəti olan "Meta"ya məlumat ötürülməsi olub.**

Qeyd edək ki, "Meta" Aİ-nin məlumatların mühafizəsi qaydalarını pozduğu üçün şirkətə Avropadakı "Facebook" istifadəçilərindən toplanan məlumatların ABŞ-a ötürülməsini dayandırmaq əmri verilib.

Elan edilən qərar yalnız "Facebook" üçün nəzərdə tutulub. Bu "Meta"nın sahib olduğu "İnstagram" və "WhatsApp"a aid edilmir. Məsələ ilə bağlı "Meta" bildirib ki, qərarla bağlı məhkəməyə şikayət edəcək.

***M.HACIXANLI, "Xalq qəzeti"***




## "Şəkər saatları" Çin bazarında

**Bir müddət bundan əvvəl Huawei şirkəti qlobal bazarda Watch 4 smart saat seriyasını təqdim etmişdi. Həmin seriyaya adi Watch 4 ilə yanaşı, Watch 4 Pro da daxildir. İndi isə şirkət o smart saatları Çin bazarında təqdim edib.**

Smart saatların Çin bazarı üçün nəzərdə tutulmuş versiyalarının qlobal bazarda satılan versiyalardan əsas fərqləri ondan ibarətdir ki, onlar qandakı şəkər miqdarını təyin etməyə imkan verirlər.

Beləliklə Huawei Watch 4 smart saatları bazarda qandakı şəkər miqdarını ölçə bilən ilk smart saatlar oldular. Bu özəllik şəkərli diabet xəstəliyindən əziyyət çəkən istifadəçilər üçün çox vacibdir. Çünki onlar mütəmadi şəkildə qandakı şəkər miqdarını ölçmək məcburiyyətində qalırlar.

***Z.BƏŞİRQIZI, "Xalq qəzeti"***

*Sosial şəbəkələrdən seçmələr*

## Hörmət hörmətə bağlıdır

**Sosial şəbəkələrdə fəallığı ilə seçilən ziyalı xanım, filologiya üzrə fəlsəfə doktoru Aynur Familqızının "Facebook"da daha bir paylaşımı diqqətimi cəlb etdi.**



– Bəzən düşünürük, ən böyük dəyər nədən başlayır? Yaxud, ən böyük dəyərsizlik nədir? Hər kəs öz prizmasından yanaşacaq, saydıqca bitməyəcək… Amma bu sualın cavabı sadə olduğu qədər də, mürəkkəbdir. Həm də insanlar arasında əlaqə, ünsiyyət məhz o nöqtədən başlayır: qarşılıqlı hörmət və sayğıdan.

İnsanlar arasındakı – böyük və kiçik (həm yaş, həm vəzifəcə), valideyn və övlad, qadın və kişi, müəllim və tələbə arasındakı səmimi münasibət, ortam, nüfuz, sevgi bir-birinə olan qarşılıqlı hörmətdən başlar. Sözsüz ki, bu münasibətin ilk təməli göz açdığımız ailədə qoyulur. Əvvəl evin içi, sonra çölü…

**P.S.** Bunu da unutmayaq ki, hörmət uman özü hörmətli olmalıdır. Xalqda deyildiyi kimi: "Hörmət hörmətə bağlıdır".

***M.QARAÇAYLI, "Xalq qəzeti"***

## Ən bahalı dondurma

**Yaponiyanın "Cellato" şirkəti dünyanın ən bahalı dondurmasını təqdim edərək "Ginnes"in rekordlar kitabına düşüb.**



"Byakuya" adlı təamın bir porsiyası müştərilərə 873 400 yapon yeninə (təxminən 6700 dollara) başa gələcək.

Nadir pendirlər və İtaliyada yetişdirilən ağ trüfel də daxil olmaqla, bir sıra digər inqrediyentlərdən hazırlanan dondurma xüsusi alıcılar üçün nəzərdə tutulub.

Şirkət gələcəkdə inqrediyentlərin qeyri-adi birləşmələri ilə digər desertlərin istehsalını da planlaşdırır. Onların arasında şampan və qara kürü ilə hazırlanan dondurma da olacaq.

***Fidan HÜQUQQIZI, "Xalq qəzeti"***

## Protez ayaqlarla Everestə yürüş

**Əfqanıstanda hər iki ayağını itirən Britaniya ordusunun keçmiş əsgəri dünyanın ən hündür zirvəsi Everesti fəth etmək qərarına gəlib.**



43 yaşlı Qari Budha Maqar 2010-cu ildə Əfqanıstanda xidmət edərkən əldəqayırma qurğunun partlaması nəticəsində hər iki ayağını itirib. O, 8848 metr hündürlüyündə olan Everestə qalxmağı qarşısına məqsəd qoyub. Maqarın dağın zirvəsini fəth etməsi azı beş-yeddi gün çəkə bilər.

Qeyd edək ki, Qari Maqar alpinist dostları ilə birlikdə Everestin 5 min 364 metr hündürlükdə yerləşən baza düşərgədən zirvəyə qədər olan məsafəni piyada qət etməlidir.

***"Xalq qəzeti"***

## "Apple" ABŞ-a 430 milyard dollarlıq sərmayə qoyacaq

**"Apple" şirkəti dünən ABŞ-ın "Broadcom" texnologiya şirkəti ilə yüksək sürətli 5G telekommunikasiya şəbəkələrinə simsiz qoşulmaq üçün milyard dollarlıq əməkdaşlıq sazişi imzalayıb.**



Bu barədə "Apple"ın baş icraçı direktoru Tim Kuk açıqlama verib:

"Apple"ın bütün məhsulları ABŞ-da hazırlanan texnologiyalardan asılıdır. Biz də çalışacağıq ki, ABŞ iqtisadiyyatına sərmayə qoymağa davam edək, çünki Amerikanın gələcəyinə sarsılmaz inamımız var".

Qeyd edək ki, şirkət beş il ərzində ABŞ iqtisadiyyatına 430 milyard dollar sərmayə qoymaq üçün 2021-ci ildə götürdüyü öhdəliyi yerinə yetirməyə hazırlaşır.

***Fidan SALMANOVA, "Xalq qəzeti"***

*Sağlamlıq guşəsi*

## Mədə narahatdırsa – darçın!

**Bir sıra səbəblərdən baş verən köpdən şikayətlənməyən insan yoxdur. Onun qarşısını almaq üçün dərman preparatlarından başqa təbii vasitələr də var.**



Bilirdinizmi ki, darçın yalnız ədviyyat deyil, həm də soyuqdəyməyə qarşı xüsusiyyətlərə malikdir. Həmçinin həzmə kömək edərək, köpü aradan qaldırır.

Mədə və qarında köpü 3 əlamətlə müəyyənləşdirirlər: mədə dolu və ya adi haldan daha böyük hiss olunur; qarın ağrısı və ya narahatlıq yaranır; mədə böyüyür və ya oradan səslər gəlir…

Darçın bədəndəki iltihabları azaltmağa kömək edən antioksidant hesab edilir. Həm də onun tərkibində iltihab əleyhinə birləşmələr var. Məhz bu səbəbdən kofeyə əlavə edilən darçın köpün qarşısını almaqda böyük təsirə malikdir.

***Z.BƏŞİRQIZI, "Xalq qəzeti"***

*Proqnoz*

## Yağış yağacaq, duman olacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, mayın 26-da Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Səhər bəzi yerlərdə yağış yağacağı, duman olacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək, axşam cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 16-21°, gündüz 25-30° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 758 mm civə sütunu, nisbi rütubət 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında şimal və qərb rayonlarından başlayaraq, bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 17-22°, gündüz 30-35°, dağlarda gecə 7-12°, gündüz 15-20° isti olacaq.

***Q. QASIMOV, "Xalq qəzeti"***

✓ "İNAM-H" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətini dayandırdığını elan edir (VÖEN 1500447571).

✓ "İNAM-Z" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətini dayandırdığını elan edir (VÖEN 1304230271).

✓ "MEDSİNA-H" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətini dayandırdığını elan edir (VÖEN 1402789161).

✓ "İNAM" Mənzil –Tikinti Kooperativi fəaliyyətini dayandırdığını elan edir (VÖEN1400040291).

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5183
SİFARİŞ 1322
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00